Bu bir xalq qəzetidi

ƏDALƏT

## Hulusi Akar: "Ermənilərə qarşı soyqırımı qətiyyən olmayıb"



**"Ermənilərə qarşı soyqırımı qətiyyən olmayıb. Bu, tarixdə açıq və dəqiq şəkildə yazılıb. Siyasətçilər tarixçi ola bilməz. Tarixi məlumatlar, sənədlər, şahidlərin ifadələri və aparılan araşdırmaların hamısı çox aydın və dəqiq şəkildə 1915-ci ildə belə bir hadisənin baş vermədiyini təsdiqləyir". Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.**

Nazir qeyd edib ki, amerikalıların bu məsələ ilə bağlı verdikləri bəyanat özlərinin tarixlərini, imzaladıqları müqavilələri və sənədləri inkar etmək mənasına gəlir. "Amerikalıların NARA adlı məşhur bir milli arxivləri var. Bu məsələ ilə bağlı orada hesabat saxlanılır. Amerikalılar, ingilislər 1914-15-ci və 1920-ci illərdə bununla bağlı hesabatlar hazırlayıblar. Həmin hesabatlarda açıq və dəqiq şəkildə yazılır ki, türklər və ermənilər 500 ildir birlikdə yaşayırlar. Sənəddə o da vurğulanır ki, əgər biz, (yəni amerikalılar və ingilislər) qarışmasaydıq və bu nizam-intizamı pozmasaydıq daha 500 il də birlikdə yaşayacaqdılar. Həmin hesabat hər kəs üçün açıqdır. Hadisələri təhrif edəcəklərini düşünənlər yanılırlar. Bunu etmək ancaq nadanlıq və cəhalətdir", - H.Akar bildirib.

## FHN: Ölkədə baş verən yanğın halları azalıb




**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti respublika ərazisində 2020-ci və 2021-ci illərin I rübü ərzində təhqiqatı aparılmış yanğınların statistik göstəricilərinin müqayisəli təhlilini aparıb.**

FHN-dən verilən məlumata görə, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən mütəmadi olaraq müəssisə və təşkilatlarda həyata keçirilən nəzarət, o cümlədən əhali ilə aparılan maarifləndirmə tədbirlərinin nəticəsi olaraq, yanğın hadisələrinin göstəricilərinin dinamikasında azalmaya nail olunub. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə yanğınların ümumi sayında 108, insan tələfatı 3, yaşayış sektorunun payına düşən yanğınlarda 109, ticarət obyektlərində 2, meşə sahələrində 1, nəqliyyat vasitələrində baş vermiş yanğınların sayında 9 fakt azalma, yanğın hadisələrindən dövlət, bələdiyyə və xüsusi mülkiyyətə dəyən maddi ziyanın məbləğində isə 116000 manat (2%) azalma qeydə alınıb.

**Yanğınların profilaktikası istiqamətində Xidmət tərəfindən səlahiyyətləri çərçivəsində zəruri tədbirlər davam etdirilir.**

## Hökumət parlamentə hesabat verəcək



**Mayda Azərbaycan hökumətinin Milli Məclisə toplanması gözlənilir.**

Oxu.Az-ın məlumatına görə, 2020-ci ilin dövlət büdcəsinin icrası barədə qanun layihəsinin müzakirəsi zamanı hökumət üzvləri parlamentə gələcək. Müzakirələr zamanı ötən ilin dövlət büdcəsinin gəlirləri və xərcləri müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, sənədi bir qayda olaraq maliyyə naziri təqdim edir.

## SÜLHMƏRAMLILAR BİZİ YAMAN TEZ ALDADIRLAR EY



*Aldanmağa və nağıllara öyrənmiş xalqıq. Hələ də aldadılmaqdan ləzzət alırıq və Məlikməmməd nağıllarına inanırıq.*

*Baxıram vdieolar paylaşıblar ki, guya Ermənistanın silahlı qüvvələri Dağlıq Qarabağdan çıxarılır. Bütün saytlar və sosial şəbəkələr bunu sevinclə paylaşıb.*

*Ağlınıza dua yazım, hərçənd ki dua yazmaq əlimdən gəlmir. Deməli, videolarda iki-üç dənə vurulmuş erməni tankını Ermənistana aparırlar, yəqin ki, təmir elətdirməyə və bir də üç, ya dörd dənə yük maşını (diqqət edin, arxası bağlıdır, əgər içində əsgər olsa, arxası bağlı ola bilməz, çünki boğularlar) Laçın dəhlizi ilə Ermənistana gedir. Guya ermənilərin silahlı qüvvələri Qarabağdan çıxarılır.*

*Dostlar, təmas xəttində yenidən istehkamlar qurulur, xəbəriniz var? Özü də sülhməramlıların köməyi ilə.*

*Deyəsən, Nüsrət Kəsəmənlinin şeiridi:*

*Daha nağıllara inanmıram mən...*

*Belə nağıllara inanmayın siz. Daha doğrusu, "siz", "biz" yox, dövlətimiz inanmasın.*

*Nəriman Qasımoğlu*

## Tanrı Sizi qorusun!

Bax:səh-2

*Aqil ABBAS*

## BAŞ ŞƏRABÇI SOVXOZ İDARƏSİNİ NİYƏ YANDIRDI?

Bax: səh.3

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 48 (5880) 4 may 2021-ci il | Qiyməti 30 qəpik

## O QƏDƏR SADƏLÖVH XALQIQ Kİ...



**Deməli, Rusiyadan bir sürü deputat və ekspert gəlib Ağdama. Və Ağdamı görəndə dəhşətə gəliblər ki, Xirosima ermənilərin törətdiyi bu vəhşiliyin yanında toya getməlidi.**

30 ildi mətbuat bunu yazır, Ağdamın və digər işğal altda olan rayonların xarabalıqları fotofaktla nümayiş etdirilir, gələn ekspertlərdən bir-ikisini çıxmaq şərtilə, qalanları bu barədə susur.

Pah atonnan, indi bilirlər ermənilərin vəhşiliyini. Və biz də həmin deputatlara mədhiyyələr deyirik.

**30 ildi harda çöplənirdiniz, indi bildiniz öz əl işlərinizi?**

*Əgər hökumət vaxtında jurnalistlərin yazdıqlarına reaksiya versə, heç vaxt Alimpaşa və alimpaşalar meydan sulaya bilməz.*



# Gömrükçülərdən narkotik əməliyyatı

**Son iki həftə ərzində gömrük işçiləri 730 kiloqramdan artıq narkotik vasitə aşkar ediblər.**

**Adalet.az xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bildirib.**

**"Ölkəmizin cənub sərhədlərində gömrük orqanlarının həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində, təkcə son iki həftə ərzində 5 fakt üzrə 730 kiloqramdan artıq narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb", - Komitə sədri qeyd edib.**



## Türkiyəyə göndərilən daha 2 qazimiz sağalaraq ölkəyə qayıtdı



**Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 2 qazimiz sağalaraq Vətənə geri dönüb.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən Adalet.az-a verilən məlumata görə, qazilərimiz Həmidov Kamran Qəribxan oğlunun və Quliyev Elnur İbadət oğlunun Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib. "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 65 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin!

**Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.**

*Uğur Dündar*

## Co Baydenə hüquq dərsi!

Bax:səh-3

## SÜLHMƏRAMLILARIN ƏLİNDƏ MİNA XƏRİTƏSİ VAR

**Düzdür, özləri də hərdən sərxoş olub minaya düşürlər, amma əllərində xəritə var. Və həmn xəritəyə uyğun da təmizləmə işləri aparırlar.**

Məsələ ondadır ki, ermənilər o qədər arxayın idilər ki, özlərinin yaşadığı şəhər və kəndlərin ətrafını minalamırdılar. Onlar Qarabağın sərhəd rayonlarının, yəni təmas xətlərinin ərazilərini minalayırdılar.

İndi sülhməramlılar Qarabağda ermənilərin yaşadığı ərazilərdə qoyub qaçdıqları mərmiləri, minaları tapırlar və partladıb televiziya kanallarında nümayiş etdirirlər ki, guya təmizlik işləri aparırlar.

Sülhməramlısansa keç təmas xəttindəki minaları axtar. Biz bunu onlardan tələb etməliyik.



**Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov ABŞ-da müalicə aldığı xəstəxanada dünyasını dəyişib. Onun nəşi II Fəxri Xiyabanda torpağa tapşırıldı.**

**Xatirəsi həmişə yaddaşlarda yaşayacaq Azad müəllimə Allah rəhmət eləsin!**

## Bakıda "Su parkı"

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, BMTİP-QEF Kür II Layihəsi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Arts Council Azerbaijan" təşkilatının birgə əməkdaşlığı ilə Bakının Qala etnoqrafik muzey qoruğunda "Su parkı" istifadəyə verilib.**




Yeni park 100-150 kvadratmetr sahədə yerləşir və bura müxtəlif incəsənət nümunələrinin yerləşdirilməsi üçün bir platforma olacaq. "Su parkı"nın salınmasında məqsəd istirahət zamanı insanları incəsənət vasitəsilə suyun əhəmiyyəti barədə maarifləndirməkdir. "Arts Council Azerbaijan" bu parkın ətrafında su çatışmazlığı və sudan səmərəli istifadə mövzusuna aid sənət obyektlərinin yaradılması və quraşdırılması, eyni zamanda, mövzu ilə bağlı müvafiq seminar və silsilə tədbirləri təşkil edib. Sənət obyektlərinin yaradılması prosesində 9 istedadlı rəssam iştirak edib.



*Səxavət Məmməd*

## Səbəbi mənə qalsın

**Sərhəddə baş verən o sürtüşmə ilk hal deyil. Son olacağına da inanmıram. Bəyanatdan sonra ilk qarşılaşmalar daha sərt olurdu. Şəxsən özümün şahidi olduğum bir hal da olub. Bu barədə yazmaq istəmirəm. Səbəbi mənə qalsın.**

**Sərhədçilər lazım olandan daha çox səbr nümayiş etdirdilər. Bəlkə də, onlara bu çox ciddi tapşırılıb.**

**Ancaq təcrübə onu göstərir ki, sərtlik bu məsələdə ən gözəl çıxış yoludur. Yəqin Keşikçidağ xatirinizdədir.**

**O vaxt hadisə baş verən günün səhərisi əraziyə daxil ola bilmişdim. Bir neçə tənqidi yazı da yazmışdım. Daha sonra sərhədçilər lazım olan kimi davrandı və vəziyyət 180 dərəcə dəyişdi.**

**İndi bəzi məsələlər üzərində daha çox işlənildiyi üçün dərinə getmək istəmirəm. Ancaq hər halda, təmasın olmasını qəbul etmirəm.**

**Bütün bunlar bir yana. DSX-nin mətbuat xidməti tamamilə susub. Ermənistan tərəfi yenə ilk olaraq məlumat yayıb. Əgər video yayılmasaydı, qurumun susmağını anlayardım.**

**Ancaq məsələ ictimailəşibsə, buna dərhal reaksiya verilməlidir. Həmişəki kimi erməni tərəfi dərhal rəsmi münasibətini bildirdi. İllərdir "mətbuat xidmətlərinin gecikməsindən cəmiyyət əziyyət çəkir" yazmaqdan boğaza yığılmışdır.**

## İstanbul-Gəncə istiqamətində birbaşa aviareyslər başlayır

*Türkiyənin milli aviadaşıyıcısı "Türk Hava Yolları" (THY) şirkəti İstanbul-Gəncə istiqamətində mayın 15-dən etibarən birbaşa aviareyslərə başlayır. Bu barədə şirkətdən bildirilib.*




*Məlumata görə, aviareyslər həftədə iki dəfə olmaqla çərşənbə axşamı və şənbə günü həyata keçiriləcək.*

*Qeyd edək ki, "Türk Hava Yolları" hazırda İstanbul-Bakı, Ankara-Bakı istiqamətində birbaşa aviareyslər həyata keçirir.*

*Xatırladaq ki, hazırda THY 226 istiqamət üzrə aviareyslər həyata keçirir.*

Aqil ABBAS
aqilabbas@rambler.ru

## MİRCƏFƏR BAĞIROV KOLXOZ SƏDRİNİ NİYƏ GÜLLƏLƏDİ?



**Atam 8-ci sinifdə oxuyanda Böyük Vətən Müharibəsinin ağır vaxtları imiş. Savadlı uşaqları mütəxəssis çatışmadığından kolxozlarda işə götürürmüşlər. Fikirləşin ki, görün vəziyyət nə gündəymiş ki, atam kolxozun baş hesabdarı imiş. Mənə müharibə ilə bağlı bir hadisəni danışdı.**

**Hadisə qonşu kənddə olub. Mən nə o kəndin adını yazıram, nə də həmin adamın adını. Çünki onun övladları var, nəvələri var və onların heç bir günahı yoxdur.**

**Deməli, belə. Müharibənin şıdırığı vaxtıdı. Mircəfər Bağırov gəlir Ağcabədiyə. Yol da Ağcabədiyə həmin kənddən keçir. Təbii ki, yaxın kəndin camaatı da bunu eşidəndə (necə ki Brejnev gələndə hamımız yığışırdıq yolun kənarına), yığılırlar həmin kəndə.**

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

Bir məclisdə bir nəfər boşboğaz yalançı camaata fürsət verməyib elə özü danışır. O qədər deyir ki, hamı təngə gəlir. Mollanı da yuxu basdığı üçün bir tərəfə çəkilib başlayır əsnəməyə. Axırda məclisdəkilərdən biri bu danışan adamın səsini kəsmək məqsədilə Mollaya deyir:

**- Molla, sənə nə olub? Bu gecə heç ağzını açmırsan...**

Molla bir də əsnəyib deyir:

**- Əksinə. Bu gecə heç mənim ağzım yumulmayıb. Elə əsnəyirəm ki, az qalır çənəm çıxsın.**

# Azad edilmiş ərazilərdə “yaşıl enerji” zonası yaradılacaq



**Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərində ”yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncamda deyilir:

**1.** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində ”yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 1.391.040,0 (bir milyon üç yüz doxsan bir min qırx) ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# İlham Əliyev: Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər

**Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq.**

Bunu Prezident İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edərkən deyib.

Dövlət başçısı bildirib:

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq.

İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir.

Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində Qələbəmiz əlbəttə ki, bölgədə yeni bir reallıq yaratdı. Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq.

Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır.

# Prezident: Bizim üçün Serbiya ilə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir

**Bizim üçün Serbiya ilə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Ölkələrimiz strateji tərəfdaşdır. Əməkdaşlıq sahələri indi bir çox istiqamətləri əhatə edir.**

**Hesab edirəm ki, əsas diqqəti artıq böyük irəliləyiş əldə etdiyimiz sahələrə və fəal əməkdaşlığın ilkin mərhələlərində olduğumuz bəzi sahələrdə hansı işləri görə biləcəyimizə yetirməliyik.**

Bu barədə Prezident İlham Əliyev Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul edərkən bildirib.

Azərbaycan və Serbiyanın beynəlxalq təşkilatlarda tərəfdaşlığından danışan dövlətimizin başçısı deyib: ”Əminəm ki, biz bir-birimizi dəstəkləməyə, bir-birimizin maraqlarını müdafiə etməyə davam edəcəyik. Biz artıq bir sıra beynəlxalq təşkilatlarda çox yüksək səviyyəli həmrəylik nümayiş etdiririk. Bu, vacibdir. Çünki bu, həqiqətən də bizim əməkdaşlığın səmimi mahiyyətini əks etdirir”.

**Prezident qeyd edib ki, çox yüksək səviyyəli siyasi təmasların olmasını nəzərə alaraq, biz diqqəti iqtisadi inkişaf sahəsi üzərində cəmləməliyik. ”Siz bilirsiniz ki, biz indi işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin ilkin mərhələsindəyik. Ümidvaram ki, Serbiya şirkətləri də, dost ölkələrin şirkətləri kimi fəal olacaqlar, gələcəklər, onlara bizim planlarımızla bağlı ilkin məlumat təqdim olunacaq. Onlar dost ölkələrdən olan beynəlxalq şirkətlər komandasına qoşularaq yenidənqurmada iştirak edəcəklər. Düşünürəm ki, diqqəti cəmləşdirəcək çoxlu sahələr olacaq”, - deyə Prezidenti İlham Əliyev vurğulayıb.**

# “Türkiyə vətən müharibəsində Azərbaycanı qətiyyən yalnız qoymayıb”

**Türkiyə və Azərbaycan arasında dünyada bənzəri olmayan qardaşlıq münasibətlərinin kökü ortaq tarix və mədəniyyətdən bəslənir.**

**Adalet.az-ın məlumatına görə, bunu Türkiyənin Azərbaycandakı yeni səfiri Cahit Bağcı öz açıqlamasında deyib. O bildirib ki, Qarabağda ermənilərin 30 illik işğalına son qoymuş 44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbaycanla yanaşı Türkiyə vətəndaşlarının da sevincinə səbəb olub:**



**"Türkiyə bu vətən müharibəsində öz qardaşlıq borcunu yerinə yetirərək Azərbaycanı qətiyyən yalnız qoymayıb. Müharibənin əvvəlindən sonunadək qardaşının yanında olub, dosta və düşmənə birliyin gücünü nümayiş etdirib". Səfirin sözlərinə görə, Türkiyə və Azərbaycan arasındakı siyasi, iqtisadi, ticari, hərbi, sosial və mədəni əlaqələr və əməkdaşlıq geostrateji səviyyəyə çatıb:**

**"Son dövrlərdə bütün sahələrdə əməkdaşlığımızda böyük irəliləyiş qeydə alınıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən sonra enerji təhlükəsizliyini daha da artıran Trans-Anadolu qaz kəməri (TANAP) və Trans-Adriatik qaz kəməri (TAP) işə salınıb. Bakı-Tbilisi-Qars dəmiryolu da regiondakı nəqliyyat şəbəkəsinin inkişafı baxımından böyük potensiala malikdir.**

**Türkiyə və Azərbaycan sahib olduqları bütün imkanları ilə regionun təhlükəsizlik və sabitliyinə töhfə vermək məqsədilə səylərini birləşdirib".**

**C.Bağcı əlavə edib ki, bütün bu işlər Türkiyənin Naxçıvan və Gəncədəki baş konsulluqları və Lənkərandakı fəxri konsulluq tərəfindən dəstəklənir.**

# Tanrı Sizi qorusun!



*Əziz Hafiz müəllim!*

*Siz, həqiqətən də, mübarək İnsansınız ki, 80 illiyiniz məhz bu günlərə, ölkəmizin gələcəyinə sarsılmaz inamımızın indi artıq siyasi-coğrafi gerçəkliklərdə təsdiqləndiyi dövrə, Qarabağın azad edildiyi zamana təsadüf edir.*

*Xoşbəxtsiniz ki, bu gözəl günlərimiz naminə heç zaman əsirgəmədiyiniz fəaliyyətinizin nəticələrini görmək qismətinizdə və Sizi sevənlərin qismətindədir.*

*Ölkəmizin ən çətin illərində Sizin diplomatik fəaliyyətinizdəki uğurlar, sonradan Azərbaycanda dünya standartlarına uyğun universitet quruculuğu və təsisatında liderliyiniz, heç şəksiz, Hafiz Paşayev adını çağdaş tariximizin ən gözəl səhifələrinə yazmışdır.*

*Yaradıcı şəxslərin öz millətinə ərməğan etdiyi əsərlər olur. Siz də, Sizi sevənlər də fəxr edə bilər ki, yaratdığınız ADA Universitetinin Azərbaycan naminə ən yüksək səviyyədə zəka istehsalı ölkəmizin bu gününə də, gələcəyinə də ən gözəl töhfələrdəndir. Olduqca xoşdur və qürurvericidir ki, indi ADA "Bir gəncin manifesti", "Bir səfirin manifesti" mərhələsindən "Azərbaycan gənclərinin manifesti"nə çevrilməkdədir. Millətimiz üçün xeyrini hər zaman görək, inşAllah.*

*Sizin gənclərimizə göstərdiyiniz qayğı unudulmazdır. Müdrikliklə etdiyiniz bütün xeyirxahlıqlar ən gözəl ziyalılıq nümunəsi kimi, şəksiz, tarixdə qalacaq.*

*Sizə möhkəm cansağlığı arzulayıram. Mübarək və nəcib fəaliyyətinizin bəhrələrini birlikdə bayram edək. Tanrı Sizi qorusun!*

*Nəriman Qasımoğlu*

# RUSİYANIN QƏRBLƏ DİPLOMATİK MÜHARİBƏSİ

**Rusiyanın Avropa dövlətlərindəki səfirliklərinədə işləyən personalları ilə bağlı verilən qərarlar, Rusiya ilə Qərb arasında diplomatik müharibəyə çevrilib. 152 rusialı diplomatın xaricdəki səfirliklərdəki akkredasiyasına xitam verilməsi vəziyyəti daha da gərginləşdirib.**



Bu barədə məlumat verən "Financial Times" bildirir ki, "Pribaltikadan Bolqarıstana kimi Rusiya ilə tarixi əlaqələri olan dövlətlərdə çalışan rusiyalı diplomatların qovulması, faktiki olaraq qalan diplomatların Rusiyada və əksinə Rusiyanın xaricdəki diplomatlarının münasibətləri bərpa etməsinə çətinlik yaradır".

Münasibətlərin pozulması daha çox Mərkəzi və Şərqi Avropa dövlətlərində vəziyyətin kəskinləşməsinə gətirib çıxarıb. Keçmiş SSRİ -nin Varşava Müqaviləsinə daxil olan Latviya, Estoniya, Litva, Ukrayna, Polşa, Çexiya və Bolqarıstanla hazırki münasibətləri xüsusi ilə acınacaqlı vəziyyətdədir. Bu ölkələrin əksəriyyəti artıq NATO-ya daxil olub. Bundan başqa illərlə davam edən enerji tərəfdaşlığı, uzunmüddətli neft-qaz müqavilələri demək olar ki, pozulmaq ərəfəsindədir.

Bu isə Moskvanın bu ərazilərdə nüfuzunu azaldltmaqdadır. Xüsusilə 2014-cü ildə Rusiyanın Krımı işğal etməsindən sonra münasibətlərin gərginləşməsi göz qabağındadır. Hazırda "gözə -göz" prinsipi ilə diplomatların hər iki tərəfdən ölkədən qovulması halları davamlı şəkil alıb.

**Okeanın o tayından gələn təlimatlarla Rusiyanın təklənməsi prosesi getdikcə artmaqdadır. Bu isə təkcə Rusiyanın deyil, həmçinin Avropa dövlətlərinin iqtisadiyatına ciddi təsir edəcəyindən xəbər verir.**

**Rüstəm Hacıyev**

# YAP-a yeni mətbuat katibi təyin olundu



**Elməddin Quliyev Yeni Azərbaycan Partiyasının İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri təyin olunub. O, bu barədə feysbuk hesabında məlumat verib.**

**Qeyd edək ki, E. Quliyev bu təyinata qədər Dövlət Statistika Komitəsinin Mətbuat xidmətinin rəhbəri kimi fəaliyyət göstərib.**

**Xatırladaq ki, bir neçə gün əvvəl YAP-ın Mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev vəzifəsindən azad edilib.**

# İSİ MƏLİKZADƏNİN DOĞUM GÜNÜDÜR

**İsi Məlikzadə 1934-cü il may ayinin 1-də Quzey Azərbaycanın Ağcəbədi rayonununda anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adina Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və Sənaye Universiteti) neftmədən fakültəsinə daxil olmuş (1952) və həmin institutu bitirmişdir (1957).Tələbəlikdən qələmini bədii yaradıcılıqla sınamış və uğur qazanmışdı.İsi Məlikzadə Həmin illəri belə xatırlayır: ”Cavan vaxtlarımda gündüzlər istehsalatda çalışırdım,gecələr isə yuxuma haram qatıb, gözümün toyşu gedənəcən hekayə yazırdım.Yazdıqlarımın keyfiyyətindən razı idim.Say artdıqca özümə inamım da artırdı”.**

Sonralar bədii yardıcılığa olan həvəsi onu ixtisasından uzaqlaşdırıb ədəbiyyatın geniş üfüqlü qoynuna atdı.Ədibin bir sıra kiçik həcimli hekayələri dərhal oxucu rəğbəti qazandı.Bu hekayələrin əsas məğzi real həyatda gəlirdi.Lakoniklik, az sözlə böyük məna ifadə etmək ədibin yazı manerasına xas olan başlıca cəhət idi.

İsi Məlikzadə əsərlərinin mayası həyatdan,torpaqdan, xalqdan, milli kökə,ənənəyə bağlılıqdan irəli gəlir.XX əsrin 70-90-cı illəri İsi Məlikzadə yaradıcılığının ən məhsuldar dövrünü təşkil edir.Bu illərdə yazdığı coxsayli hekayə,povest və romanları geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdı.

İsi Məlikzadə ”Ulduz”, ”Azərbaycan” ədəbi-bədii jurnallarında, Azərbaycan Dövlət Nəşriyyatında,”Azərbaycanfilm” kinostudiyasında və s. işləmişdir. İlk hekayəsi 1960-cı ildə,ilk kitabı - ”Həsratin sonu” 1964-cü ildə çap olunub.Uzun illər ərzində



”Gümüş göl əfsanəsi”,”Yaşıl gecə”, ”Küçələrə su səpmişəm”, ”Dədə palıd”, ”Günəşli payız”, ”Qırmızı yağış”, ”Kövrək qanadlar”, ”Alovlu qış”, ”Özgə anası”,”İki günün qonağı”,”Günəş harada gecələyir” və b. kitabları nəşr olunmuşdur.

Ədibin ”Molodaya Qvardiya”, ”Sovetskiy pisatel” kimi nüfuzlu nəşriyyatlarda rus dilində ondan artıq kitabı nəşr olunmuşdur. Moskvada fransız dilində çıxan ”Azərbaycan nəsri antologiyası”nda İsi Məlikzadənin bədii yaradıcılığına yüksək qiymət verlimiş, ədibin ”Oğul” hekayəsi çap olunmuşdur.

İsi Məlikzadənin Respublika teatrlarının səhnəsində ”Gəl qohum olaq”, ”Sağlıq olsun”, ”Hərənin öz ulduzu”,” Məndən nigaran qalmayın” pyesləri tamaşaya qoyulmuşdur.

Uzun illər ”Azərbaycanfilm” kinostudiyasinda baş redaktor işləyən ədibin ssenariləri əsasında ”Qatarda”,”Gümüş göl əfsanəsi”,”Pəncərə”,”Ağ atlı oglan”,”Kişi sözü”,”Cehiz güzgüsü”,”Güllələnmə təxirə salınır”,”Hacı qara”, ”Papaq”, ”Evin kişisi”, ”Evlənmək istəyirəm”,”Qoca palıdın nağılı” kimi qısa metrajlı bədii və sənədli filmləri böyük ekrana öz geniş təcəssümünü tapmış və tamaşaçı rəğbətini qazanmışdır.

Xüsusən də, yazıçının ”Qatarda” əsəri cəmiyyətdə baş verən haqsızlıqlara qarşı güclü etiraz, üsyan, haray olmaq baxımından ferqlənir.Sovet sisteminin qılıncının dali da, qabağı da kəsdiyi bir dövürdə onun eybəcərliklərini tam çılpaqlığı ilə açıb göstərən, keskin tənqid atəşinə tutan ”Qatarda” əsəri ədəbiyyatımızda hadisədir.Xalq arasında çox sevilən bu əsərin şöhrətini Yaşar Nuri, Həsən Əbluc kimi görkəmli səhnə ustalarının bənzərsiz oyunu daha da artırmışdır.

Bir qələm əhli olaraq İsi Məlikzadə özünü bədii yaradıcılıqda təsdiq etmiş,oxucu və tamaşaçı kütləsinin sonsuz məhəbbətini qazanmişdır.Təəssüf ki,o yaradıcılığının çiçəkləndiyi bir dövrdə, Azərbaycan xalqının tale yüklü Qarabağ məsələsində Xudu Məmmədov (Qarabağa dair iclasda),Hafiz Baxış (Qarabağa dair iclasda),Fərman Kərimzadə, Mikayıl Azafli, Hamlet Xanızadə,Eldar Baxış, Famil Mehdi, Şahmar Əkbərzadə və başqaarı kimi İsi Məlikzadə də sarsintı keçirdi və 1995-ci ildə dünyasını deyişdi. Təsəllini onda tapırıq ki, İsi Məlikzadənin əsərləri bu gun də səhnədən duşmür, həmişəki məhəbbətlə oxunur,xatirəsi layiqincə yad edilir.

**Təkcə onu demək kifayyətdir ki,Azərbaycan Respublikasi Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2004-cü ildə latın qrafikası ilə capı nəzərdə tutulan yazıçıların siyahısında İsi Məlikzadənin də adı vardır.**

**Qəzənfər Paşayev**

*Aqil ABBAS*

# MİRCƏFƏR BAĞIROV KOLXOZ SƏDRİNİ NİYƏ GÜLLƏLƏDİ?

**Atam 8-ci sinifdə oxuyanda Böyük Vətən Müharibəsinin ağır vaxtları imiş. Savadlı uşaqları mütəxəssis çatışmadığından kolxozlarda işə götürürmüşlər. Fikirləşin ki, görün vəziyyət nə gündəymiş ki, atam kolxozun baş hesabdarı imiş. Mənə müharibə ilə bağlı bir hadisəni danışdı.**

**Hadisə qonşu kənddə olub. Mən nə o kəndin adını yazıram, nə də həmin adamın adını. Çünki onun övladları var, nəvələri var və onların heç bir günahı yoxdur.**

**Deməli, belə. Müharibənin şıdırığı vaxtıdı. Mircəfər Bağırov gəlir Ağcabədiyə. Yol da Ağcabədiyə həmin kənddən keçir. Təbii ki, yaxın kəndin camaatı da bunu eşidəndə (necə ki Brejnev gələndə hamımız yığışırdıq yolun kənarına), yığılırlar həmin kəndə.**

**Mircəfər Bağırov həmin kənddən keçəndə maşını saxlatdırır və düşür. Əynində də plaş varmış. Kolxozun sədri yüyürə-yüyürə Bağırova yaxınlaşır. Bu vaxt əli plaşın sağ cibində olan Bağırov elə cibindəncə sədrə iki güllə atır. Sədrin meyiti qalır ortalıqda və çıxıb gedir Ağcabədiyə. Atam bunun canlı şahidi olub. Meyit bir gün qalır ortalıqda, heç kim qorxusundan meyitə yaxın durmur. Sonra kəndin ağsaqqalları yığışıb gedir Ağcabədidə Bağırovun qəbuluna ki, icazə ver meyiti dəfn edək. O da deyir ki, gedin dəfn edin.**

**Həmin kolxoz sədrinin dünya gözəli bir qızı varmış. Hamı elçi düşərmiş. Qorxusundan day heç kim qızın adını çəkmir.**

**Onu kəndin qoçusu (adını bilirəm, yazmıram) bir sürücü də sevirmiş. Gedir sədrin evinə və deyir ki, səni mən də sevirəm, gəl evlənək. Və qızı götürüb aparır. Çox xoşbəxt ailələri olur, bu gün də kəndin sayılıb-seçilən adamlarıdılar.**

**Mircəfər Bağırov həmin kolxoz sədrini niyə güllələmişdi?**

**Atam deyirdi ki, obada danışırdılar həmin sədr bir əsgər anasına girişibmiş. Ana da razı deyilmiş, o da həmin ailəni sıxışdırıbmış ki, qadını yola gətirsin. Kənd camaatı bunu Bağırova yazır. Bağırov da yoxlatdırıb görür ki, bu həqiqətdir və Ağcabədiyə gələndə maşını həmin kənddən sürdürür və kolxoz sədrini şəxsən özü güllələyir.**

**Mən heç də demək istəmirəm ki, əsgər anasına , əsgər xanımına sataşanları güllələyək, amma onlar elə bir layiqli cəza almalıdır ki, bütün millətə göz dağı olsun.**

**Lerikdə baş verən hadisəyə görə həbs olunan mollaya uzağı 10-12 il iş verəcəklər. Cinayət Məcəlləsinin maddələrinə görə.**

**Amma ayrı qanunlar da var, buna həbsxana qanunları deyilir. Bəzən həbsxana qanunları bizim qəbul etdiyimiz qanunlardan daha ədalətli olur.**

**Nə isə...**

*Hidayət Elvüsal*

# Şeytana yox, ona



*Əhali işğaldan azad edilmiş yurd-yuvalarına qayıtmaq məqamındadır. Bax, elə bu məqamda ordan-burdan namərdlər sürüsü boy verib, görünürlər. Kəlbəcər və kəlbəcərlilərə qarşı da eyni alçaq hərəkətlərin şahidi oluruq. Ağır qaçqınlıq zamanında el-obanın dərdini, problemlərini çiynində daşıyan KİŞİLƏR , indi-indi gizləndiyi yerdən başını çıxaran, "müxalifət" pərdəsi arxasında şər-böhtan kompaniyası təşkil edən alçaqlar mırıldaşır. Dünənə qədər çiynində paqon daşıyan biri, bu gün polisi yamanlayır. El-obaya əl tutan oğulları şantaj edir. Doğulduğu torpağa, yurddaşa bircə damcı xeyiri dəyməyən nankor bu gün yekə-yekə danışır.*

*Yenə müqəddəs bildiyimiz ocaqların övladları hədəf götürülüb. Bunlar öz ailə, nəsil arxivlərinə baxmırlar. Çünki ora çirkab içindədir. Bunun atası vaxtilə yanıma gəlib , əmisi oğlundan ( !!! ) tənqid yazmağı xahiş etmişdi. Payını verib, yola saldım. Bu da onun oğludur. Namərdlik qanındadır.*

*Beləsinə...*

*Lənət ... Yox, şeytana yox, ona, şeytanda heç olmasa 5-6 qram ləyaqət olur deyirlər.*

## İndiyədək minalardan təmizlənən ərazilərin sahəsi açıqlanıb



**Ötən ay ərzində 285 hektar ərazi minalardan təmizlənib. Adalet.az-ın məlumatına görə, Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı təqdim edib. Məlumata görə, aprelin 1-dən 30-dək əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 364, tank əleyhinə 148 mina və 1098 partlamamış hərbi sursat aşkarlanıb. Bu günə kimi azad olunmuş 2 min 28 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.**

## 3 PUA və 2 ballistik raket məhv edildi

**Yəməndə hökuməti dəstəkləyən Səudiyyə Ərəbistanı liderliyindəki koalisiya qüvvələri husilərə məxsus 3 PUA və 2 ballistik raketi zərərsizləşdirib. Bu barədə koalisiya qüvvələri məlumat yayıb.**

**Husilərin generalı Yəhya Səriyə isə Səudiyyə Ərəbistanının Xəmis Müşayit bölgəsindəki "Kral Xalid" hava bazası və Nəcran şəhərinə hücum etdiklərini açıqlayıb. Hədəfin tam dəqiqliklə vurulduğunu deyən general bunu qarşı tərəfin hücumlarına cavab olaraq qiymətləndirib.**

**MEHRİBAN**



*Faiq SADIQOV*
*Azərbaycan Televiziyasının əməkdaşı, əməkdar jurnalist*

# Ağdam paytaxt OLSA...

*Əməkdar jurnalist Ağdamın yeni paytaxt olmasını təklif edir*

**Prezident İlham Əliyev aprelin 26-da Azərbaycan Televiziyasına müsahibəsində may ayının sonuna qədər Ağdam şəhərinin baş planının ilkin versiyasının təqdim olunacağını və Ağdam rayonunun ictimaiyyəti ilə birlikdə müzakirə ediləcəyini bildirdi. Mən bu müzakirəyə bir məsələnin də çıxarılmasını təklif edərdim: XXI ƏSRİN XİROSİMASI OLAN AĞDAM PAYTAXT KİMİ TİKİLƏ BİLMƏZMİ?..**

**Birinci Qarabağ müharibəsinin əvvəlindən sonunadək döyüş bölgələrində olmuş və Qarabağa yaxşı bələd olan bir jurnalist kimi bu təklifi əsaslandırmaq üçün müəyyən arqumentlərim var. Əvvəla o dövrün şahidləri yaxşı xatırlayır ki, münaqişənin əvvəlində Qarabağın yaşayış məntəqələrindəki vəziyyət və ermənilərin törətdikləri vəhşiliklər paytaxt Bakıya ya çatmırdı, ya da çatanda qulaqardına vurulurdu və onda da artıq gec olurdu. Əks halda Xocalı soyqırımı törədildikdən sonra ölkə rəsmiləri ermənilərin sovet ordusunun 366-cı alayının hücumu zamanı Xocalıda yalnız bir neçə nəfərin yaralandığı barədə yalan məlumatı xalqa sırımazdı. Yaxud Şuşa kimi qalanın işğalı barədə əhali bir neçə gündən sonra xəbər tutmazdı…**

**Ölkəmizin xəritəsinə nəzər yetirdikdə görmək olar ki, Ağdam coğrafi baxımdan təxminən elə Azərbaycanın mərkəzində - Mil-Muğan, Qarabağ, Şirvan, Gəncəbasar və digər iqtisadi rayonların əhatəsindədir və paytaxt kimi həmin ərazilərin daha optimal idarə olunmasını asanlaşdıra bilər. Digər problem Bakı ilə bağlıdır. Bakı sürətlə böyüdükcə, gözəlləşdikcə əhalisi də artır. Bu amil isə şəhərdə əhalinin sıxlığını elə bir həddə çatdırıb ki, artıq paytaxtın prospekt və küçələrində nəinki avtomobillərin, az qala piyadaların hərəkətində də tıxaclar yaranır. Bununla paralel olaraq şəhərin havası getdikcə ağırlaşır.**

**Onsuz da Ağdamda hər şey sıfırdan başlanacaq. Onu elə tikmək olar ki, ölkənin hökumət strukturlarının, ali məktəblərinin və digər daha çox kontingetli idarəetmə və icra strukturlarının bir qismini orada yerləşdirmək mümkün olsun. Mənə elə gəlir ki, bu, Bakının gələcəkdə daha da ağırlaşacaq yükünün yüngülləşməsinə xeyli təsir göstərə bilər. Digər tərəfdən isə işğaldan azad edilmiş ərzilərimizin bərpa işlərinə diqqət və nəzarətin daha operativ təşkilinə, əlaqələndirmə işlərinin sürətlənməsinə şərait yaradar. Ağdam həm də füsunkar təbiəti, saf havası, bulaqları, meşələri, çayları ilə zəngin olan ərazilərimizə, mədəniyyət paytaxtımız Şuşaya yaxın mövqedə yerləşir. Dünyanın ən abad şəhərlərində olduğu kimi, Ağdamın sakinləri istirahət və əyləncə vaxtlarını təbiət qoynunda keçirmək üçün gözəl fürsət əldə edər. Bu, həm də həmin regionda turizmin inkişafına güclü təkan verə bilər. Ağdamda başlayan tikinti işlərini Xankəndiyə doğru istiqamətləndirməklə əzəli torpaqlarımız olan Əsgəran, Xocalı və digər inzibati ərazilərimizi, həmçinin Xankəndini bir rayon kimi yeni paytaxta daxil etmək olar.**

**ƏN BAŞLICASI! O bölgənin yüksək zirvəsində tariximizin nadir dövlət xadimi və sərkərdəsi, Vətən müharibəsinin ən böyük qəhrəmanı İlham Əliyevin dəmir yumruqlu möhtəşəm heykəlini ucaltmaq lazımdır. Birincisi, bu heykəl dövlət başçısının timsalında vətən müharibəsindəki şanlı qələbəni simvolizə edəcək. Digər tərəfdən də bu, gözdağı olacaq. Uzun illərdir regionun canını boğazına yığan, xalqımıza olmazın əzab-əziyyətlər verən, qədim yurd yerlərimizi xarabazara çevirən düşmən hər səhər yuxudan durub pəncərəsindən boylananda o əzəməti görəcək, keçmişdəkiləri təkrarlamamaq üçün daim səksəkədə olacaq. Bu abhavanı yaradan isə Ağdamdan ucalan həmin o dəmir yumruq olacaq!**

# Co Baydenə hüquq dərsi!



Uğur Dündar

**Dəyərli oxucularım, Türkiyə neçə gündür ABŞ prezidenti Co Baydenin "erməni soyqırımı" ifadəsini və Türkiyə prezidenti Ərdoğanın ona dediklərinin kifayətsizliyini danışır.**

**Türkiyənin Amerikaya bu boyda yalandan sonra necə cavab verməsi müzakirə olunur.**

**Miqrasiya mütəxəssisi, hörmətli politoloq Prof. Dr. Hakkı Keskinə görə, Türkiyənin cavabı belə olmalıdır:**

***

Şimali Amerikanı Avropadan köç yolu ilə işğal edən ulu babalarınız, yerli xalq olan 12 milyondan artıq qızıldərilini qətl etdilər. Bax, tarixə yazılan ilk həqiqi soyqırım budur.

XVI yüzillikdən başlayaraq XIX yüzilliyin ortalarına qədər Afrikadan, vətənlərindən qoparılan 15 milyon zənci köləşdirilərək Amerika qitəsinə gətirildi. Afrikadan gəmilərə doldurulub gətirilən zənci sayının 35 milyondan çox olduğu və bunların yarıdan çoxunun yolda həyatlarını itirdiyi bilinir. ABŞ tarixdə bənzəri olmayan belə bir kölə ticarətinə, qətliamına və soyqırım keçmişinə sahib ölkədir.

***

***ABŞ 6 avqust 1945-ci ildə Xirosima və Naqasakiyə atdığı atom bombaları ilə 350 min insanın ölümünə və on minlərlə insanın fiziki qüsurlu olmasına səbəb oldu. Koreya xalqı ABŞ-a heç bir hücum etmədiyi halda 1950-1953-cü illərdə Koreyaya qarşı başlatdığınız müharibədə ən azı 4 milyon koreyalı qətl edildi. Bax, budur həqiqi soyqırım!***

***

***Yenə heç bir səbəb olmadan 1969-1975-ci illər arası Vyetnam xalqına qarşı II Dünya Müharibəsində istifadə olunan bombalardan daha artığını ataraq ən azı 5 milyon vyetnamlını barbarcasına qətl etdiniz. Bax, əsl soyqırım budur!***

***ABŞ Qvatemalada 1950-ci ildə etdiyi çevrilişlə 200 mindən çox qvatemalalını qətlə yetirdi.***

İndoneziyanın milli müstəqilliyinin lideri Əhməd Sukarno 1965-ci ildə ABŞ-ın dəstəklədiyi hərbi çevrilişlə kürsüdən düşürüldü. Sayları 500 mini keçən çevriliş əleyhdarı qətlə yetirildi. "New York Times"a görə bu hücumlar modern tarixin ən vəhşi kütləvi qətliamlarından biri idi.

***

İranda 1951-ci ildə xalqın azad iradəsi ilə seçilərək İranın baş naziri olan Məhəmməd Müsəddiq neft mənbələrini milliləşdirdiyi üçün ABŞ-ın dəstəklədiyi bir çevrilişlə kürsüdən endirildi və on minlərlə iranlı öldürüldü.

***1960-cı ildə CİA Konqonun ilk müstəqil prezidenti olan, solçu və müstəmləkə əleyhdarı olan lider Patris Lumumbanı öldürdü. ABŞ yeraltı sərvətlərinin hesabına varlı ölkə olan Konqodakı bu çevrilişdə 3 milyon insanın ölümünə cavabdehdir.***

Sosialist olan Salvador Allende 1970-ci ildə xalqın azad iradəsi və demokratik şərtlərlə keçirilən seçkilərdə qalib gəldi və prezident oldu. Allende ABŞ şirkətlərinin əlində olan mis mədənlərini və industriyasını milliləşdirdi.

11 sentyabr 1973-cü ildə CİA-nın dəstəklədiyi ordu idarəçiliyi ələ keçirtdi. ABŞ tərəfindən təşkil olunmuş bu çevrilişdə on minlərlə müxalif və Allende tərəfdarı öldürüldü.

***

ABŞ 2003-cü ilin martında İraqın bir çox ölkənin təhlükəsizliyini təhdid edən kütləvi qırğın silahlarına sahib olduğu iddiası ilə bu ölkəyə ikinci dəfə müharibə elan etdi. Bu müharibədə 1 milyondan çox insan həyatını itirdi, 2 milyon insan ölkəni tərk etdi və 3 milyon iraqlı da başqa bölgələrə köç etmək məcburiyyətində qaldı. Daha sonra CIA tərəfindən edilən qiymətləndirmədə İraqda müharibənin səbəbi olaraq göstərilən kütləvi qırğın silahlarının olmadığı ortaya çıxdı!

2011-ci ildə "ərəb baharı" adı altında Suriyanın prezidenti Əsəd idarəçiliyinə qarşı başladılan etirazlar ABŞ tərəfindən xüsusilə kürdlərə və radikal islamçı qruplarına verilən dəstəklə get-gedə vətəndaş müharibəsinə çevrildi. 3,6 milyonu Türkiyəyə köçənlər olmaqla 5 milyon yarımdan çox suriyalı ölkəsini tərk etmək məcburiyyətində qaldı. 6 milyon yarı suriyalı ev-eşiyini qoyub ölkənin başqa yerlərinə qaçdı. 500 mindən çox suriyalı həyatını itirdi, on minlərlə insan yaralandı.

***

ABŞ Afrika Komandanlığı 19 mart 2011-ci ildə Liviya lideri Muəmmər Qəddafiyə heç bir haqlı səbəb olmadan müharibə elan etdi. Qəddafi barbarcasına linç edildi, yüzlərlə tərəfdarı qətlə yetirildi.

***

Sadaladığım misallarda da görünür ki, ABŞ tərəfindən 1945-dən sonar əllidən çox ölkədə heç bir haqlı səbəb olmadan başladılan müharibələr və çevrilişlərdə on milyonlarla insan qətl edildi. Çoxusu ABŞ-dan on min kilometrdən çox uzaqda yerləşən bu ölkələrdən heç biri ABŞ-a müharibə elan etməmiş və ABŞ-ı təhdid etməmişdi. Tarixi soyqırımlarla dolu olan ABŞ-ın Türkiyəyə və ya başqa bir ölkərə "soyqırım" böhtanı atmamışdan əvvəl yuxarıdakı əsl soyqırımları qəbul etməyi gərəkdir.

***

Sözdə "soyqırım" iddiasının hüquqi tərəfinə gəlincə:

I Dünya Müharibəsini uduzan Osmanlı dövlətində işğalçı ölkələr olaraq bütün gücü əllərində cəm edən İngiltərə və Fransa 3 yanvar 1919-cu ildən 10 avqust 1921-ci ilə qədər 970 gün erməni qətliamı iddialarını araşdırdılar. Bu səbəblə məsul hesab etdikləri İttifaq və Tərəqqi Komitəsinin səlahiyyətli şəxsləri mühakimə olunmaq üçün 147 nəfəri Malta Adasına apardılar. İngiltərə Müdafiə Nazirliyi, İngiltərə Xarici İşlər Nazirliyi, İngiltərə Ali Komissarı, İngiltərə səfirliyi və hətta İngiltərə Parlamenti məhkumları məhkəmə qərarı ilə cəzalandırmaq istədi. Böyük bir səylə həyata keçirilən istintaqın sonunda Kraliyyət Baş Prokurorluğu "əldəki sənəd və məlumatların ittihamlar üçün hüquq məhkəməsində sübut gücünün olmadığına, dolayısı ilə heç kimin bir hüquq məhkəməsi qarşısında cəzalandırılmasının mümkün olmayacağına" qərar verdi. Maltaya aparılan bütün saxlanılanlar Türkiyə geri gətirilərək sərbəst buraxıldılar.

***

**İngiltərə Kraliyyə Baş prokurorluğu tərəfindən aparılan bu istintaq, ittiham edilmə və qərar işğal gücünə malik olan bir məhkəmə tərəfindən verilmiş və 1915 köç hadisələrinin bir soyqırım olmadığı yönündə son dərəcə vacib bir qərardır. Bilindiyi kimi soyqırım iddiaları ilə bağlı qərarlar siyasilər tərəfindən deyil, sadəcə mühakimə orqanları tərəfindən verilə bilər. Bu mövzuda da beləcə qərar verilmişdir.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

*Aqil ABBAS*

# BAŞ ŞƏRABÇI SOVXOZ İDARƏSİNİ NİYƏ YANDIRDI?

*Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədovun cinayətləri haqqında rəsmi məlumatları oxuyanda dəhşətə gəlirsən.*

*İndiyə qədər bu rayonda Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Hesablama Palatası, daha nə bilim hansı nazirlik, bəlkə adama 10-15 dəfə yoxlama aparıb. Bəs necə olub ki, Allahın jurnalistlərinin üzə çıxardıqları faktları bunlar aşkarlaya bilməyib?*

*Bu mümkün deyil, çünki həmin təşkilatların mütəxəssisləri jurnalistlərdən ən azı on dəfə daha çox savadlıdırlar və bu sahədə mütəxəssisdirlər.*

*Bəs niyə üzə çıxarmayıblar? Təbii ki,öz haqlarını alıb, qayıdıb gəlib Bakıda düzüb-qoşublar. Yaxşı olar ki, Dövlət Təhlükəsizlik Xidməti bu məsələni də araşdırsın, heç olmasa indən belə hansısa nazirliklər və komitələr cinayəti gizlətməsinlər.*

*Atam, mən tələbə idim, Şərabçılıq Komitəsinin ən üzdə olan revizoru idi. Gəncədə gərək ki, Nizami adına olan sovxozu yoxlamışdı. Evə başılovlu gəlmişdi. Deyirdi ki, o sovxozda olan yeyintinin üstü açılarsa azı 15-16 nəfər güllələnməlidir.*

*Həmin vaxt Cinayət Məcəlləsində 86.1 maddəsi var - xüsusilə külli miqdarda dövlət əmlakını münimsəmə. Əgər bu mənimsəmə 10 min manatı keçirdisə cəzası güllələnmə idi. Və deyirdi ki, mənə yuxarıdan göstəriş veriblər ki, bu yeyintinin üstünü açmayım, əks halda sənin özün və ailən üçün pis olar. Amma mən bunu gizlətsəm, bir gün bu işin üstü açılacaq, onda məni cinayət məsuliyyətinə cəlb edəcəklər ki, niyə vaxtında dövlətə bu barədə məlumat verməmisən.*

*Və təbii ki, atama da külli miqdarda rüşvət təklif etmişdilər. Atam götürməmişdi. Ona görə yox ki, imam övladı idi, ona görə ki, bu məsuliyyətin altına girmək istəmirdi. Və nə vardısa, olduğu kimi Şərabçılıq Komitəsinə təqdim etmişdi.*

*Üstündən bir 10-15 gün keçmiş həmin sovxozun idarə binasını (sovxozun ayrıca Konyak Zavodu da vardı) baş şərabçı yandırdı və bütün sənədlər də məhv oldu. Və həmin baş şərabçıya da binanı yandırdığına görə güllələnmə verdilər. Özü güllələndi, amma 15-16 nəfəri güllələnmədən xilas elədi.*

*Atamın belə xatirələri çoxuydu. Yeri gəldikcə yazacam. Biri də Dağlıq Qarabağın birinci katibi Gevorqovu çıxarıb yerinə qoyulan Poqosyanla bağlıdır. Poqosyan yeni vəzifəyə təyin olunana qədər Dağlıq Qarabağın Aqrar Sənaye Kompleksinin sədri idi. Mən yazdım, hər kəs öz payını götürsün.*

## *Türkiyə ordusu 44 terrorçunu zərərsizləşdirib*

**Türkiyənin milli müdafiə naziri Hulusi Akar, Baş Qərargah rəisi Yaşar Gülər və Quru Qoşunları Komandanı Ümit Dündarın müşayiəti ilə İraqın şimalındakı hərbi bazanı ziyarət edib.**



H.Akar bildirib ki, "Pençe-Şimşek" və "Pençe-Yıldırım" əməliyyatları uğurla davam edir.

Onun sözlərinə görə, hazırkı dövrədək əməliyyatlar çərçivəsində 44 terrorçu zərərsizləşdirilib: "Türkiyə terrorizmin kökünü kəsməyə qadirdir. İraqın şimalında ən qısa zamanda sülh və əmin-amanlıq təmin ediləcək".

Qeyd edək ki, "Pençe-Şimşek" və "Pençe-Yıldırım" əməliyyatları aprelin 23-ü başlayıb.

**MEHRİBAN**

## *Qarabağ Müharibəsi Cinayətləri Komissiyasının Prezidenti Salih Kurt ARB-24-ə danışıb*




**Ötən həftəsonu Qarabağ Müharibəsi Cinayətlərini Araşdırma Komissiyasının Prezidenti Salih KURT Türkiyədən ARB-24 televiziyasının canlı efirinə qoşularaq komissiyanın yaranma zərurəti və gələcək fəaliyyət istiqamətlərindən ətraflı bəhs etmişdir. O, Qarabağ bölgəsindəki insanlıq soyqırımının sadəcə adi bir soyqırım olmadığını, ermənilər tərəfindən həm də Qarabağdakı tarixi və mədəni irsin tamamilə məhv edildiyini, bunun bəşəriyyətə və insanlığa yaraşmayan bir günah-cinayət olduğunu vurğulamışdır.**

**Pravdainfo.org xatırladır ki, hazırda Qarabağ Müharibəsi Cinayətlərini Araşdırma Komissiyasının sıralarında dünyanın 36 ölkəsindən 120 tanınmış ekspert və hərbçilər, sabiq diplomatlar, tarixçi alimlər, nüfuzlu universitet rektorları və araşdırmaçı jurnalistlər vardır.**

**Onu da qeyd edək ki, Komissiyanın Prezidenti Salih KURT Türkiyədə terrorçu Abdullah Öcalanı həbs etmə əməliyyatında böyük cəsarət nümayiş etdirmişdir. O, bunun üçün Baş Nazirlik Yüksək Terror Məsləhət Heyətini toplamış, terrorçu Öcalanın həbsinə nail olunmuşdur.**

**Qarabağ Müharibəsi Cinayətlərini Araşdırma Komissiyasının sədri Salih KURT Dünya Türk Jurnalistlər Birliyinin (World Turkish Journalist Union) prezidenti olmaqla yanaşı, həm də Avropanın ən nüfuzlu təşkilatlarından olan "EAS Aqua Culture"nin (Avropa Su Məhsulları) 2020-ci ildə prezidentliyə namizədi olmuşdur. O, həmçinin Trtajans Media Holdinqinin Prezidenti kimi Türkiyə, eləcə də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni yalanlarının ifşa edilməsi istiqamətində də ciddi fəallıq nümayiş etdirən nüfuzlu media ekspertidir.**

**Mahmud Məmmədli**

# *Əntiqə Rəşid:* "Su qan gölməçələri ilə qarışıb küçə aşağı axırdı..."

**(əvvəli qəzetin 25 fevral sayında)**

***Bu gün müsahibim 20 ildən çoxdur imzası ilə media aləmində tanınmış, maraqlı məqalələri ilə özünə kifayət qədər oxucu kütləsi toplamış, "Ədalət" qəzetinin müxbiri, jurnalist Əntiqə Rəşiddir. 44 günlük Vətən Müharibəsinə şahidlik etmiş, Qarabağ bölgəsindən, atəş xəttindən, mərmilərin altından göndərdiyi materiallarlarla qəzetimizin oxucularını bilgiləndirməklə yanaşı , orda insanlara yardım etməkdə də, hər kəs də bir ruh yüksəkliyi yaratmaqda da böyük xidmətləri olub. Ən yaxşısı özünü dinləyək:***

**- Məhkəməni udub geriyə döndün! Yenə maraqlı hadisələr baş verdimi?**

- Dedim axı, sevdiyim iş üçün gedirdim. Müharibə zonasına, Qarabağa gedirdim...Səncə,maraqlı olmazdımı?Hərbi hospitalda yaralı əsgərlərlə görüşümüz yadımda qalan təsirli hadisələrindən biri idi. Tibb bacılarının igidliyi haqqında da ilk dəfə orda eşitdim, gözümlə gördüm. Hərbi hissələrə gedə bilirdik, əsgərlərimizə sovqat aparırıq. Marquşevan-Şıxarx haqqında keçən dəfəki müsahibədə demişdim.

**- Bizə, sığınacaqdakı Zərnişan adlı bir uşaqdan yazmışdın...**

-O arada sığınacaqlarda müvəqqəti məskunlaşmış qarabağlılarla görüşüb, onların durumu ilə maraqlanırdım. Bu məqsədlə getdiyim yerlərdən biri də Yevlağ- Bərdə yolunun üstündə köçkünlər üçün salınmış qəsəbəyəordakı 3 mərtəbəli məktəbə yollandım.. Camaatla görüşüm alındı. Bu zaman binanı mühafizə edən Bərdə Rayon Polis Şöbəsinin əməkdaşı İmran Ismalılzadə mənə yaxınlaşdı və sığınacaqda yardıma ehtiyacı olan bir uşaq haqda danışdı. Uşağın azyaşlı olması, ayaqlarında problem olduğunu, yeriyə bilmədiyini və valideynlərinin elə də yaxından diqqət göstərə bilməməsini söyləyəndə uşağı mütləq görmək istədim. Uşaq atasının himayəsində qalıb. Ata isə səhər tezdən işləməyə ( fəhləliyə) getdiyi üçün uşaq sığınacaqdakıların ümidinə qalır. Dərhal Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə ilə əlaqə qurdum. Əhvalatı ona danışdım. Hadisə Kəmalə xanımı da bərk narahat etdi. Aradan bir neçə gün keçəndən sonra müxtəlif qurumlardan həm mənəvi, həm tibbi, həm maddi dəstəyə ehtiyac duyduğunu təsdiqlədilər. Həkimlər müayinə də etdilər və bildirdilər ki, dərindən müalicə olunsa uşaq sağala, ayağa da dura bilər. Əslən Kəlbəcər rayonu Ağqaya kəndindən olan 8 yaşlı Rəhimova Zərnişan Qoşqar qızı Ağdam rayonu Baharlı köçkün qəsəbəsində doğulub. Bir sözlə, Zərnişan Azərbaycan Uşaqlar Birliyinə yerləşdirildi. Bir uşaq səfalətdən, baxımsızlıqdan qurtuldu. Sığınacaqdakıların hamısı sevinirdi. Mən də lap uşaq kimi

**-Reportaj və yazılardan qalan vaxtlarda nə işlə məşğul olurdun?**

- Heç boş vaxtım olurdu ki... elə olurdu gün ərzində bir loxma çörək yeməyə vaxtım olmurdu. "Tərəqqi" ictimai inkişaf birliyinin üzvlərinə qoşulub ərzağa -çörəyə ehtiyacı olan ailələrə yardım paylanılmasınada kömək edirdim. Müharibə Veteranı Qadınlarina Sosial Yardım İctimai Birliyinin ardıcıl gətirdiyi sovqat və bağlamaları hospitala, hərbi hissələrə çatdırılmasında da iştirak edirdim. Şəhidlərin dəfn və yas mərasimlərində iştirak etmək isə boynumun borcu idi. Rayona gələn qonaqların da belə ailələrə getməsini təşkil edirdim. Qeyd edim ki, Kəmalə Ağazadə də o çətin anlarda müharibə ərazisinə gələn cəsur xanımlardandı.

**- Yadımdadı, Bərdə faciəsi günü saat 11-də zəng vurdun, dedin ki, yazıları atıram. Bir yazını atdın və...**

- 28 sentyabrdan Quzanlıda internet tamamən kəsilmişdi. Yazıları redaksiyaya, gedib Bərdədən- qohum-tanışın evindən göndərirdim. Həmin gün Bərdə Mərkəzi Xəstəxana ilə üzbəüz yerləşən "köçkün binası"na getmişdim. Qonaq getdiyim Ağdam rayonun Göytəpə kəndindən olan Asif Əsədovun binanın həyətində kiçik bir iş otağı vardı . Orda həm də, Göytəpə ərazi icra nümayəndəliyi kimi də istifadə olunurdu. Yazını ordan göndərdim. Həmin gün hava günəşliydi, xoş idi. Ağdam, Tərtər tərəfdən güclü atışma səsləri gəlirdi. Amma Bərdədə sakitlik idi. Bu səbəbdən də Ağdam və Tərtər camaatının xeyli hissəsi də bu məhləyə yığışıb gəlmişdilər. Atışmanın dayanmağını gözləyirdilər ki, yenidən evlərinə dönsünlər. Orda Tərtərli gənc ana ilə söhbət edirdim. Ayağından iflic keçirmiş, yerimə əngəlli 9 və 11 yaşlı iki övladının yanında oturub dərdindən, çəkdiyi əziyyətlərdən danışırdı. Günortaydı. İlk "Smerç" "köçkün binası"nın 50 addımlığına " İrşad Telekom" mağazasının düz qarşısına düşdü. Qəlpələr göydən yağış kimi yağdı. Mərminin səsi elə dəhşətli idi ki qəlpələr yaxınlıqdakı şiferdən olan damların üstünə dolu kimi yağırdı. Tez telefon əlimdə hadisə olan yerə tərəf yüyürdüm. Polis mərmi düşüb yanan maşına yaxın



buraxmadı. Qaça-qaça yenidən binaın həyətinə döndüm. Camaatın arasına çaxnaşma düşmüşdü. Oğlu, əri, qardaşı evdən çıxıb, iş dalınca, yaxud bazara, şəhərə gedən qadınların həyəcanlı bağırtıları, ağlaşmaları, qışqırıq səsləri həyəti başına götürmüşdü. İkinci, üçüncü mərmi də düşdükdən sonra şoka düşmüş, çaşqınlıq və stress içərisində olan camaatı zirzəmiyə yığmaq lazım idi. Orda Asif və Etibar Əsədovlarla birgə qocaları uşaqları, qadınları bir təhər zirzəmilərə yığa bildik. Həyətdə adam qalmadı. Bu dəfə yenidən çəkilişə başlamağa qərar verdim. Zirzəmidəki qadınların arxamca qışqırıb məni geri çağırmasını eşidirdim. Video çəkə-çəkə getdim çıxdım yenə "İrşad telekom" un yanındakı yanğın yerinə. FHN-in əməkdaşları yanğını söndürməklə, "TəciliYardım" maşınları küçələrə səpələnmiş yaralıları yığıb xəstəxanalara daşımaqla məşğul idi. Hamı susmuşdu. Elə bil hamı şok keçirirdi. Yerlər qan içində idi gölməçə-gölməçə yangına tökülən su qan gölməçələri ilə birləşib küçə aşağı axırdı. Çox dəhşətli səhnəydi çox Yadımdadır ki, təkcə bir kişi dil-boğaza qoymadan, yüksək səslə ermənilərin anasına-bacısına söyürdü. Deyəsən, o şok keçirməmişdi (gülür) Tanıyanlar dedi ki, ruhi xəstədi

**-Bəs sonra Quzanlıya necə getdin?**

-Həmin gecə şəhərdə demək olar ki, çox az adam qaldı "Köçkün"binasında da barmaqla sayılası adam qalmışdı. Orada qalanlar dedi ki, erməni bilmək olmaz axşam vaxtıdı Quzanlıya dönmə, qal burda, sabah gedərsən. Tanış xanım vardı, Şövkət Yusifli. Evinin açarlarını mənə verib ailəsi-uşaqları ilə birgə Yevlağa getdilər. Gecəni Şövkət xanımgildə tək - tənha keçirdim. Sözün düzü, gündüz gördüyüm dəhşətlərin təsirindən gözümü yuma bilmədim, maşın da yanan adam, yerdəki qan gölməçələri, ağlaşma, çığırtı, mərkəzi xəstəxananın həyətində ölənlərin yaxınlarının fəryadı Səhəri dirigözlü açdım. Səhər, qonaq olduğum evdə bir-iki loxma yeyib, "Pajarnı" tərəfə üz tutdum. Bu ərazidə daha çox dinc insan öldürülmüşdü. Yenə çəkilişə başladım, qəhər boğazımı yandırırdı. Elə bu anda göy rəngli VAZ-2107 avtomobilinin oturacağında bir ovuc insan içalatını gördüm. Çəkilişi necə başa vurduğumu xatırlamıram. Son kəlməmi deyib, telefonu bağladım, dizim üstə asfalta düşüb ucadan elə hönkürə-hönkürə ağladım...Ağlaya-ağlaya da Allaha yalvarırdım: Ay Allah, bu müsibəti götürmə, Ay Allah bu insanların günahı nəydi?" Yumruğumu gah dizlərimə, gah asfalta çırpırdım. Birdə baxdım,. ətrafım adamla doldu. Ora gələndə fikir verməmişəm sən demə, həmin gün PA-dan ora rəsmi şəxslər gələcəkmiş. 2-3 "Təcili Yardım" maşını, xeyli də əlavə maşınlar vardı. Məni yerdən qaldırdılar, apardılar "Təcili Yardım"ın yanına, əllərimə - üzümə su vurdular, dərman içirtdilər. Özümə gələndə sorğu-suala tutdular, kimliyimi öyrəndilər, Ölənlərin hansına qohum olduğumu soruşdular... Əlbəttə, heç biri qohumum deyildi, soydaşım idi, günahsız insanlar idi... Günortaüstü Bakıdan bərdəlilərə dəstək üçün gələn Müharibə Veteranı Qadınlarina Sosial Yardım İctimai Birliyinin sədri Rada Abbas, Svetlana Osmalı və Azər Hacıbəyli də o dəhşətli mənzərənin şahidi oldular. Bərdə qətliamını hər xatırlayanda ilk yadıma düşən, suya qarışıb axan qan birdə avtomobilin oturacağında parçalanmış bədəndən qalan bir ovuc içalat yadıma düşür Buna baxmayaraq, müharibəni diqqətlə izləyən camaatla, əsgərlərimiz üçün narahat olan sığınacaqda müvəqqəti məskunlaşmış insanlarla danışanda (Dəymədağlı, Kətəlparaq, Lək qəsəbəsi, Mahrızlı və s. ) çalışırdım ruh yüksəkliyimi qoruyum. Elə redaksiyaya göndərdiyim yazılarımda da buna çalışdım...Bilirdim ki, oxucum çoxdu...

**- Gələn söhbətimizdə 13 noyabrda yardımsevərlərlə birgə getdiyiniz Cəbrayıl turunuz haqqında danışarsınız...Mənə danışdığın qədəriylə o bir macəra olub...**

-Məmnuniyyətlə danışaram...

**Rövşən Tahir**



*İltifat HACIXANOĞLU*

# İran, apar o medalı...

***Dünəndən bəri İran mətbuatı və Bakıdakı əlaltıları şəhid generalımız Polad Həşimovun ölümündən sonra "Qasim Süleymani" adına medalla təltif olunması barədə ağzları köpüklənə-köpüklənə tərifnamələr yazırlar. İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi şəhid general Polad Həşimovun ailəsini ziyarət edib. Şəhidin ailəsi ilə görüş zamanı general şəhid Qasim Süleymani adına olan lövhə və medalı şəhid Polad Həşimovun xanımına və övladlarına təqdim edib.***

***Bu hərəkəti ilə İran bir daha sübut edir ki, məkrli siyasətindən əl çəkmək istəmir. Bu həmin İrandır ki, 44 günlük Vətən Müharibəsinin ilk həftələrində Rusiyadan göndərilən silah-sursatla, ağır artilleriya və tanklarla yüklənmiş tırları öz ərazisindən Ermənistana çatdırılmasına şərait yaradırdı. Müharibədə ard-arda qazandığımız qələbələr və İranla həmsərhəd bütün ərazilərimiz erməni işğalından azad olunandan***



***sonra valı dəyişdi. İran elə bilirdi ki, Azərbaycan bu dəfə də Rusiyanın aşkar dəstək verdiyi Ermənistana məğlub olacaq. Çünki bu, İranın arzusu və planıdır. Plana uyğun olaraq ermənilər daha da Azərbaycanın içərilərinə doğru hərəkət edəndən sonra Araz boyu bütün ərazilərimiz yenidən İranın nəzarətinə keçməli idi. Çünki Azərbaycan müstəqillik əldə edəndən bəri İran "din" pərdəsi altında, dini məktəblərində yetişdirib göndərdiyi "tulaları"nın vasitəsilə ixtişaşlar yaratmaq fikrindən hələ də əl çəkməyib. Nardaran və Gəncə hadisələri bu dediklərimizə sübutdur.***

***Görəndə ki, Ermənistana açıq-aşkar yardım etməklə Azərbaycanda ona rəğbət bəsləyən şiə məzhəbindən olan insanların olan- qalan hörmətini itirib, İran onların ürəyin ələ almaq məqsədilə Polad Haşımov variantına əl atır. Görünür bununla İran müəyyən qədər Azərbaycan siyasətinə manevr etmək, narazı təbəqənin könlümü almaq istəyir. Çünki Polad Haşımov dünya azərbaycanlılarının məhəbbət bəslədiyi bir şəxsiyyətdir. O, özü sağ olsaydı, onun qapısına bu məkrli planla gələnləri qovardı. Təbii ki, Polad Haşımovun ailəsi bu məkri anlamamış ola bilərlər. Hətta bizdə olan dəqiq məlumata görə qəhrəmanımızın anası Səmayə xanım İran səfirliyinin görüş barədə xahişindən dəfələrlə imtina edib. Təbii ki, Səmayə xanım biziim Milli Qəhrəmanımıza erməni xislətli bir Azərbaycan düşməninin adı olan medalı verməyin Azərbaycanın qələbəsini həzm etməməyin təcəssümü olduğunu başa düşmüşdür.***

***Qasım Süleymani Azərbaycana nifrət edən, onun bir dövlət kimi varlığını həzm etməyən fars generalıdır. Onun hələ I Qarabağ Müharibəsi zamanı Azərbaycan əleyhinə casusluq etməsini həm erməni, həm də İran mənbələri etiraf ediblər. İran hökumətinin televiziya kanalı olan "Xəbər Şəbəkəsi"ndə verilişlərdən birində ekspertlərdən biri Qasım Süleymaninin ermənipərəst mövqeyini etiraf edib. Canlı yayımlanan verilişdə ekspert "Sepah" terror təşkilatının "Qüds Briqadası"nın***




***komandanının niyə Ermənistana dəstək göstərdiyini izah edərkən ölkəsinin anti-Azərbaycan mövqeyini də açıqladı: "Ermənistan məsələsinə diqqət yetirin. Naxçıvan Respublikası ilə Azərbaycan Respublikası arasında quru sahəsində ayrılma var.***

***Onların (ermənilərin-red.) Qarabağ bölgəsini Azərbaycan Respublikasına birləşdirməklə, Naxçıvanla Azərbaycanı birləşdirmək planları var idi. İlkin baxışda bunun İran İslam Respublikasının xeyrinə olduğu görünə bilər. Ancaq bunun arxasında məkrli plan var idi. Bundan sonra regionda pantürkist millət formalaşdıraraq, prosesləri digər məcrada davam etdirəcəkdilər. Lakin Qasım Süleymani bunun qarşısını aldı",- deyə ekspert vurğulayıb. Bu adi bir ekspertin mülahizsi deyil, İranın Azərbaycanla bağlı siyasətinin inikasıdır.***

***Bu həmin Qasım Süleymanidir ki, Azərbaycanda ixtişaşlar yaratmaq üçün İranın qum şəhərində dini təhsil alan tələbələrdən Tohid İbrahimlinin başçılığı altında 24 nəfərlik terrorçu dəstə yaratmışdı. Bu həmin Qasım Süleymanidir ki, bütün erməni kilsələrində onun üçün matəm ayinləri təşkil edildi. Belə bir düşməni gətirib Azərbaycan xalqının Polad Haşımov Milli Qəhrəmanına calamaq məkrli siyasi məqsədlər daşıyır. İran Azərbaycan ictimaiyyətinin gözündə müsbət bir rola girmək üçün bu addımı atır.***

***Düşünürəm ki, Polad Haşımovun ailəsi Azərbaycanın düşmənin adına təsis edilən bu dəmir parçasını aparıb qaytarmalıdır. Yoxsa Poladın ruhu narahat olacaq!!!***

# O BÖYÜK ZİYALI

**... Dünyada insanın üç böyük varlığa borcu var: Allaha, valideynə və müəllimə! Düşünürük ki, bu borcu hələ heç kim qaytara bilməyib. Amma sadəcə olaraq, hər an onları xatırlamaq, yada salmaq elə özü hardasa o borcun bir hissəsinin çiynindən götürülməsidi. Və biz də həmişə çalışmışıq ki, gücümüz nəyə çatırsa, Allahın, valideynin və müəllimin borcunu qaytaraq...**

... Hər il o böyük ziyalını - BDU-nun müəllimi, filologiya elmləri doktoru, professor, kafedra müdiri, Milli Məclisin sabiq deputatı mərhum Şamil Qurbanovu doğum günündə yada salmışıq və xatırlamışıq. Ən azından ona görə ki, Allah tərəfindən unudulmayan Şamil Qurbanov tələbələri tərəfindən də heç vaxt yaddan çıxmır. Çünki onun böyük ürəyi, ziyalı qəlbi və ən nəhayət, düşüncəsinin işığı həmişə bu xalqın, bu millətin üstünə düşüb.

### *Bu gün cəmiyyətimizdə*

Şamil müəllim kimi ziyalıya, işığa, nura çox böyük ehtiyac var. Onları biz gündüz vaxtı çıraqla axtarırıq. Heç gündüz vaxtı da, gecə vaxtı da belə böyük ziyalıları tapmaq çox çətin məsələdi. Ona görə ki, onlar öz nurunu, öz işığını doğmalarının üzərinə deyil, elin-obanın üstünə salırlar. Və bir də onu xatırladaq ki, heç vaxt Şamil Qurbanov kimi ziyalılar dünyasını dəyişəndə ağlamaq lazım deyil. Onu itirən cəmiyyəti ağlamaq lazımdı. Çünki Şamil Qurbanov kimi böyük ziyalı dünyasını dəyişirsə, deməli, hardasa dünyaya işıq salan bir nur yox olur.

***Volterin belə bir hikmətli fikri var: "Ziyalı o deyil ki, savadlıdı, o adamdı ki, keçmişlə gələcək arasında özünün yerini müəyyənləşdirə bilsin.". Bax, bu mənada böyük Şamil Qurbanovun yeri bir ziyalı olaraq həmişə görünüb və görünür.***

Şamil Qurbanov 1934-cü il may ayının 10-da Gürcüstanın Bolinisi rayonunun Faxralı kəndində anadan olub. 1955-ci ildə bu kənddə 11 illik məktəbi bitirib. Və həmin il də ADU-nun (indiki BDU) jurnalistika şöbəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirib və "Azərbaycan məktəbi" jurnalında ədəbi işçi kimi fəaliyyətə başlayıb. 1961-ci ildə universitetin jurnalistika fakültəsində baş laborant vəzifəsinə keçib, 1962-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə aspiranturaya qəbul olub. Və 1965-ci ildə "Zaqafqaziya rusdilli mətbuatında Azərbaycan mətbuatı (1905-1917)" mövzusunda dissertasiyanı vaxtından əvvəl müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. Müdafiədən sonra o, "Bakı" və "Baku" qəzetlərində ədəbiyyat şöbəsinin müdiri işləyib. 1968-ci ildə yenidən universitetə qayıdıb və "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında dosent kimi pedaqoji fəaliyyətə başlayaraq Azərbaycan dilindən dərs deyib. 1971-ci ildə universitetin Rus ədəbiyyatı tarixi kafedrasına keçib və rus ədəbiyyatından mühazirə oxuyub. 1973-cü ildən Türk və Şərqi slavyan xalqları ədəbiyyatı kafedrasına keçib. Və həmin kafedranını dosenti, sonra isə professoru olub. 1975-ci ildə "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini alıb. 1989-cu ildən isə həmin kafedraya rəhbərlik edib.

### *Şamil Qurbanovun*

ən böyük xidmətlərindən biri də odur ki, Ömər Faiq Nemənzadə və Şeyx Cəmaləddin Əfqani haqqında unikal tətqiqatlar aparıb. Onların hər biri haqqında 4-5 kitab nəşr edilib.

Bu böyük alim həm elm aləmində, həm də ictimai-siyasi fəaliyyətində çox böyük uğurlara imza atıb. Onun ən böyük xidmətlərindən biri də Nəriman Nərimanov və Məhəmməd Əmin Rəsulzadədən, bugünkü Türkiyənin qurucusu M.K.Atatürkdən və 20-ci yüzilliyin sonlarında milli müstəqilliyinə qovuşmuş Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyev barəsində möhtəşəm yazılar qələmə almasıdı.

***O, böyük alim olmaqla yanaşı, yazımızın əvvəlində qeyd etdiyimiz kimi böyük də insan idi... böyük də türk idi... böyük də vətənpərvər idi... Şamil müəllimin yanında heç kəs haqqı tapdalaya bilməz, ona kölgə salmağa gücü çatmazdı. Çünki Şamil müəllim harda olsa haqqın, ədalətin, dürüstlüyün yanında olub və haqsızlığa qarşı vulkan kimi püskürərdi. Necə ki, bir vaxtlar Milli Məclisdə çoxlarının cəsarət edib deyə bilmədiyi və böyük əks-səda yaradan fikri səsləndirdi. O demişdi ki, Fransanın prezidenti Jak Şirak qudurub, bizim haqq işimizi görmür, erməniləri müdafiə eləyir. Təbii ki, belə bir fikri səsləndirmək, özü də Milli Məclisin tribunasından demək elə də asan deyildi.***

### *Sonradan*

bu böyük ziyalıya qarşı ölkəmizdə mövcud olan ermənipərəst qüvvələr tərəfindən təpkilər oldu.



Hətta bir qrup onun öyrədilmiş seçiciləri Milli Məclisdən Şamil Qurbanovun geri çağırılmasını tələb edirdi.

Bax, həmin vaxtlarda Şamil Qurbanovu xalq şairi Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, universitetin professorları Pənah Xəlilov, 91-dən olan İsgəndər Quliyev müdafiə etdi.

***Və ən çox da Şamil müəllimi müdafiə edən onun tələbəsi, yazıçı-publisist, "Ədalət" qəzetinin baş redaktoru Aqil Abbas oldu. Aqil Abbas dedi ki, Şamil müəllim, sənin o ağzından öpürəm. O Jak Şirakın ölkəmizdə nə qədər qohum-əqrəbası varmış. Amma onların qohum-əqrəbası çox olsa da, sən düz demisən, hələ bir az da yumuşaq demisən. Nə demisənsə, əcəb eləmisən və biz tələbələrin də sənin yanındayıq. Sonrakı illər də göstərdi ki, Fransa heç vaxt haqq-ədalətin yanında olmayıb. Həmişə türklərin düşməni olan, şər-böhtan deyən vandal bir tayfaya himayədarlıq edib. Və indi dünya görür ki, onların himayədarlıq etdiyi ermənilər Azərbaycanın işğaldan azad olunmuş rayonlarında hansı vəhşilikləri törədib. Bax, Şamil Qurbanovu da yandıran və vulkan kimi püskürdən bunlar idi.***

### *Dünyada*

heç vaxt ləyaqəti, qüruru var-dövlətlə, vəzifəylə almaq mümkün deyil. O yalnız və yalnız insana nəsildən-nəsilə, kökdən-kökə, qandan-qana keçir. Professor Şamil Qurbanov da belə bir kökdən rişə almışdı. Bayaq dedik axı, o heç vaxt ağa qara deməyə, düzə əyri kimi baxmağa dözə bilməzdi. Ürəyi partlasa da, içindəkini dilinə gətirərdi və xalqa çatdırardı.

Bu gün sözün həqiqi mənasında Azərbaycanda Şamil Qurbanov kimi böyük ziyalılara, aydınlara ehtiyac var. Biz demirik ki, bu gün məmləkətimizdə aydınlarımız yoxdu, amma onlar çox azdı. Onlar nə qədər çox olsa, millətimiz, xalqımız və dövlətimiz də bir o qədər güclü, bir o qədər möhtəşəm, bir o qədər qüdrətli olar.

Şamil Qurbanovun adını daşıyan savadlı bir nəvəsi də var - balaca Şamil Qurbanov. Amma o, balaca olsa da, artıq Türkiyədəki Muğla Dövlət Universitetini bitirib. Bir nəvəsi Ülkər isə Milan Dövlət Universitetinin tələbəsidi.

**Biz heç də bu yazını təsadüfən qələmə almadıq. Çünki mayın 10-da Şamil müəllimin dünyaya gəldiyi gündü. Yəni onun həyata, vətənimizə, millətimizə bir işıq olaraq qovuşduğu bir andır. Biz tələbələri də o böyük müəllimi yada salmaqla çiynimizdən bir ağır yük götürüldüyünü hiss edirik. Hiss edirik ki, müəllimini yada salmaq, xatırlamaq, olum və ölüm günündə bir daha yad etmək çox savab işdir. Elə yazımızı da o böyük ziyalı haqqında yazılmış şeirin bir bəndilə tamamlamaq istəyirik:**

*Bəhrəsi hardadı, özü ordadı,*
*Söhbəti ordadı, sözü ordadı.*
*Odu içindədi, közü ordadı,*
*Hələ açılmamış sirdi Şamilim...*

**Səməndər MƏMMƏDOV,**
**Faiq QİSMƏTOĞLU**

## *ABŞ-la Belarus arasında "buz dövrü" başladı*



**Belarus-ABŞ münasibətləri köklü şəkildə korlanıb, artıq "buz dövrü" başlayır.**

**Münasibətlərin normallaşması prosesinin başlanacağına ümid etmək üçün heç bir əsas yoxdur.**

**Bu barədə Belarusun "Belarusskiye novosti" şərh dərc edib.**

**"Son dəfə dünyada buna bənzər münasibətlər Birləşmiş Ştatlarla Kubanın arasında ötən əsrin altmışcı illərində müşahidə olunub.**

**Hazırda isə baş verənlərin fonunda ölkələrin diplomatik münasibətlərin pozulması heç də mümkünsüz kimi görünmür", - materialda bildirilir.**

**Məqalədə qeyd olunur ki, zaman keçdikcə Lukaşenonun "sui-qəsd işi"nin ətrafında yaradılan qalmaqal bağlansa belə, ikitərəfli münasibətlərdə nəzərəçarpacaq dərəcədə istiləşməyə ümid etməyə dəyməz.**

**Bundan sonra Rusiya ilə inteqrasiyanın dərinləşməsinin məcburi prosesini davam etdirmək lazım gələcək, bu da qaçılmaz olaraq Belarusun suverenliyinə daha böyük təhdidlərin yaranmasına gətirib çıxaracaq.**

**MEHRİBAN**



# Mollanı əmmamələməlimi, əmmamələməməlimi?

***Eminquey***

**Mollalıq etmək sevdasına düşmüşəm, ey bəni Adəmlər!**

**Hərçənd ki, xalqın tez-tez dilində dövr eləyən "mollalıq" etmə ifadəsi yaxşıya yozulmur, amma mollanı süfrəmizin, qəbrimizin başında əyləşdirən də bizik.**

**Haqverdiyevə haq verməyən, Mirzə Cəlili zəlil gününə qoyan, Sabirin həyatını Sibirə çevirən insanlarıq, amma heykəllərinin önündə təzim edən də bizik.**

**Vaveyla!**

**Ey ölülər!**

**Qorxuğum müsəlmanlar!**

**Dərindən təəssüf ki, təhlükənin düz qucağında özümüzə dövlət yaratmışıq. Cənubdan gələn cahil küləklər bəzən hər şeyi vurub-dağıdır, bəzən isə aram-aram ovur, aşındırır.**

**2012-ci ildə Qubada qeyri-adi molla peyda olur. Qubanın Amsar kəndində yaşayan 49 yaşlı Şükür Fətəliyev inanc yeri kimi tanınan "babagörükən" adlı yerdə mollalıq edir. Özünə övliya deyən bu adam həm əynindəki paltarlarını yaşıl geyinir, həm də əlindəki ağacdan hazırlanmış yaşıl qılınccla gəzir. Guya ki Allahın dərgahına qalxıb, ona vergi verilib.**

**2015-ci ildə Şəmkirdə rayonun kəndlərindən birində qurulan toy məclisi uzun illər davam edən böyük bir fırıldaqçılıq, qalmaqallı məsələnin sirlərini açır.**

**Evini "ziyarətgaha" çevirən şarlatan mollanın qıza təcavüz etdiyi ortaya çıxır.**

**Gəlin toy axşamı həyat yoldaşına iki il əvvəl 49 yaşlı Müsahib Vəliyev adlı fırıldaqçı seyidin ona bir stəkan su adı ilə dərman içirərək təcavüz etdiyini danışır.**

**Toyun səhəri günü bu xəbəri eşidən ailə üzvləri, çoxsaylı kənd sakinləri bu günə kimi kənddə rast gəlinməmiş belə bir rüsvayçı olaya görə ayağa qalxaraq, "molla"nın evini mühasirəyə alırlar. Mənzilin şüşələrini sındırıb, daş-qalaq etsələr də, çölə çıxan olmur.**

**2016-cı ilin 15 noyabrında molla evində başqa qadınla yaxalanır. Polis onları tutur və molla polisə "sən mənə heç nə edə bilməzsən, mən bu qadını alıram" deyir.**

**İstər Azərbaycanda, istər Şərq ölkələrində bu kimi xəbərlər adamın gözünü yara edir. Qonşu Türkiyədə molla xəbəri çıxmasa, insanlar rahat yata bilmirlər.**

**Bizdə isə bu şarlatan dəstələri o qədər dərin kök salıblar ki, yaxın keçmişdə "Qaloş piri"nə qoşmadığımız zarafatlara görə təəssüflənməklə kifayətlənə bilmişik.**

**Əlimizdən başqa nə gəlir ki?!**

**Budəfəki hadisənin mərkəzi Lerikdir.**

**Lerikin Barzavu kənd sakini, molla kimi tanınan 57 yaşlı Murad Əsgərov Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı deyil. O, sadəcə kənddə namaz qılan, kənd camaatından pul almaqla Yasin surəsi, Quran oxuyan şəxs olub.**

**Molla qonşuluqda yaşayan Zəkifə Fərziyevanın evdə tək olduğunu bilərək gizli şəkildə mənzilə girir və qadına qarşı əxlaqsız hərəkətlər etməyə başlayır. 3 uşaq anası olan Zkifə qışqırmağa başlayır və "evə oğru girib" deyərək qonşularını köməyə çağırır. Qadının qışqırdığını görən molla cibində gəzdirdiyi bıçaqla qadının boğazını kəsərək, onu amansızlıqla qətlə yetirir.**

**Zəkfənin həyat yoldaşı Rusiyaya işləməyə gedib, bir oğlu isə Vətən Müharibəsinin iştirakçısıdır və hazırda Şuşada hərbi xidmətddədir.**

**Bəli, əvvəllər mollalar "xalqa xidmət başında" min hoqqadan çıxırdılarsa, indi daha da azğınlaşıb birbaşa "evə çatdırılma" ilə öz kariyeralarının zirvəsinə çatıblar. O qədər vicdansızlaşıblar ki, ərinin Rusiyada çörək qazanmağa getməyindən, bir oğlunun şəhərdə işləməyindən, müharibədə döyüşmüş bir oğlunun hal-hazırda Şuşada xidmət etməyindən, digər oğlunun isə meşəyə odun qırmağa getməyindən istifadə edib qadını zorlayacaq qədər gözləri qızıb.**

**Ailəsini dövlətə, insanlara etibar etmiş kişilərin namusuna göz dikmək insanlığa yaraşmır, o ki qaldı mollalığa, axundluğa.**

**Və nə təəssüf ki, qonşuluqdan gələn bu cahilizmlə mübarizə aparmaq tarixin istənilən dövrlərində bizə torpaq almaqdan daha çətin bir məsələyə çevrilib. Torpaqları azad etdik, bəs ailəmizi, qızlarımızı, qadınlarımızı bu cahil-cühəlanın, gözləri qızmışların, saxtabaşların əlindən necə xilas edək?**

**Dövlətin bir edam cəzası da yoxdur ki, kökləri kəsilsin...**

**"Tütək səsi"ndəki Qılınc Qurban kimi qışqırmaq istəyirəm:**

**- Bu gün Cəbrayılı bağışlayaq, sabah da başqaları əsgər namusuna sataşmağa başlasınlar, hə?**

**Sonra elə ona cavab verən İsfəndiyar kişi kimi özümə təsəlli verirəm:**

**- İnamını itirmə, Qurban, inamını itirmə...**

**Və bir şeydə rahatlıq tapıram. O mollaya müharibəni də, əsgər namusunu da necə lazımdır sübut edəcəklər.**

**"Vaveyla" deyib Allahdan yapışsa da, xeyri olmayacaq...**

# Mülkiyyət Hüququ toxunulmazdır, dövlət tərəfindən qorunur

**Yazının əsas mövzusunu qələmə almamışdan əvvəl Ulu Öndər Heydər Əliyevin dərin və geniş əhatəli, yüksək fəlsəfi düşüncəyə malik olan, həkimlər haqqında söylədiyi müdrik kəlamını qeyd etmək yerinə düşər: Ümümilli liderimizin dediyi kimi: Özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır. Ulu Öndərin bu müdrik kəlamının mahiyyətini dərk edərək həmişə xalqın sağlamlığı keşiyində sadiq əsgər kimi dayanmış, xidməti borcunu bacardığım qədər yerinə yetirmiş minlərlə insanı korluqdan xilas etmişəm.**

Tələbəlik və sonrakı fəaliyyətimdə görkəmli alimlərdən dərs almış, korifey alimlərdən akademik Zərifə Əliyevanın sənət məktəbini keçmişəm.

Demək istəyirəm ki, peşəkarlardan dərs alıb, bu günki təbabətdə qazandığım uğurlara görə onlara borcluyam.. 45 il ərzində 60 minə yaxın cərrahi əməliyyat, 200 mindən artıq insana tibbi xidmət göstərmişəm. Elmlər doktoru, professor, əməkdar elm xadimi kimi elmi və fəxri adlara layiq görülmüşəm.

İndi keçək əsas məqsədə. Azərbaycan Respublikasının əmlak xidmətinin Bakı şəhər ərazı idarəsi tərəfindən Səbaıl rayonu Teymur Elçin küçəsindəki 6 saylı ünvanda yerləşən 0, 0239 hektar torpaq sahəsinin planı və ölçüsü 2015-ci ilin fevralında daşınmaz əmlakın rəqəmli kadasdır xəritəsində həmin torpaq sahəsi fərdi yaşayış evi üçün tam mülkiyyət hüquqi üzrə qeydiyyata alınaraq çıxarışlar verilmişdir.2019-cu ilin aprelində mülkiyyətimdə olan torpaq sahəmdəki fərdi yaşayış evimə əlavə olaraq yardımçı otaqın tikintisinə icazə verilməsinə dair Səbail Rayon İcra Hakimiyyətinə rəsmi müraciət etmiş, müraciətimə cavab olaraq Səbail Rayon İcra Hakimiyyəti tərəfindən 2019-cu ilin mayın 5-də ərizə ilə Azərbaycan Respublikasının şəhər salma və tikinti məcəlləsinə uyğun olaraq (Maddə 79.1.1) hündürlüyü ən çoxu 5 metr sahəsi 100kvm.dək bir mərtəbəli yardımçı tikilinin tikintisinə icazə tələb olunmamasına dair məlumat verilmiş, həmin ünvanda mülkiyyətində olan torpaq sahəsində aparılacaq əlavə tikinti işlərinin memarlıq-planlaşdırma həllinə 2019-cu ilin mayında k.20-151 saylı "Bakı Şəhər Səbaıl Rayon İcra Hakimiyyəti tərəfindən razılaşdırılmışdır" məzmununda cavab verilmişdir. Həmin fərdi tikinti sahəsində gözün əlvan təbəqəsi üzrə orqanizmdə baş verən patoloji dəyişikliklərlə bağlı "İridologiya" elmi və praktiki redaksiyasının maddi və texniki bazasına aid əmlakın bir hissəsi qorunur. Keçən ilin 7 aprelində Reyster xidmətinin qəbzi və tikintiyə aid müvafiq rəsmi sənədlər olmasına baxmayaraq "COVİD 19" pandemiyası ilə əlaqədar xüsusi karantin zamanı Bakı şəhəri, Teymur Elçin küçəsindəki 6 saylı evimin yerləşdiyi ərazi üzrə Səbail rayon Mənzil Kommunal Təsərrüfat birliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yanında Bakı şəhər Memarlıq və Şəhərsalma İdarəsinin vəzifəli şəxslərinin göstərişi ilə 8, 46,58 saylı Səbayil rayonu Mənzil Komunal İstismar sahəsinin digər işçiləri məhkəmə qərarı olmadan qanunsuz olaraq Səbail MKTB-yə məxsus "Bobkot" tipli kran və digər texniki vasitələrdən istifadə edərək 6 saat ərzində həmin evimi və oradakı "İridologiya" elmi redaksiyasının maddi texniki bazasına aid əmlakın bir hissəsini yerləşdiyi sahəni söküb uçuraraq tam yararsız vəziyyətə salmışdır. Məlum olduğu kimi Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Konstitusiyasının 29-cu maddəsinə əsasən mülkiyyət hüququ o cümlədən xüsusi mülkiyyət qanunla qorunur. Azərbaycan Respublikasının Mülki Məcəllənin 157.8-ci maddəsinə əsasən mülkiyyətçi hüquqları mülkiyyətçi olmasa da, mülki məcəllədə və ya müqavilədə nəzərdə tutulan əmlaka sahiblik edən şəxsə də mənsubdur. Mənim şəxsi mülkiyyətim Azərbaycan Respublikasının şəhərsalma və tikinti məcəlləsində icazə tələb olunmayan tikinti obyektləri sırasındadır.

Bu baxımdan Ulu Öndər Heydər Əliyevin belə qanunsuzluqlara yol verənlərə mübarizə yolu hamıya və hər kəsə örnək məktəbi idi. O, yeganə şəxsiyyət idi ki, böyük naqislikləri üzə çıxarıb, hamının hamılığını hamıya tanıtdı. "Ayrı-ayrı insanlar ləyaqətlərini itiriblər, xalq haqqında düşünmək əvəzinə, millət haqqında düşünmək əvəzinə respublikanın iqtisadiyyatını normal vəziyyətə salmaq əvəzinə tutduğu vəzifədə hərə özü üçün xüsusi bir gəlir götürmək istəyir. Özü də bu gəliri nə təhər deyərlər, bir balaca insaflı götürsə, yenə deyərsən ki, buna bəlkə dözmək olar. Ancaq bunlar o qədər yırtıcı olurlar, o qədər gözü ac olurlar ki, heç bir şeylə doymurlar. Beləlıəri bizim içimizdə hələ də var".

**Məlum olduğu kimi möhtərəm prezidentimiz İlham Əliyevdə belələrinə qarşı mübarizə aparmış, çıxışlarında məmurları düzgün yola qayıtmağı dövlətdən etimad etimad alıb insanlara ləyaqətlə xidmət etməyə səsləyib. O, çıxışlarınında dönə-dönə vurğulayırdı: korrupsiya, rüşvətxorluğa qarşı mübarizə bir gündə dayanmır. Bu mübarizəni artıq yaxşı nəticələri var, dah da yaxşı nəticələri olacaqdır. Biz bu böyük bəlanı ölkəmizdən yığışdırmalıyıq, təmizləməliyik. Elə etməliyik ki, Azərbaycan hər sahədə həm siyası, həm iqtisadi, həm korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində nümunə olsun.**

**Kərəm Kərimov**
**Tibb elimlər doktoru,**
**professor,**
**Əməkdar elm xadimi**

**Bu gün Azərbaycan xalqı özünün ən möhtəşəm tarixini yaşayır.Bu xoşbəxtliyi onlara bəxş edən Ali Baş Komandan Hörrmətli Prezidentimiz İlham Əliyev cənabları və onun Qəhrəman Ordusunun əsgər və zabitləridir.Ulu tanrı hər zaman onlara yar olsun!**

# AĞDAMIN QƏDİMDƏN QƏDİM TARİXİ



Həsən Əliyev
Politoloq, sosioloq
aliyevhasan@gmail.com

Bu gün hər bir azərbaycanlı ziyalı öz növbəsində işğaldan azad edilmiş ərazilərin tarixinə,oradakı qədim toponimik adların bərpa olunmasına öz fədakar əməyini əsirgəməməlidir. Tarixi mənbələrə nəzər salarkən Ağdam rayonunun, bu qədim insan məskəninin 1828-ci ildən mövcud olduğunu gördükdə həm təəccüb,həm də təəssüf edirsən. Ağdamın tarixini 1828-ci ilə gətirib çıxaran siyasi mənbələr alimlər tərəfindən dərindən araşdırılmamış və bu tarix sovet ensiklopedik mənbələrindən sterotip şəkildə hər zaman təkrarlanmışdır.

## *1828-ci illər ətrafında*

***Qarabağ xanlığının başına gələn müsibətlər,rus çarı tərəfindən Qarabağ xanlığının ləğvi, onun rusiyaya ilhaq edilməsi və bunun sovet dövrünün rəsmi mənbələrində təm-təraqla "obyektiv mütərəqqi əhəmiyyəti" barədə təbliğatlar zorla tarixin yaddaşına həkk edilmişdir.1828 -ci il Qarabağa erməni köçünün axınının başlanğıcı tarixi ilə Qarabağın,Ağdamın tarixini eyniləşdirmək kimlərin siyasi təbliğatının nəticəsi idi? Sanki Qarabağ xanlığının tarixi erməni köçü ilə eyniləşdirilmiş,ermənilərin çırağına kimlərsə yağ tökmüşdür.***

Məgər bu gün davam edən erməni fitnəkarlığı,onların törətdikləri soyqırımlar,torpaqlarımızın 30 ildən artıq işğalda qalması Qarabağın tarixinə yenidən nəzər salınmağını zəruri etmirmi?

Məhz 1980 -ci illərdə Ağdam rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan qədim eksponatlar yeni fikirlərin əsasını qoydu.Ağdamın Əfətli kəndində aparılan arxeoloji qazıntılar zamanı tapılan məişət küplərində saxlanılan taxıl qalıqları aşkarlandı.Aparılan laborator kimyəvi və fiziki analizlər göstərdi ki ,həqiqətən də bu taxıl dənlərinin yaşı min illərlə ölçülür.

Bu tapıntıların əsasında Ağdam şəhərinin qədim od dəyirmanında dünyada 2-ci,SSRİ-də isə 1-ci "Çörək Muzeyi" yaradıldı."Çörək Muzeyi"ndə könüllü şəkildə ziyalılar tərəfindən zəngin tarixi eksponatlar toplanaraq, rəngarəng sərgilər təşkil olundu.Ağdamda yaradılan "Çörək Muzeyi"nin əks sədası bütün ittifaqa yayıldı.Buraya keçmiş ittifaqdan tutmuş,respublikanın bütün rayonlarından ziyarətçilər axışıb gəlməyə başladılar.Leninqrad şəhərinin sakini,II dünya müharibəsi zamanı mühasirədə qalmış bir qadın özünün qurudub,saxladığı günlük çörək normasını bu muzeyə bağışlamışdır.Muzeydə çox sayda qədimdən qalmış əkin-biçin alətləri,şum üçün xış qoşquları,qədim xalça və palazlar,milli geyim və silah nümunələri,qədim sikkələr eyni zamanda kənd təsərrüfatı bitkilərinin toxumlarından işlənmiş müasir Azərbaycanın xəritələri və.s eksponatlar sərgilənirdi.

Ağdam rayonunun ərazisində çox sayda kurqanlar mövcuddur. Əgər biz "kurqan" mədəniyyətinin tarixinə nəzər salsaq görərik ki,bu ən ibtidai insanlarla yaşdaşdır. Kurqanların tarixi Misir ehramlarından daha qədimdir. Kurqanlar da piramidalar kimi eyni əhəmiyyət kəsb etmişdir.

## *Kurqanlar*

əsasən böyük tayfa başçılarının sülalələrinin gorgahı olmuşdur. Əslində Ağdamın tarixini bu kurqanlarda axtarmaq lazımdır.Əgər biz kurqanların (təpə) coğrafi cəhətdən relyeflərinə nəzər yetirsək görrərik ki,bu heç də təbii yaranma deyil, insanlar tərəfindən süni coğrafi obyekt kimi salınmışdır. Bunu qazıntılar zamanı oradan tapılan qədim insan və heyvan sümükləri, məişət əşyaları sübut edir.

***Əslində "kurqan" qədim türkcə "gorgah" sözündən olub, rus dilinə keçmə sözdür. "Piramida" sözünə gəlincə isə bu məfhum da "firr"(qədim misirlilərin dilində "od" tanrısının adıdır) sözünün latın dilində deyilişidir. "Pyr" sözü latınca "od", "ram" sözü "allah" , "İdol" sözü isə "təcəssüm" mənasını bildirir. Bütövlükdə "Piramida" məfhumu "Od (qor) allahının təcəssümü" mənasını verir.Ərəb dilində "ehram" sözü də "hor" və "ram" tanrısal sözlərindən yaranmışdır. Çox təəssüflər olsun ki,bütün elmi mənbələrdə "piramida" məfhumunun həndəsi füqur olan piramidaya bənzəməsindən yarandığını ehtimal edirlər.Əslində isə həndəsi füqur olan "piramida" məfhumu Misir Piramidalarının adından yaranmışdır.***

Əgər biz Ağdam rayonunun coğrafi mövqeyinə diqqət yetirsək, onun səfalı havasının,şabalıdı məhsuldar torpaqlarının,Qarqar və Xaçın çaylarının onun ərazisindən axmasının,ərazisinin dağlarla əhatə olunduğunun şahidi oluruq.Bura əsl ibtidai insanların yaşayış məskənləri üçün ən əlverişli sayılan ərazilərdən biri olmuşdur və bu ərazilər hökmdarlar tərəfindən idarə edilmişdir. Hökmdarlar ölərkən bu kurqanlarda dəfn olunmuşlar.Kurqanlar burada ilkin ibtidai dövlətçiliyin atributlarındandır.

***Ağdam rayonunu Papravənd kəndinin "Qara Pirim" abidəsi ətrafındakı qəbirstanlıqdan qədim dövrə aid daş insan abidələri çıxarılıb gətirilərək, Ağdam şəhərinin İmarət tarixi muzeyinində nümayiş etdirilirdi.***

Hamıya məlum olduğu kimi islam dininin dəyərlərinə görə bütpərəstliyin əlamətləri hər bir müsəlman qövmü üçün qadağan olunmuşdur.Məhz həmin daş insan surətləri şübhəsiz ki,islamdan çox-çox əvvəllərə gedib çıxır.Məhz xalqımızın ta qədimdən tolerant olması,onların hər bir mədəniyyətə



multikultural baxışları bu abidələrin qorunub saxlanmasına səbəb olmuşdur. O, daş insan abidələrinə baxdıqda ibtidai insan təfəkkürünə heyran qalırsan.Onlar hökmdarları adi insan vücudundan fərqli, daha uca,daha da əzəmətli yaratmışdılar.Bu mifik daş heykəllərin yaşı görəsən 1828-ci ildən nə qədər fərqlidir?

Ağdamın qədim yaşayış məskənlərindən olan Xındırıstan kəndindəki kurqandan aşkarlanan daş sənduqələr,onların içərisindəki bu günkü insan anatomiyasından fərqli insan sümükləri,onların yanına qoyulmuş inanclar (totem) zərb olunmuş sikkələr hansı tarixdən xəbər verir? Sikkələrdə olan totemlərin rəmzləri,əlifbanın mövcud olmamasına dəlalət edir. Misir ehramlarındakı heroqlif yazıların 5 min il tarixi olduğu göstərilir.Bəs onda bu kurqanlardan tapılan daş sənduqələr neçənci minilliklərin abidələridir?

## *Həqiqətən bu tapıntılar*

***Ağdamın gerçək tarixinin qədimiliyini qoruyur.Bu ərazidə əcdadlarımızın yaş tarixini müəyyənləşdirir.Əslində bu eksponatlar Ağdamın qədim tarixini elmi-tarixi cəhətdən mənbələşdirir,burada məskunlaşmanın ta qədimdən mövcud olduğunu əsas dəlillərlə sübut edir.Ağdam rayonun əksər kəndlərində Quzanlı,Xındırıstan,Göytəpə,(kurqan qədim türklərdə "təpə" deməkdir.) Boyəhmədli,Xaçındərbənd və digər onlarla kəndlərində müxtəlif ölçülü kurqanlar(təpələr) vardır. Çox təəssüflər olsun ki,erməni vandalları işğalda qalmış ərazilərdə olan digər kurqanları dağıtmış orada olan milli miraslarımızı talan etmişdilər.Bunu Azıx mağarasının timsalında görmək olur.***

" Ağdam" məfhumu dilimizdə olan qədim tanrıçılıq (teonim) sözlərdən yaranmışdır.Ağdamın adı da qədim tarixi-mifoloji eksponatlar kimi, dilimizin qədim söz mənbələrindəndir.

"Ağ" qədim oğuz türkcəsində "od,ocaq" və "günəş" mənasında işlənmişdir. Qədim Oğuzlar da bütün ibtidai insanlar kimi təbiət qüvvəsi olan "günəşə" və onun yerdə təcəssümü olan "oda, ocağa" sitayiş etmişlər.

***Bu gün dilimizdə işlənən ifadələrə nəzər salaq.Məs: "ağa" sözü böyüklük bildirir.Bu məfhum tanrıya məxsus olmuşdur."Ağ günə çıxmaq"-xoşbəxtlik rəmzi olmuşdur."Gözünə ağ salmaq" ,"Gözlərinə ağ gəlsin" ifadələrində "ağ" burada "od" mənasında işlənmişdir."Üzə ağ olmaq" ifadəsi özündən böyüyə hörmətsizlik etmək mənasını bildirir.***

## *"Dan yeri ağarır"*

ifadəsi daha qədimə gedib çıxır."Dan" sözü əslində "tan"-sözü olub, türk tanrıçılığının özəyi olan "od,günəş tanrısı"nın adıdır.Bəzən bu ifadənin sinonimi olan"Dan yeri qızarır" ifadəsi də işlənilir. Əslində günəşin doğduğu yeri biz "qızarır" kimi qəbul edirik.

Lakin "ağ" sözünün qırmızı mənasında işlənməsi daha qədim olmuş,sonralar arxaikləşərək lüğətimizdən çıxmışdır. Dilimizdə olan "ağ rəng" də, "od"un müqəddəsliyindən,saflığından, təmizliyindən yaranmışdır."Qırmızı rəng" də "Qor" allahının adından, daha doğrusu "od"un rəngindən (qor-qır eyni kökdəndir) götürülmüşdür. "Ağ"-ın "Qor" ilə əvəz olunmasında çoxtanrıçılığın rolu olmuşdur.Güclü tayfalar öz tanrılarını zəbt etdikləri yeni ərazilərin əhalisi arasında qəbul etdirirdilər.Bir çox türkköklü xalqların "Qor tanrısı"ndan əvvəl "Ağ (od) tanrısı"na inamları olmuşdur.İnsanlarda yeni tanrılara inam, özündən əvvəlki tanrıları unutdursa da, tanrısal (teonimlər) sözlər xalqın mirası kimi dilində bu günümüzə gəlib çıxmışdır.

Bu gün rus dilində işlənən "oqonğ","oqonek" sözləri də "ağ" sözündəndir, Hətta hindlilər də "od allahı"na-"Aqni" deyirlər.

"Ağ" rəngin müqəddəsliyi, tanrıya məxsus olması qədim çinlilər üçün də başlıca inanc olmuşdur.

***Azərbaycanın mifoloji tədqiqatçı alimi Mirəli Seyidov "Azərbaycan xalqının soykökünü düşünərkən" əsərində "ağ" rəngi tədqiq edərkən o, qədim türk dilinin lüğətinə istinad edərək "aq,ağ"-ın rəng anlamından başqa əski türk dilində "yüksəklik","yüksəlmək","ucalmaq" anlamı olmasını qeyd etmişdir. O, "ağ"-ın günəşlə,göylə,işıqla,şüa ilə bağlılığını göstərmişdir.***

Əslində müəllifin qeyd etdiyi "ucalıq" və "günəş" qədimdə tanrıçılığın əsas elementləri sayılmışdır.

Ağdamın ta qədimdən müqəddəs bir yer olduğu deyilir.Məhz ərəb dilində "müqəddəs" sözünün kökü "müqəd"-"ocaq" deməkdir.Bu isə islamın gəbulu vaxtı yerli xalqın "atəşpərəst"liyə inamından xəbər verir."Muğ,muğan"(atəşpərəst) məfhumu da eyni kökdəndir.

Ağdam sözünün ikinci hecası olan "dam" sözünü araşdıraq."Dam" ibtidai insanların yaşayış evləri olmuşdur.Qədim Oğuz sözüdür.Bu sözə həm rus dilində "dom" şəklində, həm də latın dilində "domus" kimi rast gəlinir.Bu məfhum ulu dilə aid sözlərdəndir."Dam" sözü türklərdə "ta-tanrı",(dilçilikdə t-d yerdəyişməsi) latınlarda isə "Dei" günəş tanrısının adlarından qaynaqlanmışdır.

## *Araşdırmalardan bu nəticəyə gəlmək olur ki,*

qədim türkköklü xalqların tanrıçılıq inanclarından olan "od"a, "günəş"ə inamı demək olar ki, onların özləri ilə yaşdaşdır.Bunu həm arxeoloji eksponatlar, həm də qədim tarixi yer adlarının bu günümüzə gəlib çıxması sübut edir.Bu yer adlarından biri də məhz Ağdam adıdır.Ağdam bütövlükdə qədim türk dilində "Ocaq evi","Od evi","Od məbədi","Atəşgah" mənasını bildirir.

***Ağdam rayonuna qonşu olan qədim Ağdərə,Ağcabədi rayonlarının adlarında olan "ağ" sözü eyni ərazilərin odla bağlılığını bir daha sübut edir.Ağdam rayonun digər qonşusu olan indiki Füzuli rayonunun da qədim adı "Qaralar" olmuşdur.Bu ad da "od tanrısı olan " olan "Qor tanrı"sının adındandır.***

Erməni vandalları Ağdama "Akna" adı qoymuşdular.Elə "ak" sözü qədim oğuz dilində olan "ağ" (od) sözündən deyilmi?

Ağdamın adı əsla 1828 -ci ildə əsası qoyulan Pənahəli xanın sülaləsinin İmarətdəki türbələrinin "ağ dam"ı məfhumundan deyildir.Ağdam qədimdən qədim,tanrıçılığın müqəddəs bir " ocaq " yerinin adıdır.

Biz bütün xalqımızın bu ocağa etdiyi duaların çin olacağına öz varlığımız qədər inanırdıq. "Ocaq heç vaxt murdarı götürməz!" atalar sözləri həmişə olduğu kimi öz yerini aldı.Xalqımız öz varlığı qədər inanır ki, tez bir zamanda Hörmətli Prezidentimiz İlham Əliyev Cənablarının rəhbərliyi ilə ermənilərin viran qoyduğu müqəddəs şəhər və kəndlərimiz ən müasir şəkildə abad olunacaq və oranın əhalisinin tezliklə Böyük Qayıdışı başlayacaqdır.

**Məqaləni optimist ruhla bitirmək istərdim. Bakıda "Kitabi-Dədə Qorqud" abidəsinin açılışı mərasimində hörmətli Prezidentimiz cənab İlham Əliyev çıxışında qeyd etmişdir ki, "Bu abidə bütün türk dünyasını birləşdirəcək və XXI əsr türk dünyasının əsri olacaqdır".**

Müəllim danışır

# "Öyrənməyin və öyrətməyin sərhədi yoxdur"

***Rubrikamızın qonağı "Baku-Oxford" məktəbinin kimya müəllimi, Gənc Müəllimlər Assosasiyasının sədri Rüfət Əsədzadədir.***

**-Rüfət, Gənc Müəllimlər Assosasiyasının sədri seçilmisiniz. Assosasiyanın planları nədir? Hansı fəaliyyətləri ilə seçiləcəklər?**

-Müəllim cəmiyyətin həyatında müstəsna rol oynayır. Ulu öndər H.Əliyevin dediyi kimi: "Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik".

Bu böyük bir etimaddır. Ölkə üzrə 40 minə yaxın gənc müəllim var. Biz gənc müəllimlərə dəstək olmaq və ehtiyaclarına uyğun olaraq onların peşəkar inkişafı istiqmətində öz işimizi qururuq. Fəaliyyət istiqmətimizdə gənc müəllimlər və tələbələr əsas yer tutur.

Effektiv inkubasiya sistemi yaratmaqla tələbəlikdən etibarən gənclərin ehtiyac olunan istiqmətdə kadr kimi hazırlanması əsas məsələlərdən biridir.

Müəllimlik məsuliyyətli peşədir, çünki müəllim insanın təlim və tərbiyəsi ilə məşğul olur, şüurunu formalaşdırır və bu işdə səhvə yol vermək olmaz.

**- Hansı ehtiyac bu Assosasiyanın yaranmasına səbəb oldu?**

-Son illər müəllimlərin peşəkarlığı tez-tez gündəmə gətirilir. Peşəkarlıqla səriştəliliyin müəllimdə cəmləşməsi onun pedaqoji ustalığının əsas əlamətləri kimi qeyd olunur.

Təsadüfi deyil ki, 2013-cü ildə qəbul edilən, 2020-ciilədək uzun bir dövrü nəzərdə tutan Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında da bu məsələ dəfələrlə vurğulanıb və buna böyük əhəmiyyət verilir. Strategiyada deyilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müstəqilliyimizin və dövlətimizin mühim şərtlərindən biri də mükəmməl təhsil sisteminə malik olmaqdır. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Bu nəticələri əldə etmək üçün gənc müəllimlərin bir araya toplanması və vahid idarəetmə tətbiq edilməsi bu ehtiyacı labüd etdi.

## *Qarşılıqlı təcrübə mübadiləsi aparmaları üçün fəaliyyətlər planlamışıq*

**-Bildiyim qədər 35 yaşa kimi olan müəllimləri əhatə edəcək. Bu fəaliyyətdən digər müəllimlər yararlana bilməyəcək? Hər nə qədər desək də, müasir texnologiyalar əsrində qarşılıqlı təcrübə mübadiləsi bəlkə də daha yaxşı olar.**

-Birliyə üzv olmaq üçün yaş limiti var. Belə ki, Azərbyacan Respublikasında 16-35 yaşlı hər bir müəllim, təhsil işçisi və pedaqoji ixtisaslı gənc Birliyin üzvü ola bilər. Lakin biz digər müəllimlərində inkşafı və təhsilə töhvə verməleri üçün müəyyən layihələrin icra edilməsini planlayırıq. Eyni zamanda 35 yaşdan sonra təhsilə böyük töhfələr vermiş pedaqoji işçilər Birliyin fəxri üzvləri seçilə bilərlər. Mütləqdir ki, gənc müəllimlər təcrübəli və peşəkar müəllimlərin təcrübələrindən yararlansınlar. Bunun üçündə biz növbəti tədris ilindən etibarən müəllimlərin qarşılıqlı təcrübə mübadiləsi aparmaları üçün müəyyən fəaliyyətlər planlamışıq.

Bugün valideynlər övladları üçün məktəb axtararkən soruşurlar ki, hansı məktəb daha yaxşıdır? Məktəbi qiymətləndirmək üçün isə ən əsas meyar müəllimdir. O zaman sual yaranır. "Yaxşı müəllim necə olmalıdır?".

Yaxşı müəllim xeyirxah yaşlı qadın da ola bilər,dinamik və yeni universitet məzunu bir şəxs də. Amma hər ikisi səriştəli, sağlam düşüncəli və şagirdə bilik vermə qabiliyyətinə malik olmalıdır.

**-Yenilikləri sürətli mənimsəmədən dünya təhsil sisteminə inteqrasiyadan uzaq düşürsən. Müasir dünya təhsil sistemi bunu tələb edir.**

-İndiki gənclərin dünyaya baxışı fərqlidir. Artıq gənclər təhsilin mahiyyətini başa düşürlər, nə istədiklərini anlayırlar.



Bugün əmək bazarında müasir və innovativ biliklər nəzərə alınır və tələb olunur. Azərbaycan gənclərinin şəxsi ambisiyaları var. Hazırki təhsil də bunu qarşılamalıdır. Bu zəruriyəti nəzərə alaraq müasir və praktiki tədris imkanları yaradılmalıdır.

Bir reallıq vardır ki, təhsil prosesi praktikadan kənar olmamalıdır. Qloballaşan dünyada müasir elm sürətlə inkişaf edir, bunun üçün də dərsliklərin hazırlanması və mənimsənilməsi uzun zaman alır. Bunun həll yolu olaraq müəllim və tələbələr tədris prosesinin özündə birbaşa iştirak etməlidir. Çünki, bilik və praktikanın vəhdəti uğurlu nəticələr əldə etməyə imkan yaradır. Çağdaş dövrün tələbatını ödəməklə bugün yetişən potensiallı gənc müəllimlər Azərbaycan təhsili üçün böyük töhvələr verəcəklər.

**-"Baku-Oxford" məktəbində çalışırsınız. Bu məktəbin digər dövlət məktəblərindən, eyni zamanda özəl məktəblərdən fərqli özəllikləri nədən ibarətdir?**

-Bəli, mən kimya və təbiət fənlərini tədris edirəm. Öyrənməyin və öyrətməyin sərhəddi yoxdur. İlk öncə müəllimin həvəsi və özünün öyrətmək təşəbbüsü olmalıdır. Təbii ki, maddi texniki baza təhsilin keyfiyyətinə təsir edir və öyrənənin mənimsəməsini asanlaşdırır. Baku-Oksford məktəbinin üstünlüyü şagirdin inkişafına kompleks yanaşmanı tətbiq etməsindədir. Dəstəkləyici mühitə malikdir. Təklif edilən bütün təşəbbüslər məktəb rəhbərliyi tərəfindən dəstəklənir. Mən digər məktəblərdə də bunu görmək istərdim. Müəllim məktəbi özününkü hiss etməlidir. O zaman orada uğur və inkişaf özünü qısa zamanda büruzə verəcəkdir.

## *Müəllimə olan sevgi böyük bir motivasiyadır*

**- Kimya fənnini ingilis dilində tədris etmək. Bir fənni öz doğma dilində belə tədris etmək çətinliklər yaratdığı halda, ingilis dilində tədris etmək sizə hər hansı çətinliklər yaratmır?**

-Əvvəl kimyanın tədrisi ilə bağlı bəzi məqamları bölüşüm. Bu proses şagirdin müəllimə olan sevgisi ilə sıx bağlıdır. Kimyanı təcrübəsiz maraqlı etmək çox çətindir. Dəqiq elmdir.

Birbaşa biliklərə əsaslanır. Mütləqdir ki, müəllim şagirddə özünə qarşı sevgi yaratsın. Fənn çətin ola bilər, bunun öhdəsindən gəlmək üçün isə müəllimə qarşı olan sevgi böyük bir motivasiyadır.

Bu isə müəllimin aktyorluq bacarğı və peşəkarlığı ilə əlaqəlidir. Fənni xarici dildə tədris etmək daha sadədir. Material və resurs olaraq daha əlçatandır. Təbii ki, burada dilə hakim olmaq mütləqdir.

**-Özün də Biləsuvar məktəbinin yetirməsisiniz. Yəni region məktəbində oxumusunuz. Hazırda gəldiyin region məktəbləri ilə müasir, özəl şəhər məktəbləri arasındakı fərqlər çoxdur?**

-Biləsuvar liseyi mənim həyatımda dönüş nöqtəsi yaradıb. Oradakı yanaşma və planlama mənim bugün formalaşmağımda mühim rol oynayıb. Region gənclərinin imkanları limitlidir. Mən rayonda oxuduğum dövrdə özümü inkişaf etdirmək üçün geniş imkanlarım yox idi. Lakin müasir məktəblər şagirdlərə geniş imkanlar tətbiq edir. Onlar kompleks fərdi inkişaf yanaşması nümayiş etdirir.

**-Təbii ki, belə məktəblərdə təhsil almaq hər vətəndaşın cibinə görə deyil. Amma dövlət məktəblərində də bu cür infrastruktur qurmaq, həmin vətəndaşların övladlarının yararlanmasına imkan yaratmaq mümkündür. Hətta daha artıq. Bunun üçün nələr etmək lazımdır?**

-Təbii ki, yeni tikilən məktəblər və komplekslər zəruri avadanlıqlarla təmin olunur. Burada əsas olan həmin resurslardan məqsədyönlü istifadə etməkdir. Region məktəblərində bəzi sıxıntılar var. Burada müəllimlərimizin dəstəyə ehtiyacı var, onları motivasiya etməkdə məktəb rəhbərliyinin üzərinə böyük vəzifə düşür. Biz inanırıq ki, zamanla o məktəblərdə zəruri ehtiyaclarla təmin olunacaqlar.

## *Dərsi maraqlı etmək üçün müəllimin nitq bacarığı və özünü ifadə etməsi yüksək səviyyədə olmalıdır*

**-Savadlı müəllimlərimiz olsa da, bəzən onların özünü təqdimatda, səmimi mühit yarada bilməsində problem yaşadığını görürük. Bunları həll etməyin yolu nədir?**

-Hər müəllim bir aktyordur və ya olmalıdır, hər birimizin müxtəlif obrazları var.

Kimya müəlliminin özünə görə, tarix müəlliminin daha fərqli, riyaziyyat müəlliminin isə özünə məxsus obrazı var. Dərsi maraqlı etmək üçün müəllimin nitq bacarığı və özünü ifadə etməsi mütləq şəkildə yüksək səviyyədə olmalıdır.

Eyni zamanda düzgün müəllim şagird münasibətlərinin qurulması vacibdir. Biz qeyd olunmuş ehtiyaclara uyğun təlim paketləri hazırlayırıq və növbəti tədris ilində üzvlərimizin istifadə edə bilməsi üçün onlarla bölüşəcəyik.

**Söhbətləşdi:**
**Emin Piri**

## *“Göyçə - itirilmiş Vətən” adlı sənədli film hazırlanıb*



*Göyçə mahalı haqqında yeni sənədli film hazırlanıb.*

*"Göyçə - itirilmiş Vətən" adlanan film "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi tərəfindən Gənclər və İdman Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib. Filmdə Göyçə mahalının tarixindən, onun Azərbaycan xalqı üçün nə dərəcədə önəmli, müqəddəs məkan olmasından söhbət açılır. Bu bölgənin mədəniyyətimizə, tariximizə bəxş etdiyi dəyərlər xüsusi vurğulanır. Göyçənin oğuz-aşıq sənəti filmdə xüsusi bir xətt kimi keçir. Film boyu səslənən aşıq musiqiləri də ekran əsərinə daha artıq rəng qatır. Filmdə ermənilərin Göyçə mahalına köçürülməsi siyasəti, ermənilərin orada yerləşəndən sonra əraziyə olan iddiaları haqqında ətraflı məlumat verilir.*

## *Müsabiqə davam edir*

***Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti Azərbaycan-Amerika Musiqi Fondu ilə birgə 15 Yanvar, 2021 il tarixində Üzeyir Hacıbəyli adına Beynəlxalq bəstəkarlar müsabiqəsi elan edir. Bu müsabiqənin məqsədi dahi bəstəkarın əsərlərini plagiatdan qorumaq, dünyada Üzeyir Hacıbəyli musiqisini və Azərbaycan mədəniyyətini təbliğ etməkdir. Hacıbəylinin əsərlərindən seçilmiş on melodiyanın biri və ya bir neçəsinin əsasında bəstəkarlar orijinal əsər yazmalı və adlıqda mənbəni vurğulamalıdırlar. Müsabiqənin mükafat fondu 3,500 dollardır, həmçinin qaliblərin əsərləri ABŞ-da nəşr olunacaq və Nyu Yorkun məşhur Linkoln mərkəzində ifa olunacaq. Sənədlərin, əsərin çap olunmuş elektron variantının və əsərin səs yazısının qəbulu 1 İyul, 2021 tarixinə qədər olacaq.***

***Müsabiqənin bütün şərtləri, həmçinin audio və pdf fayllarının yüklənməsi üçün pəncərələr bizim veb səhifəmizdə yerləşir.***

***MEHRİBAN***

# TƏMİZ ÜRƏK POEZİYASI



Vaqif İsaqoğu

**Adil Cəmilin sözündən yox, özündən yazmaq istəyirəm. İstəyirəm ki, sözündə özü, özündə sözü görünən şairin "Anama layla" şeirlər toplusundan bir neçə kəlmə söz deyəm. Deyə biləcəyəmmi? Bilmirəm. Ancaq onu bilirəm ki, şairin şeirləri bir oxucu kimi həmişə məni özünə çəkib və bu dərin, məzmunlu, fəlsəfi məna çalarları ilə zəngin olan şeirlər haqqında hər zaman söz demək istəyində olmuşam. Ruhunu sözə hopdurub sözə ruh verən, nəfəs verən, ədəbiyyatın ədəbi dünyasında öz imzasını təsdiqləyən şairin hər şeiri, hər sözü onun iç dünyasının ətridir. Bu "ətiri" qoxulayan hər kəs Adil dünyası ilə tanış olmaq şərəfinə yiyələnir. Onun dünyası sanki ilahi nurdan yaranıb.**

Məhz ona görədir ki, şeirləri də nura bələnib və bu şeirlərin işığında ziyarətə getmək olar. Çünki Adilin ürəyindən və ruhundan süzülən şeirlərin mayasında halallıq var, təmizlik var, saflıq var. Bu halallıq, saflıq və təmizlik "Anama layla" (Bakı, 2020) şeirlər toplusunda özünü bir daha açıq şəkildə büruzə verir. Kitabı oxuduqca həm kövrəlir, həm həyacanlanır, həm hiss edirsən ki, şairin hər şeiri qiyməti olmayan Tanrı payıdır. Adamın iç dünyasını silkələyən bu şeirləri, ancaq Tanrı pıçıldaya bilər; bu şeirləri həyacanla oxuyan hər bir adam istər-istəməz düşünər ki, Adil Cəmil bu dünyaya yazıb-yaratmaq üçün gəlib. Və o, bu dünyada ona Tanrı tərəfindən verilən şairlik missiyasını ləyaqətlə, vicdanla yerinə yetirir. Çünki şairin misralarında təsadüfi bir sözə də rast gəlmək mümkün deyil. Hər sözü ürəyində "bişirib" şeirə gətirən Adil Cəmilin şeirləri musiqi olmağa can atır, şeirlərindən şair ömrünün ətri gəlir. O dünyanı şeir ətrinə bələməyə çalışan az-az şairlərdən biridir. Az-az şairlərdən biridir ki, şeirləri ölümsüzdü, Tanrı da ölümsüzdü. Yer üzünün bütün canlılarını ölümə məhkum eləyən Tanrı əsl şeirləri ölümsüz eləyib. Bəli, ölümsüz şeirlər yazan şair də ölümsüzdü. Şairin ömrü şeirlərinin ömrü ilə ölçülür. Deməli, Adil Cəmil kimi şairlər də ölmürlər, öləndən sonra şeirlərində yaşayırlar. Ona görə ki, şairin ruhu sağlığında ikən şeirlərinə hopub. Ruh da ölməzdir. Deməli ruhun hopduğu şeirlər də ölməzdir. Bəli, Adilin poeziyası onu qiyamətə qədər yaşadacaq. Gəlin "Səni düşünərkən" şeirindən bu misralara nəzər salaq:

*Görünür unutmaq deyilmiş asan,*
*O sevgi içimdə yanır gizlicə.*
*Sən mənim ruhuma yad olmamısan,*
*Mən səni yadımdan çıxarım necə?*

Ölüm gələndə bu misraları oxuyub rahatlıqla fani dünyadan köçmək olar. Ağır və üzücü iş günündən sonra bu misraları oxuyub dincəlmək olar.

"Anama layla"da dərdin Xaqani zirvəsini də gördüm. Şairin içindəki iman evinin minarələrinin kədərdən, dərddən boy verdiyini də gördüm. Vətən dərdi, ana dərdi, oğul dərdi Adil Cəmil poeziyasının ədəbiyyat və əbədiyyət tarixinə yazılan ən kövrək duyğulardı. Bu duyğularda milli yanğı var, bu günə və gələcəyə söykənmiş düşüncə var, ana həsrəti, yurd həsrəti, oğul həsrəti var. Onun ürəyində dünyanın hər dərdi var. Çünki ürəyi işıqlı və istidir. Və bir də hər ürəyə dərd düşmür. Ürək var ki, dərd düşür, amma boy atmır, böyümür. Soyuq ürəkdə, yanmayan ürəkdə dərdin nə işi var?

Bu dərd onun şeirlərində də boy göstərir.

***Hicran məni dara çəkir,***
***Sən yatan məzara çəkir.***
***Ey dərdimə yanan, lay-lay,***
***Anam lay-lay, anam lay-lay.***

İlahi! Bu misraların zəlzələ gücünə bax! Adamın iç dünyasını silkələyir. İlahi! Məgər ana balasına laylay deməzmi? Amma ilk dəfə şahidi oluram ki, bala anasına laylay deyir. Ana haqqında minlərlə şeir yazılıb, amma beləsinə rast gəlməməmişəm, çünki Adil kimi anaya belə təsirli şeir yazan olmayıb. Bəlkə də olub. Mən bilmirəm.

Bu misralar isə şairin yurd həsrətindən "doğulub".

*Bu həsrət kimindir, o torpaq kimin?*
*Qəmin qəməsiylə qəlbim qan olub.*
*Gündoğan tərəfə baxan kəndimin*
*Qibləsi dəyişib günbatan olub.*

Və yaxud bu ağrılı misraları oxuyaq:

*Nə olum təzədir, nə ölüm təzə,*
*Məzar nöqtəsidir gedilən yolun.*
*Ay ata, ay ana, qurbanam sizə*
*Nakam nəvənizdən muğayat olun*



"Ay oğul atası, oğulsan tabla" şeirini ürək ağrısıyla oxuya-oxuya klassik şairimiz Xaqani Şirvanini düşündüm. O böyük şair də oğul itirmişdi və bu böyük itgi onun da ata ürəyinə dağ çəkmişdi. Aradan 850 ildən çox vaxt keçib. Əfsələddin Xaqaninin dünyadan nakam getmiş oğluna yazdığı "mərsiyyə""lər bu gün də ürəyimizi göynədir, canımızı ağrıdır.

Yüz illər keçəcək. Adil Cəmilin də şeirləri sevilə-sevilə oxunacaq və onun da oğluna yazmış olduğu ağrılı misralar ürəklərdə qubar bağlayacaq.

***Neyləmək olar. Dünyada hamı öləcək, hamı kəfən-donu geyinəcək və Məşhər meydanında sorğu-suala çəkiləcək. Şairlər isə sorğu-suala çəkilməzlər, çünki bütün sualların cavabları onların yazmış olduğu şeirlərdədir. Bu mənada Adil Cəmilin şeirlərində də istənilən suala cavab tapmaq mümkündür. Şairin şeirlərində həyat nədir, dünya nədir, ölüm nədir, dərd nədir, sevgi nədir, həsrət nədir və bu kimi yüzlərlə suala cavab tapmaq mümkündür.***

Hissləri, duyğuları, fikir və düşüncələri şeirlərinə ilmələr kimi hörülən Adil Cəmilin sözü haqqında yazmaq, elə özü haqqında yazmaq deməkdir. Özü sözünü, sözü özünü tamamlayan, şəxsiyyətilə yaradıcılığı üst-üstə düşən, kədəri dişilə sıxıb yaşayan, sözünün qiymətinə söz olmayan Adil Cəmil yaxşı adam olduğuna görə yaxşı şairdi. Pis adam olub yaxşı şair olmaq çətindir, çox çətindir.

Adil Cəmili əvvəlcə özünə görə tanımışam. Tanımışam ki, o, işıqlı adamdır, ürək adamıdır, ruh adamıdır, damarlarında türk qanı axan türk oğlu türkdür, ürəyi Vətən eşqi ilə çırpınan Azərbaycan ziyalısıdır, Azərbaycan alimidir, tanınmış tədqiqatçıdır, folklorşunasdır. Bunlardan öncə isə vətəndaş-şairdir. Və bir ziyalı kimi hamını işığına çağırır, işığıyla çağırır. Onun işığına gələnlər çoxdur, lap çoxdur. Adilin işığına üz tutub gələnlər onun özünü tanıyandan sonra sözünü tanıyıblar. Onun söhbəti də, hərəkəti də şeir qədər mənalıdır. O sözlə ürəkləri ovsunlaya bilir. "Anama layla"nı oxuyub mən də ovsunlandım və bir daha əmin oldum ki, sözün ovsunundan güclü ovsun yoxdur.

Məsələn, "Sevdim" şeirindəki bu misralar adamı necə ovsunlamaya bilər?

*Fərqlidir ağayla qulun yazısı,*
*Bu-mənim getdiyim yolun yazısı.*
*Səndən hara qaçım, alın yazısı,*
*Dərd məni sevdikcə mən dərdi sevdim.*

Mən xalqın ruhunun kökləndiyi simi Adilin şeirlərində də gördüm. Mən həm də ürəyi qəm dolu şairin haqqın işığını özündə və sözündə daşıdığını da hiss elədim.

Onu da hiss elədim ki, Adil Cəmil eşq və səmimiyyət adamıdır, yazdığı şeirlərdə yaşayacaq şairdir.

Sözün işığında şərəfli bir ömür yaşayan Adil Cəmilin lirik-fəlsəfi şeirləri insanı həm düşündürür, həm bilgiləndirir, həm də ruhumuza sığal çəkir, könlümüzü oxşayır. Ruha sığal çəkən bu şeirlərdə sevincin, kədərin, qəmin, dərdin ətrini, qoxusunu duyursan və bu səpkidən olan "Belə doğulmuşam" şeirini də həyacansız oxumaq mümkün deyil:

***Mənim göylərimdə pozulub qatar,***
***Tək qalan durnanın səsi tez batar.***
***Deyirəm göyərib qol-budaq atar-***
***Qorxuram torpağa əkim dərdimi.***

Şair məhəbbət təranələrinin birində yazır:

***Səni unudaram sağalsa yaram,***
***Nə yaxşı mən belə yaralı yaram.***
***Vallah bir çəmənlik çiçək bağlaram,***
***Əllərin içində gül yeri qoysan.***

Şairin sevgi şeirləri zənginliyi və rəngarəngliyi ilə seçilir ki, bu da onun hisslərinin saflığından, təmizliyindən irəli gəlir. Sevən qəlbin sevincini, kədərini, qəmini şair elə məharətlə qələmə alır ki, sevincin də, kədərin də rəngini görə bilirik.

Bu misralarda sevgidən doğan qəmi, kədəri, ayrılığı, həsrəti şair elə ifadə eləyib ki, heyrətlənməyə bilmirsən:

***Sinəsində yeridiyin***
***Yamac oldum - sən görmədin.***
***Yollarına kölgə salan***
***Ağac oldum - sən görmədin.***

Və yaxud:

*Vaxt keçib-varımla yoxum dəyişib,*
*Elə düşünmə ki, ruhum dəyişib.*
*And olsun Allaha yuxum dəyişib*
*Sən mənim yuxumdan qaçandan bəri.*

Bu misralarda sevən aşiqin duyğuları, həsrət yanğıları o qədər təsirli ifadə olunub ki, sanki şeir yox, Adil Cəmilin ürəyini oxuyursan.

Şairin özündən və sözündən, onun saflıqdan yoğrulan poeziyasından ətraflı yazmaq, "Anama layla" şeirlər toplusu haqqında daha geniş söhbət açmaq olardı. Amma təəssüf ki, bir qəzet səhifəsində bundan artıq söz demək imkanında deyiləm.

**Və ən nəhayət, demək istəyirəm ki, qoy bu yazı bir dost payı kimi Adil Cəmilin "Anama layla" kitabına şirinlik olsun.**

## COVID-19-un yayılmasını azaldan vasitələr



***"The Economic Times" qəzetinin yazdığına görə, 2020-ci ilin may ayında başlayan klinik sınaqda Sinqapurdan 3000-dən çox miqrant işçi iştirak edib.***

***6 həftəlik dövrdə karantində saxlanılan işçilərə "Povidone" boğaz spreyi və "Hidroksixlorokin" dərmanı verilib.***

***Klinik tədqiqatlarda iştirak edən 21-60 yaş arasındakı 337 nəfərin yarısından çoxunun 6 həftənin sonunda virusa yoluxduğu bildirilib.***

***Boğaz spreyi istifadə edənlərin virusa yoluxma səviyyəsi 46%, "Hidroksixlorokin" istifadə edənlərin isə 49% olduğu ortaya çıxıb.***

***Malyariyanın müalicəsində istifadə olunan bu dərmanların yüksək ötürücü mühitlərdə koronavirusun yayılma sürətini azaltdığı qeyd olunub. Alimlər "Povidone" spreyinin çirklənmə riskini 24%, "Hidroksixlorokin"in isə 21% azaltdığını açıqlayıb. Araşdırmanın "Profilaktik müalicənin COVID-19-un yayılmasının azaldılmasında təsirli olduğunu göstərən ilk iş" olduğu qeyd edilib. Mütəxəssislər bu növ profilaktik müalicənin gəmi, həbsxanalar və qaçqın düşərgələri kimi virusun yayılma riskinin yüksək olduğu yerlərdə istifadə edilə biləcəyini vurğulayıb.***

**MEHRİBAN**

## Dil sevgisi - ana dilinin şirinliyi



***Nəzərə alsaq ki, uşaqlar zəmanənin övladları kimi elmi-texniki tərəqqinin həyatımıza, məişətimizə gətirdiyi telefondan, planşetdən geniş istifadə edirlər, həmin telefon və planşetlərdə uşaqların dil və ədəbiyyat zövqünü formalaşdıracaq materiallar çox azdır, onda narahatlıq üçün əsas tapılır. Bu məsələnin aktuallığını nəzərə alıb təcrübəli filoloq, Ə. Vahid adına Masazır kənd 1 nömrəli tam orta məktəbin Azərbaycan dili-ədəbiyyat müəllimi Günay Məmmədəliyeva ilə növzunu müzakirə etdik. Günay müəllimin dediyinə görə, şagirdlərdə dil və mütaliə zövqünün formalaşmasında həmin amilin rolu böyükdür.***

- Həqiqətən də qeyd etdiyiniz kimi, vaxtilə uşaqların dil və ədəbiyyat zövqünün formalaşmasında şeirlərin, bədii mətnlərin, uşaq yaşlarda valideynlərin, baba-nənələrin danışdığı nağılların, oxuduqları hekayələrin rolu əvəzsiz idi. İndi elektron resurslarında bu qəbildən olan materialların olmasına ehtiyac böyükdür. Yaş fərqi nəzərə alınmaqla təbiətə, ataya, anaya, heyvanlara, vətənə sevgi hisslərini yaradan ədəbi-bədii materialların elektron resurslarında özünə yer alması uşaqlarda dil və ədəbiyyat zövqünün formalaşmasına yardım edir.

**- Bəzi müəllimlər ana dili dərsliklərində çoxsaylı dəyişikliklərin edilməsinin də, şagirdlərin fənni mənimsəməsinə mane olduğunu deyirlər.**

- Bəzi məqamlarla razılaşsam da tam olaraq bu fikri təsdiqləyə bilmərəm. Çünki, qrammatikadan dəyişikliklər çağdaş dövrün tələblərinə görə yaranır. Yeni dil vahidlərinin, yeni şəkilçi morfenlərin dilə daxil olması normal haldır. Bəzi sözlər var ki, onlar şəkilçi ilə bilrlikdə dilə daxil olub. Həmin sözlərin, şəkilçilərin araşdırılmasına ehtiyac var. Dil vahidi nitqə uyğun və başa düşülən olmalı, nitqə ağırlıq yaratmamalıdır. Bugünkü qrammatikanın normativliyindən daha çox, funksionalliğına diqqət yetirilir. Bunu orta məktəb dərsliklərinə nəzər salarkən aydın görə bilərik. Şagirdə öyrədiləcək olan qayda mətn və çalışmalar üzərində müvafiq tapşırıqları icra etməklə öyrədilir. Şagird "tərif "ləri praktik şəkildə öyrənilir. Bu zaman şagirdin həm dünyagörüşü, həm də söz ehtiyatı artır.

**- Sadalanan problemlərin həllində dil-ədəbiyyat müəllimlərinin məsuliyyət yükünü necə təsəvvür edirsiniz?**

- Dil, ədəbiyyat müəllimləri dilə, ədəbiyyata sevgini aşılamaqla tariximizə, mədəniyyətimizə, dinimizə, milli dəyərlərimizə bağlılığı və məhəbbəti gücləndirməli, uşaqlara, gənc nəslə lazım olan mütaliə marağı aşılamalıdırlar.

**- İlk uğur qazanan şagirdiniz kim olub?**

- Pedaqoji fəaliyyətimdə Əzizə Rüstəmzadə fənn olimpiadasında iştirak edən ilk şagirdimdir. O rayon turuna uğurla keçmişdi. Ümumiyyətlə, məktəbimizin uğuru az deyil. Abşeron Rayon Təhsil Şöbəsi səviyyəsində də kifayət qədər dəstək hiss edirik. Şöbənin müdiri Nazilə xanım Məmmədova, Metodkabinetin direktoru, Pedoqogika üzrə fəlsəfə doktoru, Qabaqcıl təhsil işçisi, Elmira xanım İsmayılova və metodist Nuranə xanım Vəliyeva müəllimlərə hər zamam diqqət göstərir, əməyimizi qiymətləndirir, öz dəyərli tövsiyələri ilə hər zaman bizə dəstək olurlar. RTŞ-nınmüdiri Nazilə xanımın gərgin əməyi sayəsində əldə olunan nailiyyətlər göz önündədir və pedaqoqları daha səmərəli işləməyə ruhlandırır. Məhz buna görə də RTŞ-nın müdiri Nazilə xanım başda olmaqla, kollektivin bütün işçilərinə və məktəbimizin direktoru Etibar müəllimə minnətdarıq.

Biz müəllimlər də çalışrıq ki, onların etimadını savadlı şagirdlər yetişdirməklə doğruldaq.

**Hüsniyyə Əlizadə**

## Xatirəmdə və yaddaşımda yaşatdıqlarım



*Məhəmmədəli Mustafa*
*filologiya elmləri doktoru, professor*

**Keçdiyim həyat yoluna dönüb baxanda yadıma salacağım, xatırlayacağım çox şey var. Tale qismət eləsə və tanrı lütfkarlıq göstə-rib yaşamaq imkanı versə, keçdiyim həyat yolunu, tanıdığım insanların taleyimdə oynadığı rolu xatirələrim formatında qələmə almaq niyyətindəyəm. İnsan həyatı o qədər uzun olmamasına rəğmən iki şeyi yaddaşına yazır: həyatında iz buraxan bəsirət sahiblərinin yaxşılığını və münaqiflərin yamanlığını. Həmd olsun tanrıya, şükranlıq edirəm ki, həyat yolumda bəsirət sahibi olan insdanlara daha çox təsadüf etmişəm.**

İndi yadımda qalan bəzi insanları xatırlamaq, qədirşünaslıqla yada salmaq istəyirəm. Ilk yadıma düşən isə elmi rəhbərim akademik Kamal Talıbzadə, millət vəkili, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas, mərhum ədəbiyyat nəzəriyyəçisi Yaşar Qarayev, akademik Bəkir Nəbiyev, akademik İsa Həbibbəyli və akademik Nizami Cəfərovdur. Elmi fəaliyyətimdə Kamal Talıbzadəyə, mətbuatdakı nailiyyətimdə Aqil Abbasa borcluyam. "Ədalət" qəzetində işlədiyim 22 il müddətində Aqil Abbasdan mətbuat peşəkarlığı öyrəndim. Qatıldığım bir məclisdə Nizami Cəfərovun haqqımda dediyi xoş sözlərdən sonra Sumqayıt Dövlət Universitetinin sabiq rektoru Nadir Qəhrəmanov məni yarım ştat vahidi ilə (əsas iş yerim Elmlər Akademiyası olduğu üçün) universitetə işə götürdü. Elə o vaxtdan bu günə kimi 15 ilə yaxındır ki, universitetdə professor kimi fəaliyyət göstərirəm.

### Bu şəxsiyyətlərin

***adını təsadüfən xatırlatmadım. Həyatımın müxtəlif dövrlərində onlar bu və ya digər dərəcədə əlimdən tutub, yaxşılığın, təmənnasızlığın nə demək olduğunu yaddaşıma yazıblar. İndiyə qədər bir neçə ali məktəbdə, o cümlədən Lənkəran Dövlət Universitetində, Sumqayıt Dövlət Universitetində, Odlar Yurdu Universitetində, Azərbaycan Müəllimlər İnstitunun Sumqayıt və Quba filiallarında mühazirələr oxumuşam - harda fəaliiyyət göstərməyimdən asılı olmayaraq, həmişə işıqlı, humanist, xeyirxah və özüm üçün örnək qəbul etdiyim insanların lütfkarlığını tələbələrə, elmi rəhbəri olduğum doktorantlara artıqlaması ilə qaytarmağa çalışmışam.***

Adını qeyd etdiyim bu təhsil ocaqlarından ən çox yadımda qalanlardan biri də Lənkəran Dövlət Universitedir. 1991-ci ildən Bakı Dövlət Universitetinin filialı kimi fəaliyyət göstərən bu ali məktəb müəssisəsi sonralar müstəqil universitet oldu və Cənub bölgəsinin elm, təhsil bə mədəniyyət mərkəzinə çevrildi. Hacıbaba Əzimov, Mirzə Bağırov, Asəf İskəndərov kimi görkəmli alimlərin rəhbərlik etdiyi Lənkəran Dövlət Universiteti xüsusən son illərdə riyaziyyat elmləri doktoru, professor, indiyə qədər rektor əvəzi işləyən Natiq Ibrahimovun fəaliyyəti illərində öz nüfuzunu daha da artırdı, respublika daxilində və xaricdə sayılıb-seçilən universitetlərindən biri oldu.

### 2002-2003-cü tədris ilində

***filologiya fakültəsinin "Ədəbiyyat və dil" kafedrasında müdiri işləyən professor Yədulla Ağazadənin dəvəti ilə Lənkəran Dövlət Universitetində dərs deməyə başlayanda heç ağlıma da gəlməzdi ki, nə az, nə çox 11 il bu universitetdə mühazirə oxumalı olacağam. Kollektivə, Cənub bölgəsinin ziyalılarına elə qaynayıb-qarışdim ki, qəriblik hiss etmədim. Öyrəndim ki, məndən əvvəlki illərdə resbuplikamızın bir çox tanınmış akademikləri, professorları burada mühazirələr oxuyub, onların sayəsində yerli kadrlar yetişdirilib. Bölgədə elmi dərəcəli kadrları yetişdirilməsi bir-iki ilin işi deyil. Bunun üçün ən azı təxmivən 10-15 il və bəlkə də daha çox vaxt lazımdır.***

Lakin bundan da az bir müddətdə yerli kadrlar yetişdirildi, onlar müxtəlıif kafedralarda yerləşdirildi. Bakıdan dəvət olunan müəllimlərin dərs cədvəlinin hazırlanması, onların müvafiq qonaq otaqları ilə təmin olunması, dərsə vaxtında çatdırılması üçün nəqliyyat ayrılması, çətin hava şəraitində paytaxtdan nəqliyyat vasitəsi ilə gəlmək çətinliyi və sair tədrisdə müəyyən problemlər yaradırdı. universitettdə işləyən müəllim kollektivinin təxminən azı 50 faizi Bakıdan gəlirsə, bu halda tədrisi necə müasir tələblər səviyyəsinə qaldırmaq olar? Bu problem tədricən yoluna qoyuldu.

***Bakıdan dəvət olunan müəllimlərin sayı yerli kadrların hesabına xeylu azaldı.***

***İndi xatırlayıram, mənim işlədiyim "Ədəbiyyat və dil" kafedrasında müxtəlif illərdə filologiya elmləri doktoru, professor, Mürsəl Həkimov, filologiya elmlər doktoru, professor Rəhilə Məhərrəmova, filologiya elmlər doktoru, professor Azadə Musayeva, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı, filologiya elmləri doktoru, professor Tərlan Növruzov kimi Bakıdan dəvət olunan respublikamızın tanınmış ədəbiyyat mütəxəssisləri milli ədəbiyyat tarixinin, Azərbaycan dilçiliyinin ayrı-ayrı sahələrindən dərs deyiblər. Onların sayəsində və elmi rəhbərliyi altında filologiya üzrə fəlsəfə doktorları hazırlanıb.***

Hal-hazırda həmin kaqfedrada bir nəfər filologiya elmlər doktoru, professor və 4 nəfər filologiya üzrə fəlsəfə doktoru fəaliyyət göstərir.

Bu gün kafedranın müəllimləri sırasında vaxtilə dərs dediyim tələbələrim, elmi rəhbəri olduğum doktorantlarım da var. Buna qədər isə kafedrada uzun bir məsafə keçməli olduq. Hər şeydən əvvəl, tədris proqramları və dərs vəsaitləri hazırladıq, imtahan sualları və biletlərini yeni dövrün tələbləri səviyyəsində yenidən işlədik. Şəxsən mən özüm bakalavr və magistratura səviyyəsində ən çətin tədris proqramlarını- "Azərbaycan ədəbi tənqidinin tarixi", "Ədəbiyyat nəzəriyyəsi", "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi", "Azərbaycan ədəbiyyatşünaslığının tarixi və metodologiyası", "Müasir ədəbiyyat elmi və onun metodologiyası" adlı tədris proqramlarını kafedranın istifadəsinə verdim. Eyni proseslər digər kafedralarda da davam etdirildi. İndi həmin kafedraya filologiya üzrə fəlsəfə doktoru, dosent Elşad Səfərli rəhbərlik edir və deyərdim ki, əvvəlki ənənələri uğurla həyata keçirir.

### Bunu da xatırladaq ki,

Lənkəran Dövlət Universiteti ilk dəfə 12 ixtisas, 3 fakültə, 11 kafedra ilə fəaliyyət göstərib.

Universitetin ilk rektoru və yaradıcısı tarix elmləri doktoru, professor Hacıbaba Əzimov olub. 1997-ci ildən Respublika Prezidenti Heydər Əliyevin sərəncamı ilə əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Mirzə Bağırov, 2005-ci ildən əməkdar elm xadimi, riyaziyyat elmləri doktoru, professor Asəf İsgəndərov rektor vəzifəsinə təyin edilib. Artıq bir neçə il idi ki, universitetin rektoru vəzifəsini riyaziyyat elmləri doktoru, professor Natiq İbrahimov icra edirdi. Nəhahət, bir neçə gün əvvəl möhtərəm prezidentimiz İlham Əliyevin sərəncamı ilə Natiq İbrahimov Lənkəran Dövlət Universitetinə rektor vəzifəsinə təyinat alıb.

***Natiq İbrahimov 1979-1982-ci illərdə Bakı Dövlət Universitetin nəzdində hesablama mərkəzində riyaziyyatçı-proqramist, 1982-1985-ci illərdə fakültənin Tətbiqi riyaziyyat fakültəsinin hesablama laboratoriyasında riyaziyyatçı-proqramçı vəzifələrində çalışıb. 1985-1992-ci illərdə fakültənin Tədris laboratoriyasının müdiri, eyni zamanda kafedranın müəllimi kimi fəaliyyət göstərib. 1993-cü ildən Azərbaycan Respublikası Təhsil Nazirliyində aparıcı inspektor, aparıcı məsləhətçi və baş məsləhətçi vəzifələrində çalışıb. 2014-cü ildən bu günə qədər Təhsil Nazirliyinin elm, ali və ortaixtisas təhsili şöbəsinin müdir müavini vəzifəsində işləyib. 1993-cü ildən sonrakı müddətdə Bakı Dövlət Universitetində əvəzçiliklə baş müəllim, dosent və professor vəzifələrini tutub.***

Natiq İbrahimov 2016-cı il may ayından Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edib. Fəaliyyətə başladığı ilk aylardan təsdiq olunan təhsil strategiyasına uyğun olaraq Lənkəran Dövlət Universitetində islahatların aparılmasında və universitetin maddi texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılmasında, şəffaflığın təmin olunmasında mühüm rol oynayıb.

1997-ci ildən fizika-riyaziyyat elmləri namizədi, 2015-ci ildən riyaziyyat elmləri doktoru elmi dərəcəsi, professor elmi adı alıb. Bir monoqrafiya, 2 dərs vəsaiti və bir neçə proqramın müəllifidir. 4 nəfər doktorantın elmi rəhbəridir. 2011-ci ildən Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" adına layiq görülüb.

**Belə təsəvvür edirik ki, Lənkəran Dövlət Universiteti bundan sonra da təhsildəki uğurlarını və dövlətçilik ənənələrini davam etdirəcək, bölgədə milli strategiyanın qorunmasının təminatçısı olacaq.**

# SABİRABADIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Azərbaycanın muğan bölgəsinin diqqət çəkən ünvanlarından biri də Sabirabad rayonudu. Tarixə nəzər salsaq, onda görərik ki, 179 min nəfərə yaxın sakini olan bu rayonun ümumi ərazisi 1470 kvadrat kilometrdi. Bu rayonun 74 kəndi və hər kəndi də təbii ki, məktəbi, səhiyyə ocağı, mədəniyyət mərkəzi var. Ümumiyyətlə, statistik rəqəmlərə müraciət etsək, onda görərik ki, Sabirabad rayonu bir ərazi inzibati vahid olaraq kənd təsərrüfatı üçün xüsusilə yararlı əkin sahələrinə malikdi. Ona görə də bu rayonun ərazisində daha çox pambıqçılığın inkişafına, bostan-tərəvəz məhsullarının istehsalına önəm verilmişdi.**

Sabirabad şəhəri paytaxtın 170 kilometrlik məsafəsində yerləşir və bu rayonun adı tarixi mənbələrdə Cavad, Qalaqayın kimi göstərilmişdi. Bu ərazidə aparılmış arxeoloji qazıntılar zamanı məlum olmuşdu ki, eramızdan əvvəl, VI minillikdən başlayaraq, bu rayon ərazisində məskunlaşma olmuş və tapılan maddi mədəniyyət nümunələri də bunu sübut etmişdi. Rayonun Kürün Araza qovuşduğu əraziyə daxil olması burada coğrafi və təbii, ekoloji mühitə də müsbət təsir göstərmişdi. Ona görə də bu əraziyə daha çox Suqovuşan adı ilə də müraciət olunur. Bütövlükdə isə rayonun tarixi mədəniyyət nümunələrini gözdən keçirəndə onda məlum olur ki, bu abidələrin hər biri təkcə Sabirabadın deyil, bütövlükdə Azərbaycanın tarixinə böyük töhfədi. Həmin abidələr üzərində aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, ərazidə Ağqoyunlu və Səfəvilər dövlətlərinin mövcud olduğu zamanların təsdiqi olan bilgilər ortaya çıxmışdı. Bu isə öz növbəsində Muğan torpaqlarının ölkəmiz üçün nə qədər böyük önəm kəsb etdiyini bir daha ortaya qoyur. Ümumiyyətlə isə tariximizdə öz izi olan Nadir şahın da bu ərazidən yararlanması yazılı abidələrimizdə də öz təsdiqini tapıb. Məsələn, Abbasqulu Ağa Bakıxanovun "Bakı xanlıqları tarixində" adlı əsərində barəsində fikir söylədiyimiz məqam öz əksini tapıbdı. O ki, qaldı rayonun Sovet dönəmində formalaşmasına, onda qeyd etmək lazımdı ki, Sabirabad rayonu öncə Petropavlovka kimi 1931-ci ilə qədər mövcud olmuş, yalnız həmin ilin oktyabr ayının 7-də buraya Mirzə Ələkbər Sabirin adı verilmişdi. 1959-cu ildən isə rayon mərkəzi Sabirabad şəhəri adlandırılmışdı. Ümummilli liderimiz Heydər Əliyev Kommunist partiyasına rəhbərlik edərkən dəfələrlə bu rayonda olmuş, məhz onun diqqəti, qayğısı nəticəsində rayon demək olar ki, bütünlüklə öz görkəmini, sosial həyatını dəyişmişdi. Məhz həmin illərdə başlayan abadlıq-quruculuq işləri rayonun təkcə mərkəzində deyil, onun kəndlərində də inkişafın əks-sədasını yaşamağa, görməyə imkan vermişdi. Əgər konkret faktlara üz tutsaq, onda görərik ki, rayonda tikilən böyük mədəniyyət sarayı, rabitə evi, çoxlu sayda orta məktəb binaları, xəstəxanalar, Kür üzərində salınmış körpü, çəkilən yollar bu rayonun həyatında Heydər Əliyev dəstixəttinin izləridi.



Məhz Ulu Öndərin birbaşa tapşırığı, göstərişlərilə çəkilən qaz, su xətləri, aparılan tikinti işləri Sabirabadın kənd təsərrüfatı rayonu olması ilə yanaşı, həm də iqtisadi inkişafının sosial sahəsini də qabartmağa yandırılmış yaşıl işıq idi. Məhz ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev Ulu Öndərimizin iqtisadi kursunun davamı olaraq ölkəmizin digər bölgələri kimi Sabirabada da böyük diqqət ayırdı. Cənab Prezidentin Sabirabad səfərləri zamanı açılışlarını etdiyi Sabirabad Olimpia İdman Kompleksi Heydər Əliyevin abidəsi və muzeyi "Muğam" Tibb Diaqnostika Mərkəzi, həmçinin digər sosial obyektlər artıq Sabirabadın görkəminə edilmiş yeni diqqətçəkən əlavələr idi. Milli arxitektura əsasında tikilmiş bu obyektlərin hər birinin özünəməxsusluğu rayon sakinlərinin, eləcə də rayona gələn qonaqların diqqətini hər zaman özünə çəkə bilibdi.

Bu gün Sabirabad rayonu müstəqil Azərbaycanın iqtisadi, sosial cəhətdən inkişaf etmiş bölgələrindən biridi. Rayonda fəaliyyət göstərən məhdud məsuliyyətli cəmiyyətlər, aqrolizinq və servislər, fermer təsərrüfatları, eləcə də dövlət sektoru regionun iqtisadi yüksəlişinə töhfələr verir və rayonda istehsal edilən məhsulların həcmi və çeşidləri də ilbəil artır. Biz rayonun iqtisadi mənzərəsi ilə tanış olmaq üçün yerli icra hakimiyyətinin təqdim etdiyi faktlara üz tutduq. Məlum oldu ki, bu gün rayonda mövcud problemləri aradan qaldırmaq üçün rayon icra hakimiyyəti başçısı yanında yaradılmış şura bilavasitə icra başçısının rəhbərliyi altında fəaliyyət göstərir. Ona görə də vaxtaşırı həmin qərargah rayonun həm mərkəzində, həm də kəndlərində mövcud olan problemləri müzakirə etməklə müvafiq qərar qəbul edilir və həmin qərarın icrası da aidiyyəti qurumlara tapşırılır. Məhz bu cür obyektiv və vaxtında müdaxilənin nəticəsidir ki, son vaxtlar rayonun 12 kəndinə təbii qazın verilməsi təmin olunmuşdu. Həmin kəndlərlə yanaşı, müəyyən kəndlərin də həm təbii qaz təminatı, həm də su, rabitə məsələləri də uğurla aradan qaldırılmaqdadı. Burada vurğulamaq yerinə düşər ki, rayonun qaz təminatında əhalinin rahatlığını təmin etmək üçün "Smart" kartlardan istifadəyə üstünlük verilir. Rəqəmlərə nəzər salanda görürük ki, ötən ilin sonunda Sabirabad rayonu üzrə 25 500 ədədə yaxın smart kart abonentlərə çatdırılmışdı. Ümumiyyətlə, su sayğaclarında da yeni yararlanma üsulundan istifadəyə üstünlük verilir. Faktiki olaraq rayon ərazisində tikilən su anbarlarının daim gündəmdə olması, həmçinin artezian quyularının qurulması istiqamətində uğurlu işlərin aparılması istiqamətində Sabirabadda su probleminin aradan qaldırılmasına öz töhfəsini vermiş olur.




**Sabirabad şəhərinin abadlaşdırılması, şəhərdə tikinti-abadlıq işlərinin aparılması istiqamətində görülən işlərdən biri də yol tikintisidi. Qeyd etmək lazımdır ki, Sabirabad rayonu və şəhəri Hacıqabul-Horadiz yolunun üstündə yerləşdiyindən bu magistrala həmişə böyük maraq və diqqət olubdu. Ona görə də yolun daim yüksək səviyyədə saxlanılması, şəhərin küçələrinin səliqə-səhmanlı olması, səkilərin qurulması rayonun abad görünüşündə öz sözünü deyir. O ki, qaldı rayonun iqtisadi inkişafına, ölkə prezidentinin Azərbaycan regionlarının inkişaf etdirilməsinə dair təsdiq etdiyi proqrama uyğun olaraq Sabirabadda da böyük işlər görülür. Yəni fermerlərə özəl sektora diqqət göstərilməsi, subsidiyaların, kreditlərin ayrılması, həmçinin iş adamlarının fəaliyyətinə şərait yaradılması bir daha gösərir ki, Sabirabad torpağının, yəni Muğanın pambıqçılıq, taxılçılıq, bostan-tərəvəz, maldarlıq sahələri planlı şəkildə inkişaf etdirlir. Ona görə də pandemiya şəraitinin mövcudluğuna baxmayaraq, rayonda hər kəs Sabirabadın uğurlu sabahı üçün öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Xüsusilə şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına göstərilən diqqət onlar üçün yaradılan şərait deməyə imkan verir ki, Sabirabadda həyat uğurlu inkişaf yolundadı. Buna sübut kimi təhsilin, səhiyyənin genişlənən imkanları, həmçinin rayon gənclərinin təhsil, idman uğurları Prezidentimizin qarşıya qoyduğu vəzifələrin məsuliyyətlə icra edilməsinin göstəricisidi. Deməli, biz Sabirabadın uğurlarına hər zaman şahid ola biləcəyik.**

***Əbülfət MƏDƏTOĞLU***

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# BİR TƏHSİL OCAĞININ UĞUR HEKAYƏSİ

**Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə daha çox ölkədə təhsilin inkişafına mühüm diqqət yetirib. "Təhsil millətin gələcəyidir"- deyən ulu öndərimiz Azərbaycanda təhsil sisteminin müasir tələblərə cavab verməsi və bu sahədə islahatların keçirilməsi, təhsil işçilərinin rifahının yaxşılaşdırılması üçün bütün zəruri tədbirləri həyata keçirib. Bu gün Heydər Əliyev siyasətinin davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin biləvasitə rəhbərliyi ilə ölkəmizdə təhsilin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, yeni məktəblərin inşası, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bütün bunlar isə nəticədə ölkəmizin təhsil ocaqlarının əldə etdikləri nailiyyətlərdə özünü bariz şəkildə nümayiş etdirir.**

Uğurları ilə seçilən təlim-tədris müəssisələrindən biri də "Kaspi" Təhsil Mərkəzinin Lənkəran Nümayəndəliyidir. 2015-ci ildən fəaliyyət göstərən tədris ocağının direktoru Murad İbrahimovun sözlərinə görə, burada iş keyfiyyətli təhsil şəraitinin yaradılması, şagirdlərin şəxsiyyət yönümlü inkişafının təmin edilməsi, müəllim və şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsi, şagirdlərin inkişaf təcrübəsinin əldə olunması və zənginləşdirilməsi kimi bir neçə prinsip əsasında həyata keçirilir.

Tədris mərkəzinin şagirdləri müxtəlif olimpiada, müsabiqə və idman yarışlarında yüksək göstəricilərə nail olur, əlamətdar günlərlə bağlı keçirilən tədbirlərdə fəal iştirak edirlər. Belə ki, məktəbin şagirdi Aşur Cəbiyev coğrafiya fənni üzrə keçirilən zona mərhələsində birinci, respublika mərhələsində isə üçüncü yeri qazanaraq Təhsil naziri tərəfindən fəxri fərman və bürünc medalla təltif olunub.

Nümayəndəliyin marketinq şöbəsinin rəhbəri Cavanşir Həsənzadənin bildirdiyinə görə, ötən müddət ərzində məktəbdə dörd dəfə buraxılış imtahanları keçirilib:"Bizim hər bir müəllimimiz çalışır ki, bügünün şagirdi milli-mənəvi və ümumbəşəri dəyərləri özündə birləşdirən, elinə, obasına, Vətəninə layiqlı insan kimi yetişsin, gələcək fəaliyyətində biliyi ilə xalqa layiqincə xidmət göstərə bilən vətəndaş olsun. Tədris prosesinin müəllimlər tərəfindən yüksək səviyyədə təşkili, dərsdə innovativ təlim metodlarından, İKT imkanlarından istifadə, şagird-müəllim əməkdaşlığının düzğün qurulmasına göstərilən diqqətin nəticəsidir ki, bu gün məzunlarımızın sorağı Bakı və Lənkəran Dövlət universitetlərindən, digər ali təhsil müəssisələrindən gəlir".




44 günlük Vətən müharibəsi dövründə "Kaspi" Təhsil Mərkəzinin Lənkəran Nümayəndəliyinin müəllim və şagird kollektivləri Silahlı Qüvvələrə və "Yaşat" Fonduna yardım aksiyalarında, "Əsgərə məktub" layihəsində fəal iştirak ediblər. Onlar həmçinin "Şəhid övladlarına yardım" layihəsi çərçivəsində keçirilən aksiya zamanı onlarla ailəyə baş çəkərək, maddi və mənəvi dəstək göstəriblər. Təhsil ocağının müəllim və şagirdləri bu gün də həssas təbəqədən olan insanlara diqqət və qayğısını davam etdirirlər. Belə ki, pandemiya dövründə evdən çıxmaq imkanı məhdud olan tənha və ahıl şəxsləri tez-tez evlərində ziyarət edən kollektiv bu insanların qayğı və problemləri ilə maraqlanmaqla onlardan şəfqət və mərhəmətlərini əsirgəmirlər.

Direktor Murad İbrahimovun məlumatına görə, "Kaspi" Lənkəran Nümayəndəliyinin məzunlarından Samir Allahverdiyev, Kənan Hacıyev və keçmiş əməkdaşı Rauf Cahangirov Vətən müharibəsində şücaət göstərərək şəhidlik zirvəsinə yüksəliblər.

Nümayəndəliyin məzunlarından Ruhid Əlizadə "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", Amil Baxşıyev "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə", Əlihüseyn Həsənzadə isə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Hərbi xidmətdə fərqləndiyinə görə" medalları ilə təltif olunublar.

Məzunlarından daha iki nəfəri - Amal Büzürov və Rəşid Həmidzadə Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda vuruşublar.

Nümayənəliyin kollektivi "Şəhid övladlarına yardım" layihəsi çərçivəsində keçirilən aksiyalarda da fəallıq göstərir. "Biz də öz yardımlarımızla qazilərimizə və şəhid ailələrinə dəstək göstərmək, onların yanında olmağı vətəndaşlıq borcumuz hesab edirik,-deyə marketinq şöbəsinin rəhbəri Cavanşir Həsənzadə bildirir. - Bu cür xeyriyyə aksiyaları eyni zamanda şagirdlərimizin vətənpərvərlik ruhunda böyüməsinə, Vətəni, torpağı sevmələrinə, qəhrəmanlarımızı yaxından tanımalarına köməkdir".

Cavanşir müəllimin sözlərinə görə, məktəb 14 şəhid övladının təhsil xərclərini öz boynuna götürüb:"Biz bundan sonra da şəhid övladlarından qayğı və diqqətimizi əsirgəməyəcəyik".

Məktəbin ünvanına gələn saysız-hesabsız minnətdarlıq məktublarından birini nəzərdən keçiririk:"Kaspi Təhsil Mərkəzinin Lənkəran Nümayəndəliyinin rəhbərliyinə və kollektivinə minnətdarlıq etməyi özümə borc bilirəm. Artıq bu gündən biz də özümüzü bu ailənin üzvü hesab edirik. Çünki bu təhsil mərkəzində düzgün təlim-tərbiyə alan uşaqlar arasında mənim də qızım oldu. Pedaqoji kollektiv güvəncimi doğrultdu. İlk dəfə məktəbə gedəcək qızım buradan əldə etdiyi biliklə ilk sertifikatını aldı. Ölkənin təhsilinə böyük töhfələr verən, övladımın əziyyətini çəkən "Kaspi" Təhsil Mərkəzinin Lənkəran Nümayəndəliyinə təşəkkür edir, yorulmaz və şərəfli fəaliyyətində uğurlar diləyirəm!".

**İnanırıq ki, "Kaspi" Təhsil Mərkəzinin Lənkəran Nümayəndəliyinin pedaqoji kollektivi doğma Azərbaycanımızın sabahı sayılan gənclərimizin geniş dünyagörüşlü, savadlı, qəlbində Vətən sevgisi olan insanlar kimi tərbiyə olunub yetişdirilməsində bundan sonra da öndə olacaq, uğurları ilə fərqlənəcəkdir.**

**Ağaddin BABAYEV,**
**Lənkəran**



*Yasəmən Qəyyumlu*

## BİZ GƏLİRİK, QARABAĞ

**Ucaldı zirvəyə şəhid oğullar,**
**Vətəni vətənə qaytardı onlar,**
**Qələbə nəğməsi oxuyur yollar,**
**Millətin qəlbində ehtişama bax,**
**Biz gelirik Qarabağ!**

**Artıq intizarın qəddi bükülür,**
**Yurdumun üzündən sevinc tökülür ,**
**Üç rəngli bayrağın rəngləri gülür,**
**Sevinc köynəklidir hər dərə, hər dağ,**
**Biz gelirik Qarabağ!**

**Keçdi qəm qoxulu ağrılı çağlar,**
**Üşümür həsrətdən daga qucaqlar,**
**Ağdamda, Laçında yanır ocaqlar,**
**Çağlayır sinəmdə söz varaq- varaq,**
**Biz gəlirik Qarabağ!**

**Qəhrəman oğullar qalxdı savaşa,**
**Otuz illik həsrət çırpıldı daşa**
**Qubadlı, Zəngilan, Cəbrayıl qoşa,**
**Ürəklərdə çoşan məhəbbətə bax**
**Biz gəlirik Qarabağ!**

**Ümid çiçəkləyir vətən sözündə,**
**Arzular qol açıb göyün üzündə,**
**Zəfər tonqal çatıb Cıdır düzündə,**
**Şuşadan əl edir üç rəngli bayraq,**
**Biz gəlirik Qarabağ!**

**Düşmənə nifrətim xəncəri xəncər,**
**Hər qaya Nəbidir, hər bulaq Həcər,**
**Azadlıq qoxuyur indi Kəlbəcər,**
**Arzumu çiçək tək öz yaxana tax,**
**Biz gəlirik Qarabağ!**

**Zəfər ətirlidir Azərbaycanım,**
**Sevinclə damarda qaynayır qanım,**
**Söyləyib müzəffər baş komandanım,**
**Qədim yurdumuzdur bu ulu torpaq,**
**Biz gəlirik Qarabağ!**

## Qeyrət qalasıdır Şuşa yurdumun

**Mələklər sevinir göyün üzündə,**
**Hünər naxışlanıb oğul sözündə,**
**Şəhadət ətri var Cıdır düzündə,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Dağlar unutmayıb Xanın səsini,**
**Dinləyir Qarabağ şikəstəsini,**
**İgidlər düşmənin verdi dərsini,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Yollar şeir kimi sətirlənibdir,**
**Torpağın üzünə nur ələnibdir,**
**Natavan qəzəli ətirlənibdir,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Şükür, bu torpaqdan qovulub yağı,**
**Sevinclə çağlayır İsa bulağı,**
**Şövqlə dalğalanır vətən bayrağı,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun .**

**Vətən, torpağına qurbandır canım,**
**Cəngiyə köklənib damarda qanım,**
**Var olsun müzəffər baş komandanım,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Artıq çəmən-çəmən sevinir gülün,**
**Göz yaşı silinib Xarıbülbülün,**
**Ocağı sevinir dahi Bülbülün,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Şəninə yaraşan söz gərək vətən,**
**Sənə heyran olub bu ürək vətən,**
**Şuşalı günlərin mübarək vətən,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Yasəmən qoşulub bu xoş sorağa,**
**Zəfər nəğmələri qalxıb ayağa,**
**Döyüşçü əsgərin yazıb torpağa,**
**Qeyrət qalasıdır Şuşa, yurdumun.**

**Qədrini anlamaz hər yoldan ötən,**
**Odur dar macalda haraya yetən,**
**Haqqın dərgahına uzanıb gedən,**
**Həqiqət yoludur, ƏDALƏT YOLU !**

**Tanrı ətri verən qəlbdə yaşayır,**
**Arzular isidir, könül oxşayır,**
**Ürəkdən ürəyə sevgi daşıyır,**
**Məhəbbət yoludur, ƏDALƏT YOLU !**

**Namərdin üzünə qapı bağlayan,**
**Halallıq içində coşub, çağlayan,**
**Ləyaqət əhlini uca saxlayan,**
**Şərafət yoludur, ƏDALƏT YOLU !**

**Bir üzü cəvahir, bir üzü ləldir,**
**Xeyirxah niyyətdir, gözəl əməldir,**
**Tanrı dərgahına açılan əldir,**
**İbadət yoludur, ƏDALƏT YOLU !**

**Onda pənah tapar tənhalar, təklər,**
**Oduna isinir qərib ürəklər,**
**Sağında, solunda durub mələklər**
**Qiyamət yoludur, ƏDALƏT YOLU !**

**Önünü bağlamaz nə duman, nə çən,**
**Adlayıb nəsildən nəsillərəcən,**
**Halal adamların ömründən keçən,**
**Bərəkət yoludur, ƏDALƏT YOLU !**

**Qərib yurd yerində binələr quran,**
**Haram qoxusundan uzaq, yan duran,**
**Qəmli könüllərdə işıq yandıran ,**
**Mərhəmət yoludur, ƏDALƏT YOLU !**

**Yasəmən, sevinclə bəzənib yaxan,**
**Zalıma qılıncdır, məzluma qalxan,**
**Üç rəngli bayrağı Şuşaya taxan,**
**Şücaət yoludur, ƏDALƏT YOLU !**

## ZAMANDIR

**Allahın hökmü var, şəhadəti var,**
**Dünyanın varlığı, ədaləti var,**
**Ayın, günəşində ibadəti var,**
**Sədaqət ölçüsü zamandır, oğlum.**

**Nəfsin qədəri var, səfaləti var,**
**İnsanı alçaldan xəcaləti var,**
**Eşqi bada verən xəyanəti var,**
**Məhəbbət ölçüsü zamandır, oğlum.**

**Səbrin kasası var, səbrin dili var,**
**Ömrün ayları var, ömrün ili var,**
**Ocağın alovu, odu, külü var,**
**Axirət ölçüsü zamandır, oğlum.**

**Bəxtin sir qapısı, alın yazı var,**
**Təbiət gözəldir, qışı, yazı var,**
**Elin Yasəmən tək, qoçaq qızı var,**
**Ədalət ölçüsü zamandır, oğlum.**

# G7 bu ölkələrə 15 milyard ayıracaq

**G7 ölkələri yaxın 2 il ərzində inkişafda olan ölkələrdə qadınların təhsilinin dəstəklənməsinə 15 milyard dollar ayırmağı planlaşdırır.**



Bu məlumatı Britaniya Xarici İşlər Nazirliyi yayıb. Nazirlik G7 üzvlərinin ayrılan vəsait hesabına 2026-cı ilə qədər 40 milyondan çox qadının məktəbə getmək şansı əldə edəcəyinə, 20 milyon qızın isə 10 il ərzində təhsil ala biləcəklərinə ümid etdiklərini bildirib.

**Qeyd edək ki, 3 maydan 5 maya qədər Londonda G7 ölkələrinin XİN rəhbərlərinin görüşü keçiriləcək.**

**MEHRİBAN**



Orxan Saffari

# "Qüsul"

(Hekayə)

...Hər tərəf Aşuradı, Kərbəladı, ya İmam Hüseyn,

Bir canımız var uğrunda fədadı yar, İmam Hüseyn"

***

Bayıldan üzü Bibiheybətə bütün maşınlarda, telefon dükanlarında, uşaqların əllərindəki telefonlarda belə səslənən bu mərsiyə ilə üz tutduq Məscidə tərəf. Yol boyu sinədarlar mərsiyə oxuyur, dini kəlamlar deyir, maşınlardan gələn musiqi səsi isə məscidə çatan kimi sönürdü.

Uşaqlıqdan belə görmüşük. Həmişə Məscidə yaxınlaşanda maşındakı musiqinin səsi alınar, salavat çevirib keçərdik...

Uşaqları bilmirəm, amma mən əhd eləmişdim ki, hər Aşura günü Allahın evinə piyada gedəcəm. Amma əhd deyirəm sizə, bu nə əhddir ki?! Sürünə-sürünə gedən var!

Qarşımızda iməkləyən o qadın nə qədər gülməli görsənsə də, heç birimiz gülmür, onun Allaha olan sevgisindən xoşhallanırdıq. Hələ uşaqlardan biri dilləndi;

- Allah bizim də qəlbimizə belə iman salsın.

***

Mən deyim 15 nəfər, siz deyin 20 nəfər uşaq yolun qırağı əhdə vəfa gedirdik. Artıq hava toranlıqdan qaranlığa keçib. Hər tərəf adam qaynayır, hər yerdə polis maşının işıqları sayrışır. Əstəfurullah, elə bil, diskotekaya gedirik...

Yaşımın 14, imanımın 1400 ilidir. Allahı elə sevirəm, elə sevirəm, lap Əli misalı. O elə sevdaydı ki, onu qəlbimdən elə Allah özü ala bilərdi ki, bəlkə də aldı..

***

Yerdən götürdüyüm uzun "şurup"-u əlimdə oynada-oynada əvvəli narkoman, sonrası Axund İlqara Kərbəla müsibətindən, Əbabil quşlarından suallar verirəm, o da yorulmadan, usanmadan, elə bir şirin dildə izah edir ki, gəl görəsən. Əslində, hər il belə edirik. 10 yaşımdan namaz qılar, oruc tutar, hətta zəkat da vermişəm. Aşuraları da, yalan deməyəcəm, daha çox səhərədək küçədə, məsciddə qalmaq üçün sevirdim. Deməк, bir o qədər də əhdə vəfam yox imiş- bunu indi düşünürəm...

Allah uşaqlığıma keçib bağışlasın, evdən saat 9 olmamış çağırırdılar, bütün həvəsimiz də qurşağımızda qalırdı. Hər il düşən bu fürsəti isə Ateist vaxtlarda belə dəyərləndirmişəm...Amma sevgimiz, imanımız öz yerində. Durduq yerə imanımı da yandırmayım o qədər.

***

Məscidə çatmışdıq. İlahi, insan izdihamı. Buranı ancaq ya Allah özü yerə enib dağıtmalıdır, ya hamı səhəri diri açmalıdır. Durna qatarı kimi bir-birimizin arxasınca adamların arasına qarışdıq. Ən qabağda mən idim deyə, elə bil, Musa misalı yarırdım adamları...

Burdan Allaha nə dualar qalxır, Allah!

***

Qəfil ara qarışdı. Dağın başına, məzarlar tərəfə baxıb hərə ağızdan bir söz çıxartdı. İndi olsa, deyərdim, hər ağzı olan danışır, o vaxt dua idi amma...

Bibiheybət məscidinin üzbəüzü- dağın başı qəbirstanlıqdır, yanında kiçik türbə. Nəzir-niyazlar, Allahla müqavilələr də burda bağlanırdı. Türbənin də yanında iynəyarpaqlı, həmişə yaşıl bir ağac. Baxanda özümüz də inana bilmədik heç. Gur işıq, ağacın arxasından isə görsənən ruh! Bəli, bəli, ruh. Bizim bildiyimiz- adam üstünə ağ "prastina" atıb ruha oxşayar ha, bax, elə.

Qorxan kim, heyranlıqla baxan kim, Allahın möcüzəsi deyən kim. Bəs, mən nə deyirəm? Bir az çək-çevirdən sonra bayaq gəldiyimiz uşaqların bir qismi ilə ora getməyi deyirəm. Nə edirik? Qərara alıb gedirik. Üzü dağa, türbəyə tərəf, gecənin bir aləmi, 15-20 nəfər uşaq. Aralarında tanımadığım, üzdən tanıdığım uşaqlar da var. 20-ci sahə ilə Bayıl uşaqlarının qarışığıdır. Ən qabaqda mən gedirəm, bir də bir məhlə uşağım Rahil. Zarafatsız, indi düşünürəm, həyatı roman olmasa da, hekayəyə, povestə gedər. Uşaq vaxtı bizdən böyük idi deyə onun təsirinə çox düşmüşdük.

Bir ara "masson" olmuşdu. Yalan-gerçək, deyəsən, "6-ci loja"-dan idi. İnanılması çətin olan faktlar var idi bir az da. Məsələn, ona inamımın itən vaxtlarda 20-ci sahənin kruqunda "pasledni" S-classdan şəkilini çəkdilər. Bir dəfə də məni yolun qırağına çağırıb, düşdüyü maşından "Kalaşnikov" silahını göstərdi. Onda bir az inandım massonlara. Deee ha, dünyanı da idarə edirlər. İndi bir də uzun-uzun yazıb massonların sirrlərini də açmıram. Sonra oldu dindar, sonra ateist, indi yenə dindardır, həm də ən qatısından.

Yadıma bir əhvalat da düşdü. Bir narkomanı yolundan döndərib namaza gətirirlər, bu da gedib olur "vəhabi". Özü də, necə lazımdı. Axırda deyirlər, uşaq gül kimi narkoman idi, getdi qoşul "vəhhabilərə."

Sözüm dindən uzaq, Allaha yaxın. Yolun yarısında Rahilə məzarların yanında olan tabutlardan biri ilə bağlı planımı deyirəm. Deyirəm ki, içinə girim, qəfil uşaqlar gələndə tullanıb çıxım, dəli olsunlar. Ağlımıza batır, amma edə bilmirik. Duyuq düşürlər. Burda nəsə etməsəm, ürəyim partlayardı, ürəyim partlayar da sözdü? İmanım yanardı..

Tabutun içində toz basmış kəfən parçasını, balaca mütəkkəni götürüb vıyıldadıram uşaqlara tərəf. Pəəəəəh. Aləm dəyir bir-birinə. Hırraxana. Allah, iman, məscid hamısı yaddan çıxdı. Qorxusundan qaçan kim, məzarın arxasına girən kimi, söyüş söyən kim.

Söyüş deyirəm e, özü də mənə. Sən demə, atdığım dəyib uşaqlardan birinin peysərinə. Qulağım onu atan adamı söydüyü söyüşü alan kimi dayandığım dikdən Badr Hari kimi tullanıb yumruq vurdum. Amma dəymədi. Ara beləcə qarışdı dağın başında. Danqqq! Bura gələndə yerdən götürdüyüm o uzun şurupda çıxdı cibimdən, sancıldı Zülfüqarın qılıncı kimi oğlanın qoluna! İlahi, indi yadıma düşür, o nə gün idi elə? Biz nəyə getmişdik, nələr oldu? İşin maraqlı tərəfi ora getmə səbəbin də gülməli olması idi. Heç nə. Böyük sellofan iliş qal ağacda, arxadan da türbənin gur işığı vursun, külək də yellətsin. Konsert!

Yəqin, Allah özü də əməlli gülüb bu hadisəyə.

Dava da sovuşdu, üzrlər istənildi, məhz o günə xatir barışdıq da. Dava qaldı bir qıraqda, bizi barışdıranlar yenə dindən, bu günün özəlliyindən danışdılar. Özü də, indi belə rahat danışmağa baxmayın, o gecə vaxtı məzarların arasında necə əsə-əsə gedirdik. Azca mən qorxmurdum. Qalan hamısı şeytana lənət oxuya-oxuya, dodaqaltı dualar mızıldanıb qalxırdı.

Biz məscidin həyətinə düşüb söhbətlərimizə davam elədik. Bütün ərazi adamlarını burda görmək olardı. Hələ qızlara görə gələn oğlanlar da var idi. Bir qism bu cür oğlanları peysər çıxardır, bir qism də ürəyinin təmizliyindən, qızları başında kələğayı görməyin həzzindən. Qarışıq söhbətdi burası.

Hələ bir dostum var idi, o vayfaya görə gəlmişdi. Parolu qıranda məzə üçün "yığ, parol ya şeytan666, ya da Molla əmi.com"-dur.

***

Səhərə yaxın idi. Camaat namazı qılınan vaxtı içəri girdik. Başlarının üstünə kitab qoyub, hamı hazır vəziyyətə gəlmişdi. Möhür götürüb arxa sıralarda diz atdıq, bir az təsbeh, Axunddan sözünə qüvvət salavatlar çəkdik.

Bu dəm, bir neçə saat əvvəl dalaşdığım oğlan yenə Musa misalı adamları yara-yara düz getdi Axundun yanına, guya yavaş səslə dedi ki, bəs, mənim peysərimə kəfən dəyib, nə edim?! Hamının üzünə həm gülüş, həm də bir qəribəlik doldu. Oğlan özü də utandı. Heç cür yavaş deyə bilmədi bu sözü. Heç olmasa, boynunun arxası deyərdin.. Axund da nə deyəcəyini bilmədi, dedi, namazdan sonra deyəcəm sənə. O da bunu elə tonda dedi ki, bir biabırçılıq da burda oldu. Oğlanla barışaq da, hiss elədim ki, mənə nifrəti keçməyib. Bu gözəl günü burnundan gətirmişdim əməlli.

Yanımızdakılardan biri üzünü mənə tutub dedi;

- O kəfən dəyməyindən ona görə narahatdır ki, ölümə işarədir.

- Necə yəni ölümə işarədir?

- Yəni, qüsul almalıdır. Meyit qüslü. Mütləq həm də. Ölə bilər.

Uşağam da. Elə narahat oldum ki, namazdan sonra özüm onu tapıb dedim. Dedim, axund deyib. Razılaşdı. Mənim sözümə inanmaq istəmirdi əclaf..

Artıq hava işıqlanırdı. Evə qayıtmalı idik. Nə görsəm yaxşıdı? Bayaq iməkləyə-iməkləyə gələn qadın. Yenə dizlərini atdı yerə, yola düşdü. Allah aqqı, mən özümü saxlaya bilmədim. Güldüm. Hələ uşağa dedim, o deee, bibiye bax, xoddandı yenə.

***

2019-cu il. Allahdan bir bulud uzaq düşmüşəm, bir hədis qədər küsmüşəm, incilmişəm.

Bibiheybət qəbirstanlığında dostumun atasını basdırmağa gedirik. Tabut çiynimizdə diki qalxırıq, mən də göz ucu qəbirlərə baxıram.

Əslində, həmişə belə edirəm. İçimdə daim bir ölüm gəzdiyinə, bir intihara aludə olduğumdan qəbir daşlarından boylanan adamların güldüyü şəkillərə, ölüm tarixlərinə baxıram. Xüsusi ilə də cavan adamlara.

Həsənov Kamil Vəfadar oğlu..

1997-ci il də anadan olub, 2018-ci il də vəfat edib. İlahi, dalağım necə sancır. Nəsə narahatlıq dolur içimə. Qəribə bir hüzn. Elə bilirəm, mənəm bu oğlanın yerinə yatan. Üzümü çevirib getmək istəyirdim, dizim az qala bükülə...

- Yox, əşi, yox, olmaz- öz özümə deyirəm.

Əlimi telefona atıb Bayıl uşaqlarından birinə zəng edib, o vaxt kəfən atdığım oğlanın adını soruşuram..

- Turqut, nə idi onun adı?!

- Kamili deyirsən, brat?! Onu bıçaqlayıb öldürdülər keçən il..

Əlim üzümdə qalır. Tutuluram. Yadıma həmin gün düşür. Necə yəni bıçaqlanıb? Mən ona vurduğum şurup..

Başımı göyə qaldırıram. Dil ucu " Həyya əla xeyrul əməl" deyirəm.

Sonra, sonra yadıma düşür. Namaz vaxtı mənə üzünü tutub meyit qüsulu almalıdır deyən adam.

Deyəsən, Kamil qüsul almamışdı o gün...

# XATİRLƏRDƏ YAŞAYIR ƏLƏKBƏR MƏMMƏDOV

**Bu il milyonların sevimli və ən populyar idman növü sayılan futbolun Azərbaycanda yaranıb və inkişaf etməsinin 110-cu ili tamam olur. XX əsrin əvvəlindən başlayaraq digər respublikalarla bərabər bizim ölkədə də könüllülərdən ibarət dəstələr arasında futbol yarışları keçirilirdi. Lakin 1911-ci ildə futbol rəsmi olaraq Azərbaycanda vətəndaşlıq hüququ qazanıb. İlk olaraq "Balaxanı futbolçular dərnəyi", "Britaniya klubu", "Drujina k sportu", "İdmançı", "Stella" və "Askold" adlı komandalar yaradıldı.**

Bir əsrdən artıq şanlı yol keçmiş respublika futbol təşkilatı zaman ötdükcə həm yüksəliş, həm də zəifləmə illərini yaşamış, amma futbolumuz tarixi ənənələrə sadiq qalmışdır. Sonralar ölkə miqyasında komandaların sayı artmış və tanınmış futbolçular yetişmişlər. Böyük Vətən müharibəsində həlak olmuş Mir Mehdi Ağayev və Məcid Cəfərov, ardınca Konstantin Kuznetsov, Aleksandr Qnezdov, Teymur Arzumanov, sonralar Tbilisinin "Dinamo" komandasına keçmiş Viktor Panyukov və Naum Naumtsev, Kamil Eynullaev, Vladimir Karmayev, Ələkbər Məmmədov, Yuri Kuznetsov, Tofiq Axundov, Əhməd Ələsgərov, Kazbek Tuayev, Eduard Markarov (sonra naxələf çıxdı), Anatoli Banişevski və başqaları Azərbaycan futbolunun şöhrətini qoruyub saxlaya biliblər. Dünyaca məşhur iki beynəlxalq dərəcəli hakimimiz ? Tofiq Bəhramov və Eldar Əzimzadə xarici ölkələrdə respublikamızı layiqincə təmsil ediblər. Yaşlı azarkeşlər onları yaxşı xatırlayırlar. Əgər tarixi illərə retrospektiv nəzər salmış olsaq, adlarını çəkdiyim və çəkmədiyim futbolçulardan ibarət xəyalən simvolik bir komanda yaratsaq, heç şübhəsiz, bu komandanın kapitanı SSRİ-nin əməkdar idman ustası Ələkbər Məmmədov olacaq.



Ə.Məmmədov SSRİ yığma komandasının heyətində beynəlxalq oyun zamanı

## Həyatının 70 ilini

***Azərbaycan futbolunun inkişafına həsr etmiş Ələkbər Əmir oğlu Məmmədov 1930-cu il may ayının 9-da Bakı şəhərində anadan olub, ilk "universitetini" məhəllə futbolunda keçirən Ələkbər 1945-ci ildə "Spartak" cəmiyyətinin yeniyetmələr qrupunda ilk oyunlarını keçirməyə başlayıb. Arıq, cılız bədənli olmasına baxmayaraq, texniki fəndləri məharətlə icra edən, boyca özündən böyük olan müdafiəçiləri aldadıb keçən, düşünülmüş ötürmələr edən və dəqiq zərbələr vuran istedadlı futbolçunu tezliklə respublikanın əsas komandası olan "Neftçi"yə qəbul edirlər. Ə.Məmmədov 1948-ci ildə SSRİ birinciliyinin "B" qrupunda çıxış edən "Neftçi"nin heyətində Taqanroq şəhərinin "Torpedo" komandasına qarşı debüt matçını keçirir və ilk qolunu vurur. Doğrudur, o zaman buna bir o qədər də əhəmiyyət verilmir, çünki həmin oyunda qonaqların qapısına səkkiz top vurulmuşdu. Bununla belə, qısa müddətdə Ələkbər Məmmədov "Neftçi"nin aparıcı futbolçusu olur.***

Qeyd edək ki, 1951-ci ildə Respublika Stadionunun rəsmi təntənəli açılışı zamanı Vilnüsün "Spartak" komandasına bakılılar 4:0 hesabı ilə qalib gəldilər. Topların dördünün də müəllifi Ə.Məmmədov olub. Həmin mövsümdə o, rəqib qapılarına 35 top vuraraq "B" qrupunun ən məhsuldar hücumçusu olub.

***1953-cü ildən başlayaraq Ə.Məmmədovun Moskva həyatı başlayır. Onun qeyri-adi istedadını nəzərə alıb, ustalığının daha da kamilləşməsi üçün mütəxəssislər SSRİ Futbol Federasiyasına təklif edirlər ki, Məmmədov paytaxt komandalarının birində təcrübəsini artırmaq üçün güclülər dəstəsində çıxış etsin.***

Ə.Məmmədov Moskvanın "Dinamo" komandasında Azərbaycan futbolunun ilk nümayəndəsi oldu.

Ötən əsrin 50-ci illərində paytaxt "Dinamo"suna rəhbərlik edən SSRİ-nin əməkdar məşqçisi Mixail Yakuşin "Veçnaya tayna futbola" adlı kitabında belə yazır: "Ə.Məmmədovun "Dinamo"ya gəlişi komandamız üçün çox xeyirli oldu. O, orijinal üslubda oynayan, meydançanı yaxşı görən, oyundaşlarını başa düşən və topla nə cür rəftar etməyi bilən futbolçu idi. Belələri bizim futbolda azlıq təşkil edirdi.

Bəzən rəqibi çaşdırmaq məqsədilə o, qəsdən ləng hərəkət edir, lazım gəldikdə isə sürəti artırır və rəqib qapısı ağzında qətiyyətlik göstərirdi". Digər tanınmış mütəxəssis Andrey Starostin isə "Bolşoy futbol" adlı kitabında belə yazmışdı: "Yaşin, Krijevski, Məmmədov üçlüyü "Dinamo" komandasının onurğa sütununu təşkil edirdi. Bu üçlük ən yüksək dərəcəli usta futbolçular olmaqla, öz qapılarını alınmaz qalaya çevirmişdilər".

## 1955-ci il

***aprelin 10-da küləkli və yağışlı gündə Bakının Respublika Stadionuna gələn azarkeşlər mövsümün açılışını Bakıda keçirən iki Moskva komandasının "Dinamo"-"Lokomativ" görüşünü azərbaycanlı futbolsevərlər böyük ruh yüksəkliyi ilə qarşıladılar. Matçın ilk 45 dəqiqəsi 0:1 "Lokomativ"in xeyrinə nəticələndi. Oyunun ikinci yarısında "Dinamo"nun əsas zərbə qüvvəsi olan Ə.Məmmədov dəmiryolçuların qapısından dörd top keçirdi.***

Həmin ildə Moskva "Dinamo"sunun İtaliya səfərində "Milan" klubuna qarşı keçirdiyi oyunu isə xüsusi qeyd etmək lazımdır.

Xatırladaq ki, bu səfərdə dinamoçular cavab görüşünü keçirməli idilər, iki ay əvvəl Moskvada qarşılaşan bu komandaların oyununda "Milan" klubu 4:2 hesabı ilə qələbə çalmışdı. Təkrar görüşdə hesabın ikiqat artıq olacağına nəinki yerli azarkeşlər, hətta idman şərhçiləri və mütəxəssislər də əmin idilər. O zaman Avropada ən güclü klublardan hesab edilən "Milan"ın heyətində məşhur futbolçular?qapıçı Buffon, müdafiəçi Maldini, hücumçular Del Monte, isveçli futbol ulduzları Nordal və Lindxolm, uruqvaylı Skiaffino çıxış edirdilər. 1955-ci il sentyabrın 4-də Milanın 90 minlik "San-Siro" stadionu tamaşaçılarla dolu idi. Birinci hissədə dinamoçular 0:1 uduzurdular. Lakin matçın ikinci hissəsində "Milan"ın qolkiperi Lorenso Buffon (o, İtaliya yığmasının da qapıçısı idi) moskvalıların mərkəz hücumçusu Ə.Məmmədovun zərbələrindən sonra dörd dəfə topu qapıdan çıxarmağa məcbur olmuşdu. Oyundan sonra baş məşqçi M.Yakuşin bildirdi ki, bu görüş "Dinamo"nun 50-ci illərdə nümayiş etdirdiyi ən yaxşı oyunlardan biridir.

Və demək lazımdır ki, İtaliya mətbuatı da Bakı futbolçusunun oyununa biganə qalmamışdı.

***Haşiyə: 1950-60-cı illərdə Bakı ictimaiyyəti arasında belə bir ifadəni tez-tez eşitmək olurdu: Bakı futbolunun yetirmələri və konservatoriyasının məzunları SSRİ-nin bir çox ərazisində məskən salmışdılar. Onlar Şimali Qafqazdan tutmuş Sibirin müxtəlif komandalarına qədər özlərinə yer eləmiş, istedadlarını da orada göstərirdilər. Təkcə Moskvanın "Dinamo"sunda müxtəlif illərdə Ə.Məmmədov, Y.Kuznetsov, İ.Cavadov, V.Hacıyev və V.Qasımov çıxış ediblər. Paytaxtın digər komandalarında bakılı futbolçuların sayı daha çox olub. İ.Abramaşvili, V.Dikarev, L.Paxomov, V.Semiqlazov, V.Şexov, İ.Ponomaryev, O.Axanov bir neçə il ərzində çıxış etdikləri kollektivlərin idman şərəfini qoruyublar. Vaxtilə Leninqrad və Ukrayna komandalarında oynamış Bakı futbolçularının soyadlarını da əlavə etmiş olsaq böyük siyahı alınar.***

50-ci illərdə Moskva "Dinamo"sunun keçirmiş olduğu uğurlu beynəlxalq oyunlar sovet futbolunun nüfuzunun yüksək olmasını sübut edirdi. Avstriyanın "Rapid", İtaliyanın "Milan" və "Fiorentina", Türkiyənin "Fənərbaxça", İngiltərənin "Vulverxempton", Braziliyanın "Vasko da Qama" və digər nüfuzlu komandalarla görüşlərdə qazanılan qələbələrdə "Dinamo"nun əsas zərbə qüvvəsi sayılan Ələkbər Məmmədovun xüsusi payı vardı. Bu görüşlərin hər biri haqqında görkəmli mütəxəssislər və tanınmış futbol veteranları öz xatirələrində ətraflı söhbət açmışlar. Dünyaşöhrətli qapıçı Lev Yaşin "Sçastye trudnıx pobed" adlı kitabında bu sözləri yazmışdı: "Milanla görüşdə dinamoçular yüksək texnika və böyük qələbə əzmi nümayiş etdirdilər. Lakin oyunun əsl qəhrəmanı Bakı futbolunun yetirməsi Ələkbər Məmmədov oldu".

## Əməkdar idman ustası

Ə.Məmmədov dəfələrlə "Dinamo"nun heyətində SSRİ çempionatlarının qalibi olub. Bakılı futbolçu SSRİ birinciliyində dörd qızıl, iki gümüş medala layiq görülüb. Həmyerlimizin məharətli oyunu ölkənin digər şəhərlərində də böyük sevinclə qarşılanırdı. İki dəfə mövsümün sonunda SSRİ-nin 33 ən güclü futboluçusu siyahısına daxil edilən Ə.Məmmədov Sovet İttifaqının yığma komandasının tərkibində 4 rəsmi oyun keçirib.

1958-1960-cı illərdə SSRİ seçmə komandasına Avropa kubokunu qazandıran 18 futbolçudan biri də azərbaycanlı Ə.Məmmədov olub. Lujnikidə idman muzeyinin daimi ekspozisiyasında həmin futbolçuların fotoşəkillərinin altında bu sözlər yazılıb: "Onlar SSRİ milli komandasına Avropa kuboku uğrunda turnirdə qələbə qazandırıblar. 2000-ci ildə Rusiya Futbol Federasiyası Moskva meriyası ilə birgə həmin qələbənin 40 illiyini qeyd etdi. Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə iştirak etmək üçün Moskvaya dəvət almış Ə.Məmmədov digər veteranlarla bərabər xüsusi hədiyyələrlə mükafatlandırılmışdı. 1960-cı ildə bakılı futbolsevərlərin çoxdan arzuladığı gün gəlib çatdı.

## "Neftçi" güclülər dəstəsinə qayıtdığı vaxt

***təcrübəli futbolçu Ə.Məmmədov paytaxtdan doğma Bakıya çağırıldı. 1962-ci ildə yaşıl meydançada sonuncu mövsümünü keçirən məşhur futbolçumuz 1963-cü ildə "Neftçi"yə baş məşqçi təyin edilir. İki il respublikanın əsas komandasına rəhbərlik edən Ə.Məmmədov gənc, istedadlı futbolçuların heyətə daxil edilməsinə, onların ustalığının artmasına, K.Tuayevin, V.Hacıyevin, Y.Babayevin və A.Banişevskinin ölkə daxilində populyarlaşmasına, onların SSRİ yığma komandasının məşqlərinə və oyunlarına cəlb olunmasına böyük əmək sərf etmişdir.***

Ələkbər Məmmədov heç vaxt Azərbaycan futbolundan ayrı düşməmiş, əksinə, həmişə onun tərəqqisinə, yayılmasına və təbliğ olunmasına çalışmış və bu işdə böyük fədakarlıq göstərmişdir. O, Dövlət Bədən Tərbiyəsi İnstitutunun futbol kafedrasına başçılıq etmiş, şəhər maarif şöbəsinin nəzdində olan gənclər futbol məktəbinin yaradıcısı və direktoru olmuş, SSRİ-də ilk dəfə olaraq Bakı mini-futbol (indi futzal adlanır) turnirinin keçirilməsini, veteranlar komandasının yaradılmasının və gənc futbolçuların baxış turnirinin keçirilməsinin səbəbkarı olmuşdur.

## Son illərdə

***Ə.Məmmədov Neft Akademiyasının idman kafedrasında müdir işləməklə bərabər, respublikanın veteran futbolçularından ibarət kollektivinə də rəhbərlik edirdi. "Üç qitədə" və "Futbol peşəsinin sirri" kitablarının müəllifidir. 1997-ci ildə Ə.Məmmədovun və Almaniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Çingiz Abdullayevin təşəbbüsü və maliyyə yardımı sayəsində veteran futbolçularımız iyun ayının 2-dən 9-dək Almaniyaya səfər etmiş, Eşembal, Essen və Yena şəhərlərində həmkarları ilə yoldaşlıq görüşləri keçirmişlər.***

Futbolçularla bərabər həmin səfərdə iştirak edən incəsənət ustalarımızın çıxışları almanları qədim odlar yurdunu daha yaxından tanımağa kömək etdi. Yerli mətbuat, radio və televiziya da Bakı elçilərinin çıxışını yüksək qiymətləndirdi. 2004-cü ildə isə qonşu Gürcüstan və Ukraynanın veteran futbolçuları ilə qarşılaşmışlar. Bəzi oyunlarda Ə.Məmmədov özü də yaşıl meydana çıxmışdır.

***Azərbaycan idmanının inkişafında göstərdiyi xidmətlərinə görə Ələkbər Məmmədov "Fəxri nişan" və "Şöhrət" ordenləri ilə təltif olunmuş, haqqında onlarca məqalə, oçerk yazılmış və televiziya filmi çəkilmişdir. O daim futbolumuzun sabahını düşünürdü. Ələkbər Məmmədovun adı XX əsr Azərbaycanın beş görkəmli idmançıları sırasına daxil edilmişdir.***

## Bu məqamda

məşhur həmyerlimiz haqqında iki görkəmli sənət adamının ürək sözlərini oxucuların nəzərinə çatdırmaq yerinə düşər: "Ələkbər Məmmədov sovet fptbolunun ən parlaq ulduzlanndan biridir.

O bu gözəl oyunda yaradıcı, estetik cəhətdən çox baxımlı və ürəklərə sevinc bəxş edən yeni bir yol açmışdır. Böyük futbolda qazandığı şöhrətə baxmayaraq, Ə.Məmmədov yaşıl meydanda çıxışlarının axırına kimi daim çalışqan, zəhmətsevər, düşüncəli və təvazökar idmançı olaraq qalıb".

***İmran Qasımov, xalq yazıçısı. "Mənim futbol kumirim Moskva "Dinamosu"nun heyətində əla oyunu ilə yadda qalan hücumçu Ələkbər Məmmədov olub".***

*Yevgeni LEONOV*
*SSRİ xalq artisti*

**Azərbaycan futbolunun inkişafında böyük xidmətləri olmuş SSRİ-nin əməkdar idman ustası və SSRİ-in əməkdar məşqçisi Ələkbər Məmmədov 28 iyul 2014-cü ildə 84 yaşında vəfat etdi. Onun əziz xatirəsi həmişə xalqımızın qəlbində yaşayacaq.**

**Həsən TAĞIYEV**

# 65 milyon insanın izlədiyi "Amfibiya adam": 60 ilin "Dəniz İblisi"

**Bu ilin yanvar ayında rus aktyor Vladimir Korenev 81 yaşında vəfat etdiyi xəbərləri "Amfibiya adam" filminəsevə-sevə baxan, bu filmi dəfələrlə izləməkdən yorulmayan tamaşaçıları xeyli kədərləndirdi. Korenev Vladimir Çebotarevin çəkdiyi məşhur sovet filmi "Amfibiya adam"da baş rol olan İxtiandrı canlandırmışdı. Yeri gəlmişkən, Vladimir Korenev 1940-cı ildə Sevastopolda anadan olub. 1961-ci ildə Stanislavski adına Moskva Dram Teatrının truppasına daxil olub və ömrünün son illərinə qədər orada çalışıb.**

Elmi-fantastik yazıçı Aleksandr Belyayevin yazdığı fantastik "Amfibiya adam" romanı əsasında çəkilib. Bu möhtəşəm əsərdə həm quruda, həm də suda yaşamağı bacaran və bu bacarığına görə "Dəniz İblisi" adlandırılan İxtiandr adlı gəncin həyatından bəhs olunur.

İstedadlı cərrah Salvator, İxtiandra köpək balığının qəlsəmələrini köçürmüşdür. Hadisələrm Argentinada, Atlantik Okeanının sahillərində cərəyan edir.

Bu, o film idi ki, 1961-ci ilin sonunda ekranlara çıxmış,.ekranlara çıxandan bir il sonra - 1962-ci ildə sovet kinoprokatının lideri olub və Korenevə ümumittifaq şöhrəti qazandırıb. İlk yarım il ərzində filmə artıq 65 milyon tamaşaçı baxmışdı.

***Azərbaycanlı tamaşaçılara bu film həm də ona görə əziz idi ki, "Amfbiya adam" Bakıda çəkilmişdi. 97 dəqiqəlik filmin rejissorları - Gennadi Kazanski və Vladimir Çebotaryov, ssenari müəllifləri - Akiba Qolburq və Aleksey Kapler, bəstəkar - Andrey Petrovdu. Rollarda isə Vladimir Korenev (İxtiandr), Anastasiya Vertinskaya (Quttiera), Mixail Kozakov (Don Pedro), Nikolay Simonov (Doktor Salvator), Vladlen Davıdov (Reportyor Olsen), Anatoli Smiranin (Quttieranın atası) və başqaları çəkilib.***





Baş rolun ifaçısı V. Korenevlə müsahibələrinin birində belə bir açıqlama vermişdi: "Üzməyi öyrənmişdim. Su altında ayaq üstə dim-dik gəzirdim. Bilirsiz necə? Sirri açım: botinkalarım və kəmərim ağır qurğuşundan düzəldilmişdi və məni aşmağa qoymurdu, yoxsa dəniz adamı yuxarı qaldırar, ya da kəlləmayallaq dayanarsan... Amma di gəl o ağır kostyumla sudan çıxa bilmirdim, quruda heç addım ata bilmirdim, dərhal köməyə gəlirdilər. Suyun dibində akvalanqçılar hazır dayanıb mənə nəfəs borusu verirdilər, içimə çoxlu nəfəs alıb çəkilişə başlayırdım, havam qurtaran kimi əllərimi yelləyib borunu istəyirdim, yenə dərin nəfəs alıb hazır olan kimi "motor" komandası verilirdi... Dənizin dibi bilsəniz necə sakitlikdir! Balıqlar da heç adamlardan qorxmur, yaxına gəlirdilər. Xırda balıq sürüsü adamın üstünə gələndə elə bil gümüşü balıq yağışına düşürdün.

Çox qəşəng idi dənizin dibi. Balıqlar həqiqətən xoşbəxtdir! İnda filmə baxıram və düşünürəm ki, hər halda gənclik - gözəllikdir! Amma bu heç də o demək deyil ki mən keçmişlə yaşayıram. Yox, mən bu gün də vacib işlərlə məşğulam: teatrda oynamaq, kinoya çəkilmək, tələbələri öyrətmək, nəvə saxlamaq..."

Kütləvi səhnələrdə çəkilən Bakı əhalisi o günləri yaxşı xatırlayır. "Amfibiya adam" filminin çəkilişi üçün məhz Bakının seçilməsi təsadüfi deyildi. Bu şəhərdə həm tarixilik, həm də dəniz vardı. əsasən Krımda işləyən "Lenfilm"in çəkiliş qrupu o vaxt Bakıya da gəlib. Kino rəssamları qədim İçərişəhərin evlərini rəngləmiş, kosmetik bər-bəzək vurmuş, küçələrə əcnəbi dildə reklam şitləri asmış, buranı ekzotik xarici ölkəyə bənzətmişlər.

Və İxtiandr səsli-küylü, al-əlvan Bakı gecələrində kafeləri gəzib (bu çəkilişlər o zaman şəhərin mərkəzində məşhur olan "Nərgiz" yay kafesində aparılıb), Quttieranı axtarıb, sambrerolu, əli dəyənəkli polislərdən qurtulmaq üçün İçərişəhərin dar dalanları, ensiz küçələri, evlərin üstü ilə qaçaraq, cəsarətlə bir damdan o biri dama tullanıb, küçədən keçən su maşınında gizlənib... Köhnə Bakılıların təbəssümlə xatırladıqları ən gözəl xatirə...

Bu, o vaxt Koronevin Bakıya ilk, Quttiere rolunun ifaçısı Anastasiyanın isə ikinci gəlişi idi. 1946-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında məşhur müğənni-şanson Aleksandr Vertinskinin konsertinə şəhərin yüksək zümrəsindən olanlar, musiqisevərlər gəlmişdilər.

Aleksandr Vertinski səhnəyə kiçik qızları Marianna və Anastasiya ilə birlikdə çıxdı, şeir söyləyib konserti açdı. Anastasiyanın Bakı ilə ilk görüşü belə oldu. Bəlkə də bu xatirələr üç-dörd yaşlı Nastyanın yaddaşına həmişəlik həkk olmuşdu və on üç il sonra Bakıya çəkilişə gələndə, heç şübhəsiz, atalı günlərini, bu şəhərdə keçirdiyi o qayğısız anları xatırlamışdı.

Bu günlər filmin yaranmasının 60 ili tamam olur. 2019-cu ildə Rusiyanın paytaxtı Moskvaya səfər edən tanınmış amerikalı aktyor və rejissor Quentin Tarantino Sovet istehsalı olan "Amfibiya adam" filminə uşaqlıqdan bəri pərəstiş etdiyini söyləyib. Eyni zamanda o bildirib ki, filmin hansı ölkədə çəkildiyini də bilməyib.

**Tarantino bildirib ki, 1970-ci illərin əvvəllərində Los-Ancelesdə televiziyada "Amfibiya Adam"ı tez-tez izləyirmiş. Görünən odur ki, 60 il də keçsə bu film öz reytinqin qoruyub saxlayacaq və hər zaman seviləcək.**

**Əntiqə Rəşid**


Rəcəbov Nicat İttifaq oğlunun adına verilmiş Bakı şəhət Nərimanov rayonu, Kosmos yaşauış binası Əliyar Əliyev 8 blok 4 mənzil 412 ünvanın Maliyyə arayışı və Müqaviləsi itdiyi üçün etibarsız sayılır.


Aqil Abbas gənclər və idman naziri

**Azad Rəhimovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şağan" OİK-in direktoru Atakişi Cahanov və kollektivi gənclər və idman naziri

**Azad Rəhimovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu Füzuli rayon Ağsaqqallar Şurasının sədri **Zülfüqar Əliyevə** qardaşı

**Məmməd müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 92
Çapa imzalanmışdır: 03.05.2021